RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 117 (10137) 7 iyul 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan-Birləşmiş Ştatlar münasibətləri yüksələn xətlə və uğurla inkişaf edir

## Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Əlamətdar tarix - Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin 250-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda dost Amerika xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azadlıq uğrunda mübarizənin, yenilməz iradənin və demokratiyanın rəmzinə çevrilmiş İstiqlaliyyət Bəyannaməsinin iki yüz əlli il əvvəl 4 iyul tarixində imzalanması ilə müstəqilliyini elan etmiş Amerika Birləşmiş Ştatları təkcə yerləşdiyi qitədə deyil, bütövlükdə dünyada yeni nizamın qurulmasına təkan verdi. Ötən dövr ərzində şanlı inkişaf yolu keçmiş Birləşmiş Ştatlar bu gün qlobal arenada hər bir cəhətdən güclü və qüdrətli dövlətdir. Hazırda Sizin əzmlə və qətiyyətlə həyata keçirdiyiniz siyasət sayəsində ölkənizin əldə etdiyi möhtəşəm nailiyyətlərin sayı artır, beynəlxalq aləmdə liderliyi, etibarı və yüksək nüfuzu daha da möhkəmlənir.

Son dövrdə Azərbaycan-Birləşmiş Ştatlar münasibətlərinin yüksələn xətlə və uğurla inkişaf etməsi məmnunluq doğurur. Biz iki ölkə arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir, dövlətlərarası əlaqələrimizin güclənməsinə daim verdiyiniz böyük önəmə və dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. Fevral ayında imzalanan və münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran Strateji Tərəfdaşlıq Xartiyasının iqtisadiyyat, enerji, bağlantılar, təhlükəsizlik kimi ənənəvi sahələrlə yanaşı, rəqəmsal transformasiya, süni intellekt və digər mühüm istiqamətlər üzrə tərəfdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyimi ifadə edirəm.

Biz Sizin Cənubi Qafqazda sülh gündəliyinin təşviqi və dayanıqlı inkişafın təmin edilməsi istiqamətində qətiyyətli səylərinizi də son dərəcə yüksək qiymətləndiririk. Keçən ilin avqustun 8-də Ağ Evdə Sizin təşəbbüsünüzlə baş tutmuş tarixi üçtərəfli görüşün nəticələri regionumuzda tamamilə yeni müsbət ab-hava və vəziyyət yaratdı. Artıq Azərbaycan ilə Ermənistan sülh şəraitində yaşayır və ticarət münasibətləri qururlar. Eyni zamanda regionda sabitliyə və rifaha xidmət edən infrastruktur layihələrinin, xüsusilə də Asiya ilə Avropa arasında alternativ, etibarlı və təhlükəsiz bağlantını təmin edəcək "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun reallaşmasına ölkənizin göstərdiyi davamlı dəstəyini xüsusi qeyd etmək istərdim.

Hörmətli cənab Prezident!

Biz Azərbaycan ilə Birləşmiş Ştatlar arasında böyük potensiala malik qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət veririk. Əminəm ki, bu potensialdan və mövcud imkanlardan tam bəhrələnərək birgə səylərimizlə dövlətlərarası münasibətlərimizin möhkəmlənməsinə, strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Bu şanlı yubiley günündə bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər və yeni-yeni nailiyyətlər, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim əmin-amanlıq, firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 iyul 2026-cı il*

# Xalqın etimadından güc alan PREZİDENT



Prezident İlham Əliyevin xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri məhz balanslaşdırılmış diplomatiyadır. Azərbaycan eyni zamanda Qərb və islam ölkələri, türk dünyası, Mərkəzi Asiya ölkələri, qonşular və digər tərəfdaşlarla qarşılıqlı faydalı münasibətlər quraraq müxtəlif siyasi platformalar arasında etimad yarada bilən nadir ölkələrdən biri kimi çıxış etməyə başlamışdır. Belə çoxtərəfli əməkdaşlıq modeli ölkənin geosiyasi mövqeyini gücləndirməklə yanaşı, beynəlxalq proseslərdə vasitəçi və dialoq platforması statusu qazanmasına da şərait yaratmışdır. Azərbaycanın beynəlxalq nüfuzunun artmasında enerji diplomatiyası xüsusi rol oynamışdır. Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına etibarlı marşrutlarla çatdırılması istiqamətində həyata keçirilən iri layihələr ölkənin iqtisadi imkanlarını genişləndirməklə yanaşı, onun geosiyasi əhəmiyyətini də xeyli dərəcədə artırmışdır. Azərbaycan artıq yalnız enerji ixrac edən ölkə deyil, Avrasiyanın enerji təhlükəsizliyinin mühüm iştirakçısı və etibarlı tərəfdaşı kimi qəbul edilir. Cənab İlham Əliyevin iradəsi əsasında həyata keçirilən enerji əməkdaşlığı iqtisadi münasibətlərin hüdudlarını aşaraq siyasi etimadın formalaşmasına və uzunmüddətli strateji tərəfdaşlıqların yaranmasına mühüm töhfə vermişdir.

Nəqliyyat və logistika sahəsində həyata keçirilən siyasət də Azərbaycanın beynəlxalq rolunu yeni mərhələyə yüksəltmişdir. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən beynəlxalq nəqliyyat marşrutlarının qovşağında yerləşən ölkəmiz Avrasiyanın əsas tranzit mərkəzlərindən biri kimi qəbul olunur. Qlobal təchizat zəncirlərinin yenidən formalaşdığı, alternativ marşrutlara tələbatın artdığı dövrdə Azərbaycanın təşəbbüsü və iştirakı ilə yaradılmış nəqliyyat infrastrukturu ölkənin coğrafi mövqeyini mühüm strateji üstünlüyə çevirmişdir.

Prezident İlham Əliyev xarici siyasət kursunda çoxtərəfli diplomatiyaya hər zaman üstünlük verir. Bu siyasətin bariz nümunələrindən biri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi olmuşdur. Quruma 2019-cu ildən başlayaraq 4 il davam edən sədrliyi dövründə Azərbaycan inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsi, beynəlxalq həmrəyliyin gücləndirilməsi və qlobal problemlərin həllinə dair təşəbbüslərlə çıxış etmiş, xüsusilə pandemiya dövründə irəli sürülən humanitar təşəbbüslər və beynəlxalq əməkdaşlıq çağırışları ölkəmizin məsuliyyətli beynəlxalq tərəfdaş kimi nüfuzunu daha da möhkəmləndirmişdir.

8

## Rəqəmsal inkişafın hüquqi təminatı

Dövlət informasiya sistemlərinin, kritik infrastrukturun, maliyyə sektorunun, enerji sistemlərinin və vətəndaş məlumatlarının etibarlı qorunması milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Buna görə də rəqəmsal transformasiya ilə kibertəhlükəsizlik siyasətinin paralel şəkildə inkişaf etdirilməsi müasir dövlət idarəçiliyinin əsas prinsiplərindən hesab olunur. Bu baxımdan iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilmiş Rəqəmsal Şuranın ilk iclası xüsusi əhəmiyyət daşıyır. İclasda Fəaliyyət Planının icrası, qarşıda duran vəzifələr və institusional islahatların gedişi müzakirə olunub. Bu, dövlətin rəqəmsal transformasiya siyasətinin davamlı və sistemli şəkildə həyata keçirildiyini göstərir.



9

## Qarabağ və Şərqi Zəngəzurda yazılan quruculuq tarixinin səhifələri



Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələrə nəzər saldıqda ilk diqqəti cəlb edən sahə infrastruktur quruculuğudur. İşğal dövründə, demək olar ki, bütün yollar, körpülər, enerji xətləri, sosial obyektlər və yaşayış məntəqələri dağıdılmışdı. Azərbaycan Ordusu torpaqlarımızı azad etdikdən sonra ilk olaraq qısa müddət ərzində yüzlərlə kilometr avtomobil yolu çəkildi, tunellər və körpülər tikildi. Bu layihələr arasında xüsusi yer tutan Zəfər yolu təkcə mühəndislik nailiyyəti deyildi, həm də ölkəmizin şanlı hərbi tarixinin simvolu idi. Vaxtilə qəhrəman Azərbaycan əsgərinin keçdiyi döyüş marşrutu bu gün Qarabağın inkişafına xidmət edən müasir nəqliyyat xəttidir. Şuşaya aparan bu yol həm tarixi yaddaşı yaşadır, həm də gələcəyə uzanan inkişaf körpüsü rolunu oynayır.

5

## Azərbaycandan tranzit keçməklə Ermənistana 1026 ton propan göndərilib

Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə növbəti tədarük həyata keçirilib. AZƏRTAC xəbər verir ki, 30 vaqondan ibarət, çəkisi 1026 ton olan propan bu gün Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 36 min tondan çox taxıl, 8 min tonadək gübrə, 133 ton alüminium, 68 ton qarabaşaq və 414 ton antrasit göndərilib.

Eyni zamanda indiyədək Azərbaycandan Ermənistana 14 min tondan çox dizel, 5 min tona yaxın Aİ-92 və Aİ-95 benzini ixrac olunub.



# Malavi Respublikasının Prezidenti zati-aliləri cənab Artur Piter Mutarikaya

Hörmətli cənab Prezident!

Malavi Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan-Malavi əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"yə və 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"nauyğun olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini, habelə Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsinin icrası, gəlirlər17160385,2 min manat, xərclər 14627160,4 min manat və ya Fondun 2025-ciil büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 118,7 faiz, xərclər üzrə 99,9 faiz səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (min manatla) |
|---|---|---|
| | Gəlirlər, cəmi: | **17160385,2** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 9 497 023,3 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilərin müqavilə sahəsindən istifadə üçün akrhesabı ödənişləri | 3 600,6 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 14,4 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir | 6 894 010,5 |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 765 736,4 |
| | Xərclər, cəmi: | **14 627 160,4** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinə transfert | 14 481 000,0 |
| 2. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 18 637,8 |
| 3. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 86 897,2 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 40 625,4 |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2026-cı il*

# "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 606 (Cild I); 2024, № 3, maddə 250, № 12 (II kitab), maddə 1331) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. 1.0.12-ci maddədə "və ya bərpa edilməsi şərti ilə kəsilməsinə" sözləri ", bərpa edilməsi şərtilə və ya bərpa edilmədən kəsilməsinə" sözləri ilə və həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 1.0.13-cü və 1.0.14-cü maddələr əlavə edilsin:

"1.0.13. ağac - oduncaqlaşmış bir əsas gövdəyə və çətirə malik, torpaq səthindən yuxarıda budaqlanan çoxillik bitki;

1.0.14. kol - oduncaqlaşmış gövdələrə və çətirə malik, aydın müəyyən edilmiş əsas gövdəsi olmayan, torpaq səthindən (kök boğazdan) budaqlanan çoxillik bitki.".

2. 13-cü maddə üzrə:

2.1. 13.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda 13.1.7-ci maddə əlavə edilsin:

"13.1.7. məqsədli təyinatı əkin, çoxillik əkmələrin altında olan kənd təsərrüfatı təyinatlı torpaqlardakı yaşıllıqlar kənd təsərrüfatı fəaliyyətinə mane olduqda.";

2.2. 13.3-cü maddədə "və 13.1.6-cı" sözləri ",13.1.6-cı və 13.1.7-ci (ağaclara münasibətdə)" sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 13.6-1-ci və 13.6-2-ci maddələr əlavə edilsin:

"13.6-1. Bu Qanunun 13.1.7-ci maddəsində nəzərdə tutulan halda kolların kəsilməsi ilə bağlı bu Qanunun 13.6-2-ci maddəsinə uyğun olaraq məlumatlandırma icraatı həyata keçirilir. Barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsinə münasibətdə bu Qanunun 13.4 - 13.6-cı maddələrində nəzərdə tutulmuş tələblər tətbiq olunmur.

13.6-2. Kolların kəsilməsi üçün bu Qanunun 13.1.7-ci maddəsi ilə müəyyən edilmiş hal mövcud olduqda ərizəçi tərəfindən kolların kəsilməsindən əvvəl kəsiləcək kolların sayı, cinsi, növü, hündürlüyü, fotoşəkli, həmin kolların yayıldığı ərazinin ölçüsü (hektarla), kolların kəsilməsini zəruri edən hal, kolların yerləşdiyi torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti, habelə ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və fərdi identifikasiya nömrəsi (FİN-i), hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda, həmçinin onun vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamənin surəti, hüquqi şəxs olduqda hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti əlavə edilməklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə məlumat verilir.Ərizəçi tərəfindən yalan və (və ya) təhrif olunmuş məlumatın verilməsi qadağandır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 10 (on) təqvim günü müddətində həmin kolların kəsilməsinə dair irad ərizəçiyə təqdim edilmədikdə, ərizəçi kolların kəsilməsini həyata keçirə bilər. İrad olduqda, həmin irad normativ hüquqi aktlara istinad olunmaqla və onların pozulan tələbləri dəqiq göstərilməklə əsaslandırılmalıdır.".

3. 15.2-ci maddəyə "götürülməsinə" sözündən sonra ", 13.1.7-ci maddəsində nəzərdə tutulan halda isə kol, gül-çiçək və ot bitkilərinin kəsilməsinə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 422-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 422-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13.6-2-ci maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13.6-2-ci maddəsinin birinci (birinci halda) və üçüncü cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 13.6-2-ci maddəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Rəqəmsal ekologiya" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü maddəsində nəzərdə tutulan qərarın qəbul edilməsi prosesinin sadələşdirilməsi və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Rəqəmsal ekologiya" informasiya sistemi üzərindən elektron formada həyata keçirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının2026-cı il 12 iyun tarixli 422-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 640 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bəndə "Qanununun" sözündən sonra "13.6-2-ci maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 3.2-1-ci və 3.2-2-ci bəndlər əlavə edilsin:

"3.2-1. həmin Qanunun 13.6-2-ci maddəsinin birinci (birinci halda) və üçüncü cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

3.2-2. həmin Qanunun 13.6-2-ci maddəsinin birinci cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Rəqəmsal ekologiya" informasiya sistemi nəzərdə tutulur;".

4. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 282 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 22; 2026, № 4, maddə 313) ilə təsdiq edilmiş "Rəqəmsal ekologiya" informasiya sistemi haqqında Əsasnamə"nin 3.3.2-ci yarımbəndinə "olunması," sözündən sonra "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13.6-2-ci maddəsinə uyğun olaraq barəsində məlumatlandırma icraatı tətbiq edilən kollar üzrə həmin maddədə nəzərdə tutulmuş məlumatların təqdim edilməsi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 225-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "ASAN xidmət" mərkəzlərində həyata keçirilən xidmət növlərinin və elektron xidmətlərin genişləndirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 fevral tarixli 110 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 117 (Cild I); 2024, № 8, maddə 937) 1-ci hissəsində və 2.1-ci bəndində "cərimə növündə inzibati tənbeh tətbiq edilməsi barədə" sözləri "xəta haqqında protokolların, o cümlədən elektron protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların), o cümlədən elektron"sözləri ilə əvəz edilsin.

2. "ASAN ödəniş" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125 (Cild I); 2024, № 8, maddə 937; 2025, № 5, maddə 460) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.2-ci bənddə "cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarları, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolları, yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında protokolları" sözləri "xəta haqqında protokolları, o cümlədən elektron protokolları və inzibati xəta haqqında iş üzrə qərarları (qərardadları), o cümlədən elektron qərarları" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "ASAN ödəniş" informasiya sistemi haqqında Əsasnamə" üzrə:

2.2.1. 1-ci hissə üzrə:

2.2.1.1. 1.2.1-ci yarımbənddə "cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarların, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolların, yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında protokolların" sözləri "xəta haqqında protokolların, o cümlədən elektron protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların), o cümlədən elektron qərarların" sözləri ilə əvəz edilsin;

2.2.1.2. 1.2.4-cü yarımbənddə "xüsusi ödəmə terminalları, mobil telefon aparatları və internet vasitəsilə elektron qaydada" sözləri "ödəniş kartı və digər ödəniş alətləri vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.2.1.3. 1.4.1-ci yarımbənddə "edən" sözündən sonra ", habelə informasiya ehtiyatları və sistemləri mövcud olmadığı üçün sistemdən elektron kabinet vasitəsilə istifadə edən" sözləri əlavə edilsin;

2.2.1.4. 1.4.2-ci yarımbənddə "xüsusi ödəmə terminalı və mobil telefon aparatları" sözləri "ödəniş kartı və digər ödəniş alətləri" sözləri ilə əvəz edilsin;

2.2.1.5. 1.4.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.4.3. elektron kabinet - sistemin istifadəçisini Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirməklə, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, onun özü barəsində məlumatlarla tanış olmasını, onları əldə etməsini və dəyişdirilməsi üçün müraciət etməsini, habelə digər müraciətlərini elektron formada göndərməsini, ödənişlər həyata keçirməsini (ödəniş xidməti təchizatçıları vasitəsilə), həmçinin sistemin sahibi, operatoru və iştirakçıları ilə qarşılıqlı əlaqəsini, eləcə də sistem iştirakçısının həmin altsistem vasitəsilə identikləşdirilməklə sistemin sahibi və operatoru ilə qarşılıqlı sənəd (məlumat) mübadiləsini təmin edən fərdi elektron səhifədir.";

2.2.2. 4-cü hissə üzrə:

2.2.2.1. 4.0.10-cu yarımbənddə "iş üzrə qərarı, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolları, yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında protokolu" sözləri "protokolları, o cümlədən elektron protokolları və inzibati xəta haqqında iş üzrə qərarları (qərardadları), o cümlədən elektron qərarları" sözləri ilə əvəz edilsin;

2.2.2.2. 4.0.11-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.0.11. inzibati xəta haqqında protokollar, o cümlədən elektron protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar), o cümlədən elektron qərarlar və onların əlavələri barədə məlumatın inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin elektron kabinetində olan mobil telefon nömrəsinə və elektron ünvanına çatdırıldığı barədə real vaxt rejimində səlahiyyətli sistem iştirakçısını məlumatlandırmaq və bu barədə məlumatları "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsisteminə (bundan sonra - "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL"altsistemi) ötürmək;";

2.2.2.3. 4.0.12-ci yarımbənddə "məlumatlandırılmasını" sözündən sonra ", habelə bu barədə məlumatların "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsisteminə ötürülməsini" sözləri əlavə edilsin;

2.2.3. 7-ci hissə üzrə:

2.2.3.1. 7.1-ci bənd üzrə:

2.2.3.1.1. birinci abzasda "1 gün müddətində" sözləri "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38.6-cı maddəsində nəzərdə tutulmuş müddətdə" sözləri ilə əvəz olunsun və həmin abzasa "göndərirlər" sözündən sonra "və ya 24 saat müddətində elektron kabinet vasitəsilə sistemə daxil edirlər" sözləri əlavə edilsin;

2.2.3.1.2. 7.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"7.1.1. inzibati xəta haqqında protokolları, o cümlədən elektron protokolları və inzibati xəta haqqında iş üzrə qərarları (qərardadları), o cümlədən elektron qərarları, habelə həmin sənədlər üzrə sistem iştirakçılarının informasiya sistemlərinə (ehtiyatlarına) daxil edilmiş məlumatları;";

2.2.3.1.3. 7.1.4-cü yarımbənd ləğv edilsin;

2.2.3.1.4. 7.1.5-1-ci yarımbənddə "127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolun və ya inzibati tənbeh vermə haqqında elektron qərarın, habelə foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalara görə çıxarılmış inzibati tənbeh vermə haqqında" sözləri "57.6-cı maddəsi nəzərə alınmaqla, inzibati xəta haqqında protokolun, o cümlədən elektron protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), o cümlədən" sözləri ilə əvəz edilsin;

2.2.3.2. 7.3-cü bənddə "resursunda" sözü "ehtiyatında" sözü ilə əvəz edilsin;

2.2.3.3. aşağıdakı məzmunda 7.3-1-ci bənd əlavə edilsin:

"7.3-1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər barədə informasiya ehtiyatları və sistemləri mövcud olmayan inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan sistem iştirakçıları sistemdə onlar üçün yaradılmış elektron kabinetdən istifadə edirlər.";

2.2.3.4. 7.5-ci bənd üzrə:

2.2.3.4.1. birinci cümlədə "cərimənin məbləği, inzibati xəta haqqında elektron protokolun və ya inzibati xəta haqqında iş üzrə qərarın nömrəsi, məhkəmə qərarının" sözləri "tətbiq edilmiş inzibati tənbeh haqqında məlumat, o cümlədən cərimənin məbləği və ödənilməsi qaydası barədə məlumat, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 57-1.1-ci maddəsində göstərilən müvafiq sənədin" sözləri ilə əvəz edilsin;

2.2.3.4.2. ikinci cümlədə "nəqliyyat vasitəsinin" sözləri "sistem" sözü ilə, "125.2.1-ci" sözləri "57-1.1.1-ci" sözləri ilə, "inzibati xəta haqqında iş üzrə qərarla" sözləri "sənədlə" sözü ilə əvəz edilsin;

2.2.3.4.3. üçüncü cümləyə "iştirakçılarına" sözündən sonra "və "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsisteminə" sözləri əlavə edilsin;

2.2.3.5. 7.9-cu bənddə "iş üzrə qərarla, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolla və ya yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında protokolla" sözləri "protokolla, o cümlədən elektron protokolla və inzibati xəta haqqında iş üzrə qərarla (qərardadla), o cümlədən elektron qərarla, cərimənin ödənilməsi qaydası barədə müvafiq məlumatla" sözləri ilə əvəz edilsin;

2.2.3.6. 7.10-cu bənddə "iş üzrə qərar, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokol və ya yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xəta haqqında protokol" sözləri "protokol, o cümlədən elektron protokol və inzibati xəta haqqında iş üzrə qərar (qərardad), o cümlədən elektron qərar" sözləri ilə əvəz edilsin;

2.2.3.7. 7.10-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"7.10-1. İnzibati tənbeh vermə haqqında qərar, o cümlədən elektron qərar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38.6-cı maddəsinə uyğun olaraq şəxsin elektron kabinetində yerləşdirilmədikdə, şəxs (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) inzibati məsuliyyətə cəlb oluna bilməz.";

2.2.3.8. 7.15-ci bəndin üçüncü cümləsində "qərarın surəti sistem iştirakçısı tərəfindən" sözləri "qərar sistem iştirakçısı tərəfindən həmin Məcəllənin 136.2-2-ci maddəsinə əsasən" sözləri ilə əvəz edilsin;

2.2.3.9. 7.17-ci bənddə "əhalinin intensiv istifadə etdiyi ictimai yerlərdə quraşdırılmış və sistemə inteqrasiya olunmuş xüsusi ödəmə terminalları, sistemin xüsusi proqram təminatı əsasında mobil telefon aparatları və ya sistemin internet səhifəsi" sözləri "ödəniş kartı və digər ödəniş alətləri" sözləri ilə əvəz edilsin;

2.2.3.10. 7.18-ci bənddə "iş üzrə qərarın, habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 127-4-cü maddəsində nəzərdə tutulmuş qaydada müvafiq informasiya sistemləri (ehtiyatları) vasitəsilə aşkar edilən inzibati xətalar haqqında elektron protokolun" sözləri "protokolun, o cümlədən elektron protokolun və inzibati xəta haqqında iş üzrə qərarın (qərardadın), o cümlədən elektron qərarın" sözləri ilə əvəz edilsin;

2.2.3.11. 7.19-cu bəndə "sisteminə" sözündən sonra "və "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İCMAL" altsisteminə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634 (Cild I); 2024, № 4, maddə 385, № 6 (I kitab), maddə 654, № 8, maddə 943, № 10, maddə 1140, № 12 (II kitab), maddə 1383; 2025, № 6, maddə 541, № 11, maddə 1022, № 12 (I kitab), 1154; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.3.7-ci yarımbənddə "127-3-cü" sözləri "127-3.1-ci" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 4.1.8-1-ci yarımbənd əlavə edilsin:

"4.1.8-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;".

4. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 937; 2025, № 4 (I kitab), maddə 341) ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 6.1.21-1-ci yarımbənd əlavə edilsin:

"6.1.21-1. inzibati xəta haqqında iş üzrə çıxarılmış qərarın Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 117.3-cü maddəsinə uyğun olaraq inzibati xəta haqqında protokolu tərtib etmiş səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul etmiş prokurora və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin məlumatlandırılması üçün "ASAN ödəniş" informasiya sisteminə, habelə həmin qərarla bağlı məlumatların "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsisteminə göndərilməsi;".

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 mart tarixli 1621 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 209 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 937) ilə təsdiq edilmiş "Elektron prokurorluq" informasiya sistemi haqqında Əsasnamə"yəaşağıdakı məzmunda 6.0.9-1-ci yarımbənd əlavə edilsin:

"6.0.9-1. sanksiyasında inzibati cərimə növündə inzibati tənbeh tədbiri nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə qərarın (qərardadın) təsdiq edilməmişdən əvvəl Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin tələblərinə uyğun olaraq "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsisteminə ötürülməsi, habelə həmin qərarın baxılması üçün hakimə və ya səlahiyyətli orqana (vəzifəli şəxsə) göndərilməsi;".

6. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I); 2024, № 2, maddələr 147, 158, № 6 (I kitab), maddə 654, № 7, maddələr 814, 815, № 8, maddələr 937, 948) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6.1-ci bənd üzrə:

6.1.1. 6.1.13-cü yarımbənddə "foto" sözündən əvvəl "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 57.6-cı maddəsi nəzərə alınmaqla, inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), habelə" sözləri əlavə edilsin;

6.1.2. aşağıdakı məzmunda 6.1.13-1-ci yarımbənd əlavə edilsin:

"6.1.13-1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-2.1-ci maddəsinə uyğun olaraq inzibati xəta haqqında protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar) barədə məlumatların, habelə həmin Məcəllənin 45-2.3-cü maddəsinə uyğun olaraq, informasiya sistemlərində tərtib edilmiş inzibati tənbeh vermə haqqında elektron qərarın və bort-kompüter vasitəsilə tərtib edilmiş protokolun və qərarın "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" altsisteminə ötürülməsi;";

6.1.3. 6.1.15-ci yarımbənddən "xüsusi texniki vasitələrin məlumatları əlavə edilməklə," sözləri çıxarılsın və həmin yarımbənddə "qərarın" sözündən sonra "(xüsusi texniki vasitələrin məlumatları əlavə edilməklə) və 124.4-cü maddəsinə uyğun olaraq operativ nəqliyyat vasitəsində quraşdırılmış bort-kompüter vasitəsilə tərtib edilmiş protokolun və qərarın" sözləri, "Məcəllənin" sözündən sonra "124.4-cü maddəsinə uyğun olaraq əl ilə nömrələnmiş blankda tərtib edilmiş protokol və ya qərar barədə məlumatların və" sözləri əlavə edilsin;

6.2. 7.4-cü bənd üzrə:

6.2.1. 7.4.4-cü yarımbənddə "125.2.2-ci" sözləri "57-1.1.2-ci" sözləri ilə,"125.2.1-ci" sözləri "57-1.1.1-ci" sözləri ilə, "inzibati xəta haqqında iş üzrə qərarla və onun" sözləri "sənədlər və onların" sözləri ilə əvəz edilsin;

6.2.2. 7.4.6-cı yarımbənddə "foto" sözündən əvvəl "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 57.6-cı maddəsi nəzərə alınmaqla, inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın (qərardadın), habelə" sözləri əlavə edilsin;

6.3. həmin Əsasnaməyə əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi"nin fəaliyyətində iştirak edən dövlət orqanlarının (qurumlarının) Siyahısı"na aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2026-cı il*

# Zimbabve Azərbaycanla münasibətlərin inkişafına önəm verir

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Mudenda ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Zimbabve Respublikası Parlamentinin Sədri Milli Məclisin plenar iclas zalı ilə tanış olub.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova ilə Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Mudenda arasında təkbətək görüş keçirilib.

Görüşdən sonra qonaqlar Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar.

Zimbabve Respublikası parlamentinin Sədri Yakob Mudenda Xatirə kitabını imzalayıb.





Görüşdə Azərbaycan ilə Zimbabve arasında siyasi münasibətlərin yaxşı səviyyədə olduğu bildirilərək, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcud olduğu qeyd edilib. Zimbabve Respublikasının Prezidentinin ölkəmizə dövlət səfəri etdiyi, səfər zamanı ölkə başçıları arasında səmərəli müzakirələrin aparıldığı xatırladılıb.

Söhbət zamanı Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalar çərçivəsində ölkələrimiz arasında mövcud olan səmərəli əməkdaşlıqdan bəhs edən Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv ölkələr ilə həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin gücləndirilməsinə, eləcə də ortaq maraqların beynəlxalq səviyyədə müdafiəsinə xüsusi diqqət yetirib və bu siyasət bu gün də uğurla davam etdirilir.

Görüşdə qanunverici orqanlar arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunub. Spiker Sahibə Qafarova Zimbabve parlamentinin Sədrinin ölkəmizdə keçirilən COP29 çərçivəsində Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə baş tutmuş Parlament Görüşündə iştirakını və həmin səfər zamanı aparılan danışıqları məmnunluqla xatırladıb. O, həmçinin ötən il Cənubi Afrikada keçirilən G20 Parlament Sədrlərinin 11-ci Sammiti (P20) və cari ilin aprel ayında İstanbulda təşkil olunan Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində baş tutmuş görüşlərin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, belə təmaslar parlamentlərimiz arasında əlaqələrin daha da dərinləşməsinə mühüm töhfə verir.

Parlamentlərarası əməkdaşlığın ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafında mühüm rol oynadığı vurğulanaraq, qanunverici orqanlarda fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında təmasların intensivləşdirilməsinin, həmçinin parlament komitələri arasında əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanın Zimbabve ilə beynəlxalq parlament təşkilatları çərçivəsində də əməkdaşlığa xüsusi əhəmiyyət verdiyi diqqətə çatdırılıb. Bildirilib ki, Parlamentlərarası İttifaq və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi (QHPŞ) çərçivəsində müntəzəm təmaslar davam etdirilir və bu platformalarda əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli imkanlar mövcuddur.

Zimbabve Milli Assambleyasının Sədri Yakob Mudenda Azərbaycana rəsmi səfərindən və Milli Məclisdə olmaqdan məmnunluğunu ifadə edib, son illərdə sürətlə inkişaf edən paytaxt Bakı ilə bağlı müsbət təəssüratlarını bölüşüb.

Qonaq səfər çərçivəsində Fəxri xiyabanı və Zəfər parkını ziyarət etdiyini xatırladaraq deyib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçmiş insanların xatirəsinə həsr olunmuş abidəni ziyarət etmək şərəfdir.

Zimbabvenin Azərbaycanla münasibətlərin inkişafına önəm verdiyini və ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirən parlamentin sədri, hər iki ölkənin bölüşdüyü multilateralizm prinsiplərinin təşviqinin və beynəlxalq hüquqa əsaslanan əməkdaşlığın gücləndirilməsinin qlobal sülhün və sabitliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. O, həmçinin iqtisadi əlaqələrin önəmi barədə də fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Zimbabve Respublikası Milli Assambleyasının Sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib



**Ölkəmizdə rəsmi səfərdə olan Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Fransis Nzvidamilimo Mudendanın başçılıq etdiyi nümayəndə heyəti iyulun 6-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.



Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, Milli Məclisin Zimbabve ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mahir Süleymanlı və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Zimbabve Milli Assambleyasının spikeri ölkəmizə rəsmi səfərə gəlib

**Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Fransis Nzvidamilimo Mudenda iyulun 5-də Azərbaycana rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Zimbabve parlament nümayəndə heyətini Milli Məclisin Zimbabve ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mahir Süleymanlı və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*



# Milli Məclisdə görüşlər

İyulun 6-da Milli Məclisin Zimbabve ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mahir Süleymanlı və işçi qrupunun üzvləri Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Mudendanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Zimbabve arasında dostluq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Mahir Süleymanlı parlamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsinin, qarşılıqlı səfərlərin və parlament diplomatiyasının iki ölkə arasında əməkdaşlığın inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Söhbət zamanı parlamentin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi, onlayn kommunikasiyanın inkişaf etdirilməsi, turizm, "yaşıl enerji" və süni intellekt sahələrində əməkdaşlıq imkanları, eləcə də beynəlxalq platformalarda qarşılıqlı dəstək məsələləri müzakirə olunub.

Görüşdə Milli Məclisin Zimbabve ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Zaur Şükürov çıxış edərək iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişafı və əməkdaşlığın genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Görüşdə Milli Məclisin Zimbabve ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Ülviyyə Ağayeva, Mircəlil Qasımlı, İlham Məmmədov, Məzahir Əfəndiyev, Zimbabve Respublikası Milli Assambleyasının üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

❖ ❖ ❖

İyulun 6-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov və komitənin üzvləri Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Fransis Nzvidamilimo Mudendanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Görüş zamanı bildirilib ki, Azərbaycan ilə Zimbabve arasında münasibətlər qarşılıqlı hörmətə, bərabərhüquqlu tərəfdaşlığa, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanır. Vurğulanıb ki, iki ölkə arasında siyasi dialoqun inkişafı, parlamentlərarası əməkdaşlığın genişlənməsi və qarşılıqlı səfərlər ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə mühüm töhfə verir.







Söhbət zamanı Azərbaycanın Afrika dövlətləri ilə əlaqələrin inkişafını xarici siyasətinin mühüm istiqamətlərindən biri hesab etdiyi qeyd olunub. Bu çərçivədə humanitar təşəbbüslərin genişləndirilməsi, iqtisadi əməkdaşlığın təşviqi və parlament diplomatiyasının gücləndirilməsi istiqamətində görülən işlərin qarşılıqlı marağın artmasına və əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə şərait yaratdığı diqqətə çatdırılıb.

Tərəflər təbii ehtiyatların səmərəli idarə olunması və qorunması, enerji təhlükəsizliyinin təmin edilməsi, bərpaolunan enerji mənbələrinin inkişafı, iqlim dəyişikliyi ilə mübarizə və ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi kimi aktual məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar. Bu istiqamətlərdə təcrübə mübadiləsinin və birgə təşəbbüslərin əhəmiyyəti xüsusi vurğulanıb.

Görüşdə həmçinin iki ölkənin beynəlxalq platformalarda, o cümlədən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi, COP29 və WUF13 çərçivəsində uğurlu əməkdaşlığından bəhs olunub. Qeyd edilib ki, bu kimi formatlarda qurulan səmərəli əməkdaşlıq çoxtərəfli münasibətlərin inkişafına və qlobal çağırışlara qarşı birgə yanaşmaların formalaşdırılmasına mühüm töhfə verir.

Sonda Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi ilə Zimbabve Respublikası Milli Assambleyasının müvafiq komitəsi arasında əməkdaşlığın gələcək perspektivləri, qarşılıqlı maraq doğuran sahələrdə birgə layihələrin həyata keçirilməsi və qanunvericilik sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi məsələləri müzakirə olunub.

❖ ❖ ❖

İyulun 6-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Zimbabve Respublikası Milli Assambleyasının Sədri Yakob Mudendanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, Azərbaycan ilə Zimbabve arasında münasibətlər son illərdə yüksələn xətt üzrə inkişaf edir. O, parlamentlərarası əlaqələrin dövlətlərarası əməkdaşlığın mühüm istiqamətlərindən biri olduğunu vurğulayaraq, qanunverici orqanlar arasında qarşılıqlı səfərlərin, komitələr və dostluq qrupları səviyyəsində təmasların genişləndirilməsinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət etdiyini qeyd edib.

Milli Assambleyanın Sədri Yakob Mudenda Zimbabve parlamentinin Azərbaycanla parlamentlərarası əməkdaşlığın və dialoqun genişləndirilməsində maraqlı olduğunu bildirib. Bu əlaqələrin iki ölkə arasında siyasi və iqtisadi münasibətlərin inkişafına xidmət edəcəyini vurğulayıb.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Zaur Şükürov, Rizvan Nəbiyev, Gülşən Paşayeva, Nigar Məmmədova, Zimbabve Milli Assambleyasının Xarici əlaqələr və beynəlxalq ticarət komitəsinin sədri Şamu Vebster Kotivani çıxış ediblər. Onlar beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı fəaliyyət, iqtisadi, ticari, humanitar sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

Söhbətdə tərəflər beynəlxalq parlament platformalarında əməkdaşlığın davam etdirilməsinin, inkişaf etməkdə olan ölkələri narahat edən qlobal məsələlər üzrə birgə fəaliyyətin gücləndirilməsinin, beynəlxalq hüququn norma və prinsiplərinə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətin, sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə Azərbaycan-Zimbabve münasibətlərinin müxtəlif istiqamətləri müzakirə olunub, iqtisadi əməkdaşlıq imkanlarına toxunulub, parlamentlərarası əlaqələrin genişləndirilməsi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# BMT Azərbaycanla tərəfdaşlığın gücləndirilməsində maraqlıdır

**İyulun 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitri Şlapaçenko ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud əməkdaşlıq gündəliyi, tərəfdaşlığın perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə BMT arasında uzunmüddətli və səmərəli əməkdaşlığın müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyini qeyd edib. Bildirilib ki, gələn il Azərbaycan ilə BMT arasında əməkdaşlığın qurulmasının 35 illiyi qeyd olunacaq və bu əlamətdar tarix tərəfdaşlığın daha da möhkəmləndirilməsi baxımından mühüm imkanlar yaradır.

Tərəflər ölkəmizin qlobal çağırışların həllinə töhfə vermək istiqamətində fəal rolunu vurğulayaraq, Azərbaycanın son illərdə bir sıra mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyi etdiyini, xüsusilə COP29-un və Ümumdünya Şəhərsalma Forumunun yüksək səviyyədə təşkilinin çoxtərəfli əməkdaşlığa verilən önəmin göstəricisi olduğunu bildiriblər. Bu çərçivədə 2026-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin imzalanmasının BMT sistemi ilə əməkdaşlığın yeni mərhələsini formalaşdırdığı qeyd olunub. Eyni zamanda, Azərbaycanın gələcəkdə də bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edəcəyi diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanın Avropa ilə Asiya arasında etibarlı körpü rolundan, nəqliyyat və kommunikasiya əlaqələrinin genişləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən, Orta dəhlizin artan əhəmiyyətindən, eləcə də Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın inkişafı, o cümlədən "C6" əməkdaşlıq formatı çərçivəsində yaranan yeni imkanlardan bəhs olunub.

Regional təhlükəsizlik məsələlərinə toxunan nazir postmünaqişə dövründə bölgədə yaranmış reallıqlar, azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmin edilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verib.

Azərbaycan-Ermənistan normallaşma prosesi barədə danışan nazir dayanıqlı sülhün təmin olunması üçün mövcud imkanlardan istifadə edilməsinin vacibliyini vurğulayıb.

BMT-nin yeni rezident-əlaqələndiricisi Dmitri Şlapaçenko Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu ifadə edib, BMT-nin ölkə ilə əməkdaşlığın bütün istiqamətlər üzrə daha da inkişaf etdirilməsi və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi sahəsində tərəfdaşlığın gücləndirilməsində maraqlı olduğunu bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan Rusiyaya nota verib

**İyulun 6-da Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı, iyulun 5-də axşam saatlarında Ukraynanın Mikolayiv vilayətində yerləşən SOCAR yanacaqdoldurma məntəqəsinin dron hücumuna məruz qalması ilə əlaqədar kəskin etiraz bildirilib və Rusiya tərəfinə müvafiq nota təqdim edilib.

Görüşdə sözügedən dron hücumunun ilk hal olmadığı, bundan əvvəl də qazpaylayıcı kompressor stansiyası və Odessada neft bazasına hücumlar daxil olmaqla, Ukraynada SOCAR-a məxsus obyektlərin hərbi zərbələrə və hərbi əməliyyatların digər dağıdıcı təsirlərinə məruz qaldığı, nəticədə əhəmiyyətli maddi ziyan dəydiyi, şirkətin əməkdaşları arasında yaralananlar olduğu xatırlanıb.

Dəfələrlə xəbərdarlığa baxmayaraq, belə halların davam etməsinin hücumların məqsədyönlü şəkildə həyata keçirildiyinə dəlalət etdiyi bildirilib.

Görüşdə həmçinin Kiyevdəki səfirliyimizin və Xarkov şəhərində yerləşən fəxri konsulluğun binalarının zərər gördüyü bir neçə hava zərbələrinə diqqət yönəldilib, Vyana Konvensiyalarına uyğun olaraq diplomatik və konsulluq nümayəndəliklərinin binalarının qorunması üzrə öhdəliklərə ciddi riayət edilməsinin vacibliyi vurğulanıb.

Rusiya tərəfi qeyd olunan bütün faktlar üzrə hərtərəfli araşdırma aparmağa, baş vermiş hallarla bağlı müvafiq izahat verməyə, habelə mülki obyektlərin və diplomatik nümayəndəliklərin qorunması üzrə beynəlxalq öhdəliklərə riayət etməyə çağırılıb.

# Mərkəzi Bankın nümayəndələri Masallıda vətəndaşların müraciətlərini dinləyiblər

**Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən Masallı rayonunda növbəti səyyar görüş təşkil edilib. AMB-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Mərkəzi Bank nümayəndələri tərəfindən vətəndaş müraciətləri üzrə qanunvericiliyə uyğun izahlar təqdim olunub.**

Görüşdə vətəndaşlar tərəfindən əsasən bankomat və ödəniş terminallarının quraşdırılması, kredit öhdəlikləri üzrə güzəşt istəyi və digər əlaqəli məsələlər ilə bağlı müraciətlər səsləndirilib. Müraciətlərin bir qismi yerində həllini tapıb, əlavə araşdırma tələb edən məsələlər isə qeydiyyata alınıb.

Qeyd edək ki, səyyar görüşlərin keçirilməsinin əsas məqsədi maliyyə xidmətləri sahəsində vətəndaşların hüquqlarının qorunması və xidmət keyfiyyətinin yüksəldilməsidir.

Vətəndaşlar səyyar görüşlərlə bağlı əlavə sual, təklif və müraciətlərini **www.contact.e-cbar.az** elektron müraciətlər sistemi vasitəsilə Mərkəzi Banka ünvanlaya və ya "966" Çağrı Mərkəzi ilə əlaqə saxlayaraq məlumat əldə edə bilərlər.

# YAP Mərkəzi Aparatında tədbir keçirilib





**İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin təşəbbüsü ilə Çin Kommunist Partiyasının (ÇKP) yaradılmasının 105-ci ildönümü münasibətilə tədbir keçirilib.**

Tədbirdə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey və səfirliyin əməkdaşları, YAP İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənən dövlətlərarası münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verdiyini söyləyən Tahir Budaqov 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyətini diqqətə çatdıraraq məqsədyönlü birgə fəaliyyətin müştərək maraqların təmininə xidmət etdiyini bildirib.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmini vurğulayıb.

Tahir Budaqov YAP nümayəndə heyətinin cari ilin 23 iyun - 2 iyul tarixlərdə Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm önəm daşıdığını bildirib. O, səfər zamanı göstərilən yüksək diqqətə görə nümayəndə heyəti adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib.

YAP Sədrinin müavini zəngin və şərəfli inkişaf yolu keçən ÇKP-nin 105-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq Çin Xalq Respublikasının inkişafı naminə həyata keçirilən əzmkar fəaliyyətin bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib və dost Çin xalqına əmin-amanlıq, rifah və firavanlıq arzulayıb.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib.

Çin Kommunist Partiyasının inkişaf yolu və fəaliyyət prinsiplərindən ətraflı bəhs edən səfir ÇKP-nin Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd edib.

Səfir Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin sonuncu səfərinin də uğurlu olmasının böyük məmnunluq doğurduğunu diqqətə çatdıraraq YAP nümayəndələrinə təşəkkürünü bildirib və müvəffəqiyyətlər arzulayıb. YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğunu nəzərə çatdırıb. O, hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğunu bildirib.

Rektor cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında anlaşma memorandumunun imzalanmasının dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmini vurğulayaraq qarşıda duran vəzifələrin uğurla həyata keçiriləcəyinə əminliyini bildirib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyətini qeyd edib. O, YAP nümayəndə heyətinin sonuncu səfərinin olduqca səmərəli keçdiyini bildirərək qarşılıqlı fikir və təcrübə mübadiləsinin hakim partiyalar arasında əməkdaşlığın mövcud vəziyyətinin və inkişaf perspektivlərinin dəyərləndirilməsi baxımından xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Sonda cari ilin 23 iyun - 2 iyul tarixlərdə Çində səfərdə olmuş partiya nümayəndələri öz təəssüratlarını bölüşüblər.

*"Azərbaycan"*

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib





**İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

İclasda YAP Sədərək rayon təşkilatının sədri Arif Mikayıl oğlu Qasımovun, Şahbuz rayon təşkilatının sədri Rizvan Təmo oğlu Məmmədovun, Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəli oğlu Vəliyevin, Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Müslüm oğlu Balaqadaşovun və Qusar rayon təşkilatının sədri David Nurəddin oğlu İbrahimxəlilovun təqaüd yaşına çatmaları ilə əlaqədar tutduqları vəzifədən azad olunmaları məsələsinə baxılıb və müvafiq qərarlar qəbul olunub.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın təşkilatlanması və inkişafında mühüm xidmətləri olan həmin şəxslərin Heydər Əliyev ideyalarına daim sadiq olduqlarını vurğulayaraq bundan sonra da Ulu Öndərin zəngin dövlətçilik irsinin gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği yolunda bilik, bacarıq və səylərini əsirgəməyəcəklərinə, həmçinin öz təcrübələri ilə rayon təşkilatlarının işinə yaxından dəstək verəcəklərinə əminliyini ifadə edib, onlara xatirə hədiyyələrini təqdim edib.

Daha sonra İlqar Süleyman oğlu İlyasovun partiyanın Qaradağ, Vüsalə Abazər qızı Əliyevanın Sədərək, Nicat Zaur oğlu Ələkbərovun Şahbuz, Zamir Sadəddin oğlu Güvəndiyevin Şəmkir, Emil Nəcəf oğlu Tağıyevin Xaçmaz və Kamran Miran oğlu Əmirovun Qusar rayon təşkilatına sədr təyin edilməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini Əli Əhmədov, İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Azər Badamov çıxış edərək namizədliyi irəli sürülən şəxslərin bu vəzifəyə layiq olduqlarını bildirib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra müvafiq qərarlar qəbul olunub.

Yeni təyin olunmuş şəxslər göstərilən etimada görə partiyanın Sədri, ölkə başçısı cənab İlham Əliyevə dərin təşəkkürlərini ifadə edərək öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün çalışacaqlarını bildiriblər.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

*"Azərbaycan"*

# ADA Universitetində 20-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimi olub

**ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun (IDD), ADA Universiteti Fondu, SOCAR, BP, "GL Group", "Kolin" şirkəti və İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin (CECECO) dəstəyi ilə 20-ci Bakı Yay Enerji Məktəbinin rəsmi açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, bu il proqram "Enerji Təhlükəsizliyi və İnnovasiya" mövzusuna həsr olunub və iyulun 6-17-si tarixlərini əhatə edəcək. Artıq 20-ci dəfə təşkil olunan Bakı Yay Enerji Məktəbi enerji təhlükəsizliyi, enerji diplomatiyası, enerji keçidi və dayanıqlı inkişaf sahələrində beynəlxalq dialoqu təşviq edən nüfuzlu platformalardan biri kimi dünyanın müxtəlif ölkələrindən dövlət rəsmilərini, beynəlxalq təşkilatların nümayəndələrini, enerji şirkətlərinin rəhbərlərini, akademikləri və gənc mütəxəssisləri bir araya gətirib.

Açılış mərasimində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev, BP şirkətinin Xəzər, Mərkəzi Asiya və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofoli, Azərbaycan Respublikasının energetika nazirinin müavini professor Elnur Soltanov, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva və "GL Group"un xarici əlaqələr və kommunikasiyalar üzrə qrup vitse-prezidenti professor İlqar İbrahimli çıxış ediblər. Çıxışçılar ölkəmizin qlobal enerji sektoruna verdiyi töhfələrdən, proqramın əhəmiyyətindən, sürətlə dəyişən geosiyasi və makroiqtisadi reallıqlardan, eləcə də iqlim dəyişikliyi ilə bağlı aktual mövzulardan bəhs ediblər. Sessiyaya ADA Universitetinin prorektoru professor Fariz İsmayılzadə moderatorluq edib.





Tədbir çərçivəsində ADA Universiteti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi (CECECO) arasında əməkdaşlığın inkişafını nəzərdə tutan anlaşma memorandumu imzalanıb.

İki həftə davam edəcək proqram çərçivəsində iştirakçılar enerji bazarları və iqtisadiyyatı, geosiyasət, enerji diplomatiyası, bərpaolunan enerji, enerji maliyyələşdirilməsi, enerji keçidi və regional enerji əməkdaşlığı kimi mövzular üzrə mühazirə və panel müzakirələrində iştirak edəcəklər. Proqramın tərkib hissəsi olaraq Qarabağa təşkil olunacaq sahə səfəri zamanı iştirakçılar Ağdam, Cəbrayıl, Zəngilan və Şuşada həyata keçirilən yenidənqurma və "yaşıl enerji" layihələri ilə yaxından tanış olacaqlar.

20-ci Bakı Yay Enerji Məktəbi enerji sahəsində beynəlxalq bilik və təcrübə mübadiləsinin genişləndirilməsinə, müxtəlif ölkələrdən olan mütəxəssislər arasında əməkdaşlığın gücləndirilməsinə və gələcəyin enerji siyasətinə dair dialoqun inkişafına töhfə verməyə davam edir.

# Azərbaycan qlobal bağlantıların strateji mərkəzidir

## Ölkəmizin Avrasiya coğrafiyasındakı aparıcı mövqeyini Avropa İttifaqının yeni tərəfdaşlıq təşəbbüsləri də təsdiq edir

**Regionda yaranmış yeni reallıqlar fonunda Azərbaycan qlobal geosiyasətin mühüm aktorlarından birinə çevrilir. Şərqlə Qərbin qovuşduğu məkanda öz nəhəng logistik potensialını reallaşdıran Azərbaycan beynəlxalq nəqliyyat və enerji zəncirində həlledici mərkəzlərdən hesab olunur.**



Qlobal arenada baş verən mürəkkəb siyasi-iqtisadi proseslər fonunda Qərbin, xüsusən Avropa İttifaqının (Aİ) Azərbaycana marağının artması və bu reallığın rəhbərlik səviyyəsində davamlı olaraq açıq etiraf edilməsi ölkəmizin geostrateji əhəmiyyətinin təzahürüdür. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iyulun 1-də mətbuata bəyanatları tərəflər arasında bağlantı siyasətinin hansı miqyasda inkişaf etdiyini nümayiş etdirdi.

Ölkəmizin qlobal layihələrdəki roluna və çoxşaxəli yanaşmasına diqqət çəkən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan regional daşımalar layihələrinin bir çox hallarda fəal iştirakçısı və təşəbbüskarıdır: "Şərq-Qərb" və "Şimal-Cənub" daşımalar dəhlizləri Azərbaycandan keçir və qonşularımızla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri bizə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaratdı".

Azərbaycanın həm birbaşa qonşuları, həm də kənar regionlarda yerləşən dövlətlərlə qurduğu balanslı münasibətlər unikal əməkdaşlıq platforması yaradıb. Bu uğurlu diplomatiya sayəsində Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları üzərində bütün dövlətlərin maraqlarını təmin edən iqtisadi model formalaşdırıb.

Həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" dəhlizlərinin kəsişmə nöqtəsində yerləşmək Azərbaycana qlobal ticarət dövriyyəsini yönləndirmək imkanı verir. Dəyişən dünya nizamı isə yeni infrastrukturların yaradılmasını və mövcud olanların imkanlarının daha da genişləndirilməsini tələb edir. Prezident İlham Əliyev çıxışında yeni geosiyasi reallıqlara toxunaraq, ölkəmizin bu çağırışlara hazır olduğunu bəyan etdi: "Bu gün Azərbaycandan keçən yüklərin həcmi bütün istiqamətlərdə artır. Biz Azərbaycanda və qonşuluqda daşımalar infrastrukturuna böyük sərmayələr yatırdıq və bunu davam etdiririk. Yeni geosiyasi vəziyyətə gəldikdə isə görürük ki, ticarət üçün dəniz limanlarımızın, dəmir yolu infrastrukturunun imkanlarının genişləndirilməsinə ehtiyac duyulur. Bütün bunları biz cədvələ və öz maliyyə imkanlarımıza uyğun edirik".

Dünyada baş verən siyasi dəyişikliklər fonunda ölkəmiz üzərindən keçən yüklərin həcmi sürətlə artır. Azərbaycan bu artımı qarşılamaq üçün vaxtında düzgün addımlar atmış, nəqliyyat infrastrukturuna, dəmir yollarına və dəniz limanlarına böyük sərmayələr qoymuşdur. İndi isə ölkəmiz kənar maliyyədən asılı olmadan, öz imkanları ilə bu infrastrukturu daha da böyüdür və yeni qlobal çağırışlara tam hazır olduğunu nümayiş etdirir.

Azərbaycanın artan potensialı, müstəqil və ardıcıl siyasəti Avropa tərəfindən yüksək qiymətləndirilir. Qərbin enerji və tranzit təhlükəsizliyində Azərbaycanı ən etibarlı tərəfdaş kimi görməsi Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin çıxışında öz təsdiqini tapdı. Aİ rəsmisi ölkəmizin regiondakı həlledici rolunu xüsusi vurğulayaraq daha dərin institusional əməkdaşlıq formatını təklif etdi: "Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir. Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik. Bu, nəqliyyat, enerji və rəqəmsal bağlantını əhatə etməklə Yüksəksəviyyəli Bağlantı Dialoqu ilə sıx bağlıdır".

Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığı və Yüksəksəviyyəli Bağlantı Dialoqu təşəbbüslərinin irəli sürülməsi göstərir ki, Aİ Azərbaycanla münasibətləri ənənəvi çərçivədən çıxararaq çoxşaxəli və uzunmüddətli strateji tərəfdaşlıq müstəvisinə keçirir. Avropa İttifaqı ilə Azərbaycan arasındakı qlobal miqyaslı danışıqların nəticəsi olaraq regiona qoyulacaq böyük həcmdə xarici investisiyaların haraya və necə yönələcəyinin müzakirəsinə dair beynəlxalq konfransın da Bakıda keçirilməsi təklif edilib. Avropa Komissiyasının rəhbəri bu barədə belə deyib: "Həmçinin yaxşı olardı ki, burada - Bakıda Regional Bağlantı Sərmayə Konfransının təşkil edilməsi üzərində də işləyək. Beləliklə Avropanı, Cənubi Qafqazı və Mərkəzi Asiyanı bir araya gətirəcəyik".

Vurğulanan məsələ o qədər önəmlidir ki, Avropa rəhbərliyi böyük maliyyə və investisiya layihələrinin müzakirə mərkəzi kimi məhz Bakını görür. Bu da Azərbaycanın beynəlxalq arenada iqtisadi mərkəzə çevrildiyinin bazir göstəricisidir. Xüsusi qeyd etmək lazımdır ki, bağlantı strategiyası təkcə tranzit dividendlər gətirmir, həm də regionda təhlükəsizlik və sabitliyin qarantına çevrilir. Avropa İttifaqının genişlənmə üzrə komissarı Marta Kosun Azərbaycana səfərindən sonra sosial şəbəkə hesabında yazdıqları da bu amilə işarə edir. Kos bildirib ki, Azərbaycan, Ermənistan və Türkiyə arasında nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi Cənubi Qafqazda sülhün möhkəmlənməsinə kömək etməklə yanaşı, eyni zamanda Avropa ilə Asiya arasında ticarət və enerji marşrutlarını şaxələndirəcək.

Komissarın fikirləri təsdiqləyir ki, Avropa Azərbaycanın formalaşdırdığı reallıqları və yaratdığı nəqliyyat infrastrukturunu yalnız logistik marşrut kimi yox, Cənubi Qafqazda uzunmüddətli sülhün və dayanıqlı regional əməkdaşlığın bünövrəsi kimi qəbul edir. Ticarət və enerji xətlərinin şaxələnməsi isə Avropanın təhlükəsizlik arxitekturasının əsas qarantıdır.

Bu gün Azərbaycan coğrafi və siyasi mənada Avropa ilə Asiya qitələri arasında strateji körpü rolunu oynayır. Qərbin ölkəmizə artan marağı, Avropa İttifaqı rəhbərliyinin etirafları və irəli sürülən yeni tərəfdaşlıq təşəbbüsləri Azərbaycanın mühüm qlobal aktora çevrildiyini bir daha sübut edir. Nəqliyyat, rəqəmsallaşma və enerji bağlantılarının kəsişmə mərkəzi olan Azərbaycan qurduğu əməkdaşlıq formatları ilə gələcəyin logistika və enerji xəritəsini formalaşdıran güclərdən birinə çevrilir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Paşinyan hökuməti sülh gündəliyini real nəticəyə çatdırmaq istəyirsə, bu istiqamətdə konkret hüquqi və siyasi addımlar atmalı olacaq"

**Ermənistan Konstitusiya Məhkəməsinin parlament seçkilərinin nəticələrini təsdiqləməsi Nikol Paşinyan hökumətinin siyasi və hüquqi legitimliyini daha da möhkəmləndirdi. Bu qərarla seçki sonrası mübarizələrə faktiki olaraq son qoyuldu və hökumət diqqətini daxili islahatlara, xarici siyasət prioritetlərinə, region gündəliyinə və digər məsələlərə yönəldə biləcək. Seçkilərin nəticələri Paşinyanın növbəti mərhələdə həyata keçirməyi planlaşdırdığı xarici siyasət üçün də əlavə siyasi mandat qazandırdı.**

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad ABDULLAYEVİN** sözlərinə görə, yaxın perspektivdə Paşinyanın əsas məqsədi ölkədaxili siyasi sabitliyi qorumaq, dövlət institutlarını daha da gücləndirmək, müxalifətin təzyiqlərini minumuma endirmək olacaq. Artıq bunun ilk addımları görünür. Belə ki, müxalifətdə təmsil olunan "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyanın evində və ona məxsus şirkətlərdə hüquq-mühafizə orqanlarının keçirdiyi axtarışlar, eləcə də digər müxalifət nümayəndələrinə qarşı həyata keçirilən təqiblər hakimiyyətin daxili siyasəti gücləndirmək niyyətindən xəbər verir. Bu isə göstərir ki, Paşinyan ilk növbədə mümkün daxili müqavimət mərkəzlərini zəiflətməyə, paralel olaraq qərar qəbuletmə imkanlarını genişləndirməyə çalışacaq.

Siyasi təhlilçi Ermənistanın xarici siyasət kursunda ciddi dəyişikliyin gözlənilmədiyini diqqətə çatdırıb. Bildirib ki, son illər formalaşan xəttin davam etdirilməsi ehtimalı daha yüksəkdir: "Bu xətt Avropa İttifaqı və ABŞ ilə siyasi, iqtisadi təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsini, həmçinin Rusiya ilə münasibətlərdə qarşıdurmadan yayınaraq praqmatik balansın qorunmasını nəzərdə tutur. Ermənistan rəhbərliyi anlayır ki, ölkənin enerji, iqtisadi və təhlükəsizlik maraqları hələ də müəyyən dərəcədə Rusiya ilə əlaqələrin saxlanılmasını tələb edir. Regional siyasətdə isə prioritetlərdən biri Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması olacaq. Paşinyan hökuməti bilir ki, Ermənistanın uzunmüddətli iqtisadi inkişafa və regional layihələrə inteqrasiyası məhz Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasından keçir. Bu, xüsusilə nəqliyyat və logistika



marşrutlarının açılması, Ermənistanın regional təcridinin aradan qaldırılması, tranzit imkanlarının genişlənməsi və xarici investisiyaların cəlb olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən yaxın dövrdə kommunikasiyaların açılması istiqamətində danışıqların daha da intensiv mərhələyə keçməsi gözləniləndir".

F.Abdullayev deyib ki, Azərbaycanla sülh sazişinin imzalanması və regional kommunikasiyaların açılması ilə paralel Türkiyə ilə normallaşma prosesi də İrəvanın xarici siyasət gündəliyində mühüm yer tutacaq. Son vaxtlar Ermənistan və Türkiyənin xüsusi və digər nümayəndələri arasında aparılan danışıqlar, keçirilən görüşlər göstərir ki, Paşinyan hökuməti Ankara ilə münasibətlərin mərhələli şəkildə normallaşmasında maraqlıdır. İrəvan hesab edir ki, Türkiyə və Azərbaycanla sərhədlərin açılması Ermənistanın təcridinin aradan qaldırılmasına, ticarət əlaqələrinin genişlənməsinə, beynəlxalq nəqliyyat marşrutlarına çıxış imkanlarının artmasına mühüm töhfə verə bilər. Eyni zamanda Ermənistan İranla münasibətlərinə də xüsusi önəm verməyə davam edəcək. Son dövrlərdə Ermənistan-Rusiya münasibətlərində müşahidə olunan gərginlik İranla əlaqələrə diqqəti daha da artırıb.

Ekspert hesab edir ki, Paşinyan Rusiyadan tam uzaqlaşmadan, amma ondan asılılığı azaltmaq məqsədilə İranla siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlığı genişləndirməyə çalışacaq: "Ermənistan İranla əməkdaşlığı elə formatda inkişaf etdirməyə çalışacaq ki, bu, nə Qərblə münasibətlərə ciddi zərər vursun, nə də regionda yeni geosiyasi qarşıdurmaların tərkib hissəsinə çevrilsin. Bununla belə, sülh prosesinin yekun nəticə verməsi, sülh sazişinin imzalanması ilk növbədə Ermənistanın Azərbaycanın tələblərini yerinə yetirməsindən asılı olacaq. Bu baxımdan ən fundamental məsələ Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarına hüquqi əsas yaradan müddəaların aradan qaldırılmasıdır. Azərbaycanın bu məsələdə mövqeyi dəyişməz olaraq qalır və rəsmi Bakı dəfələrlə bəyan edib ki, konstitusiya dəyişikliyi dayanıqlı və uzunmüddətli sülhün təmin edilməsinin əsas şərtlərindən biridir".

F.Abdullayev vurğulayıb ki, Paşinyan hökuməti sülh gündəliyini real nəticəyə çatdırmaq istəyirsə, bu istiqamətdə konkret hüquqi və siyasi addımlar atmalı olacaq: "Lakin belə islahatların həyata keçirilməsi Ermənistan daxilində revanşist qüvvələrin, müxalifətin və müəyyən siyasi dairələrin ciddi müqaviməti ilə üzləşə bilər. Məhz buna görə də Paşinyan üçün əsas sınaqlardan biri daxili siyasi müqaviməti aşaraq, konstitusiya islahatlarını həyata keçirməsi ilə bağlı olacaq".

Siyasi təhlilçi bildirib ki, ümumilikdə Konstitusiya Məhkəməsinin qərarından sonra Paşinyan hökuməti xarici siyasətdə daha fəal və praqmatik kurs yürütməyə çalışacaq: "Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması, regional kommunikasiyaların açılması, iqtisadi inteqrasiyanın genişləndirilməsi və Cənubi Qafqazda sabitliyin möhkəmləndirilməsinin İrəvanın prioritetləri arasında olacağını düşünürəm. Lakin bu məqsədə nail olunması Ermənistanın daxili siyasi islahatları həyata keçirmə qabiliyyətindən, xüsusilə sülh prosesinin qarşısında duran hüquqi və siyasi maneələrin aradan qaldırılmasından birbaşa asılı olacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Leyla Əliyeva Qəbələdə fərdi sərginin açılışında və ağacəkmə aksiyasında iştirak edib









Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Qəbələ rayonunun Çuxur-Qəbələ kəndində yerləşən Qəbələ Arxeoloji Mərkəzinin parkında Qəbələnin Vəndam qəsəbəsindən olan rəssam Yəhya Cəlilovun ilk fərdi sərgisinin açılışında iştirak edib. Sərgidə rəssamın 38 əsəri nümayiş olunub. AZƏRTAC xəbər verir ki, sonra Qəbələ Arxeoloji Mərkəzinin yaxınlığında yerləşən parkda İctimai Birliyin təşəbbüsü əsasında ağacəkmə aksiyası keçirilib. Aksiyada Qəbələ və Bakıdan olmaqla, ümumilikdə 32 uşaq iştirak edib.

# Üç roman, bir həqiqət

**Yazıçı-dramaturq Hüseynbala Mirələmovun qələmindən çıxan üç yeni kitabın - "Ruhum, gözlərini yum...", "Eşqin rəngləri" və "Bəyaz buludlar üstdə" əsərlərinin təqdimatı keçirilib. Müxtəlif mövzulara həsr olunan bu romanları birləşdirən əsas xətt insanın mənəvi aləminə, vicdanına, sevgisinə və həyat qarşısında etdiyi seçimlərə müəllif baxışıdır.**





Mərasimi giriş sözü ilə açan akademik Nizami Cəfərov Hüseynbala Mirələmovun Azərbaycan ədəbiyyatındakı bənzərsiz üslubundan bəhs edib. O, müəllifin yeni işıq üzü görən əsərlərində insanın daxili dünyası, mənəviyyatı, sevgisi və həyat amallarına tamamilə yeni bir baxış bucağından yanaşdığını diqqətə çatdırıb. Əlavə edib ki, yaradıcılığında mənəvi meyarları hər zaman ön plana çəkən yazıçı bu dəyərləri qəhrəmanların daxili sarsıntıları, çarpışmaları və taleyüklü seçim anları fonunda işıqlandırır.

Mərasimdə iştirak edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Milli Məclisin komissiya sədri Eldar İbrahimov, millət vəkili Ziyad Səmədzadə, Xalq yazıçısı Çingiz Abdullayev, Xalq şairi Sabir Rüstəmxanlı, Mətbuat Şurasının sədri Rəşad Məcid və digər natiqlər yazıçının vətəndaşlıq mövqeyini, mövzu dairəsinin genişliyini və çoxşaxəli yaradıcılığını xüsusi qeyd etdilər. Diqqətə çatdırıldı ki, H.Mirələmovun yaradıcılığı beynəlxalq aləmdə də böyük rəğbətlə qarşılanır. Təsadüfi deyil ki, yazıçının kitabları dünyanın 50-dən çox ölkəsində müxtəlif dillərə tərcümə olunaraq nəşr edilib.

Tədbirin bədii hissəsində Akademik Milli Dram Teatrının aktyoru Kazım Həsənquliyev müəllifin "Vəsiyyət" pyesindən monoloq ifa etdi. Tədbir yeni əsərlər ətrafında müzakirələrlə yekunlaşdı.

Qeyd edək ki, romanların hər biri tamamilə fərqli mövzulardan bəhs edir. Lakin oxucu onların daxili məzmununa diqqət yetirdikdə vahid bir fəlsəfi bağ görür. Yazıçı hər 3 əsərində insan varlığını, onun vicdan sınaqlarını, saf duyğularını və həyat yolunda etdiyi taleyüklü seçimləri araşdırır. Müəllifin baxışı bəşəridir, lakin milli köklərə bağlıdır.

Müasir dünyamız sürətlə rəqəmsallaşır. Süni intellekt və yüksək texnologiyalar həyatımızın hər bir sahəsinə daxil olur. Hüseynbala Mirələmov məhz bu qlobal mövzuya toxunaraq "Ruhum, gözlərini yum..." adlı dərinməzmunlu bədii-fəlsəfi roman yazıb. Müəllif əsərində texnoloji tərəqqiyə qarşı çıxmır, əksinə, elmin tibb, təhsil, sənaye və gündəlik məişətdə insanlara gətirdiyi rahatlığı yüksək qiymətləndirir. Romanın gələcəyə baxışı kifayət qədər nikbindir. Amma yazıçını düşündürən daha böyük bir sual var: maşınlar və alqoritmlər insanın daxili dünyasını əvəz edə bilərmi?

Əsərin baş qəhrəmanı Leo ideal və qüsursuz bir varlıq yaratmaq eşqinə düşür. Onun bu istəyi elmlə mənəviyyat arasındakı incə cizgini üzə çıxarır. Leo dramatik hadisələrin içindən keçərək anlayır ki, heç bir süni zəka insan qəlbinin dərinliyini, onun mərhəmət, sevgi və vicdan kimi ali hisslərini təqlid edə bilməz. Kitab bəşəriyyətə bir xəbərdarlıqdır: texnologiya nə qədər qüdrətli olursa-olsun, insanı insan edən dəyərlər toxunulmaz qalmalıdır.

Müəllifin "Eşqin rəngləri" romanı isə tamamilə fərqli bir müstəvidə, yəni psixoloji və fəlsəfi müstəvidə yazılıb. Burada diqqət mərkəzində insan qəlbinin ən gizli və incə telləri dayanır. Yazıçı sevgiyə adi bir hiss kimi yanaşmır. Onun təqdimatında eşq insanı tərbiyə edən, kamilləşdirən və mənəvi cəhətdən bütövləşdirən müqəddəs bir qüvvədir. Romanda sədaqət imtahanı, daxili tərəddüdlər çox böyük ustalıqla təsvir olunub. Hüseynbala Mirələmov özünəməxsus yazı tərzi ilə oxucuya çatdırır ki, insan ömrünü mənalı edən, ona ən gözəl rəngləri bəxş edən məhz daxili saflıq və qarşılıqlı hörmətdir.

Üçlüyün sonuncu fəlsəfi nümunəsi "Bəyaz buludlar üstdə" əsəridir. Bu kitab həyatın çətin, mürəkkəb sınaqları ilə üz-üzə qalan insanların taleyi barədədir. Yazıçı qəhrəmanlarının daxili dünyasını sanki bir psixoloq kimi analiz edir: hər bir insan həyatda çətinliklərlə qarşılaşır və əsas məsələ bu çətinliklər qarşısında sınmamaq, əxlaq dəyərlərini qoruyub saxlamaqdır. Müəllif oxucuya aşılayır ki, insanın ən böyük rəhbəri onun vicdanı və məsuliyyət hissidir. Obrazların qarşılaşdığı mənəvi maneələr bədii boyalarla elə təsvir edilib ki, hər bir oxucu orada öz həyatından bir parça tapa bilir.

Hüseynbala Mirələmovun qələmindən çıxan əsərlər hər zaman oxucu auditoriyasının diqqət mərkəzində olub. Müəllifin bir çox əsərləri teatr səhnələrində oynanılıb, filmlərə mövzu olub. Onun yeni əsərləri də oxucular üçün dəyərli xəzinədir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzurda yazılan quruculuq tarixinin səhifələri

**Tarixin elə məqamları olur ki, həmin dövrlər yalnız bir dövlətin deyil, bütöv xalqın taleyini dəyişir, gələcək inkişafının istiqamətini müəyyənləşdirir. Azərbaycan xalqının son illər keçdiyi yol da məhz belə tarixi mərhələlərdəndir.**



30 ilə yaxın davam edən işğal dövrü, milyonlarla insanın qəlbində yaşayan yurd nisgili, dağıdılmış şəhərlər, viran edilmiş kəndlər, məhv edilmiş tarixi və mədəni irs 2020-ci ildə qazanılan möhtəşəm Zəfərlə sona çatdı. Bununla Azərbaycan yalnız ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda beynəlxalq hüququn, tarixi ədalətin və milli qürurun təntənəsini təmin etdi. 44 günlük Vətən müharibəsində əldə edilən qələbə Azərbaycanın müasir tarixində yeni bir dövrün başlanğıcı oldu.

Amma qazanılan möhtəşəm Zəfər yalnız hərbi-siyasi uğur deyildi. Qarşıda daha mürəkkəb, məsuliyyətli və böyük bir vəzifə dayanırdı - işğaldan azad edilmiş torpaqlara həyatın qaytarılması, dağıdılmış şəhər və kəndlərin yenidən qurulması, məcburi köçkünlərin doğma yurdlarına qaytarılması və regionun ölkənin ümumi inkişaf strategiyasına inteqrasiyası.

Azərbaycan bu vəzifənin öhdəsindən gəlmək üçün qısa zaman kəsiyində misli görünməmiş işlərə başladı. Dünyanın müxtəlif bölgələrində müharibələrdən sonra xarabalıqların bərpası üçün onilliklər tələb olunduğu halda, Qarabağ və Şərqi Zəngəzur qısa müddət ərzində nəhəng quruculuq meydanına çevrildi. Bu gün həmin ərazilərdə həyata keçirilən layihələrin miqyası beynəlxalq səviyyədə də maraq və diqqətlə izlənilir. Həqiqətən, görülən işlərə nəzər saldıqda aydın görünür ki, Qarabağ və Şərqi Zəngəzurda, sadəcə, yeni binalar və yollar tikilmir, gələcəyin şəhərləri salınır, yeni iqtisadi model formalaşdırılır, müasir idarəetmə prinsipləri qurulur, ekoloji dayanıqlığa əsaslanan inkişaf konsepsiyası həyata keçirilir. İşğal dövründə tamamilə dağıdılmış ərazilər qısa müddətdə regionun ən perspektivli inkişaf məkanlarından birinə çevrilir.

Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələrə nəzər saldıqda ilk diqqəti cəlb edən sahə infrastruktur quruculuğudur. İşğal dövründə, demək olar ki, bütün yollar, körpülər, enerji xətləri, sosial obyektlər və yaşayış məntəqələri dağıdılmışdı. Azərbaycan Ordusu torpaqlarımızı azad etdikdən sonra ilk olaraq qısa müddət ərzində yüzlərlə kilometr avtomobil yolu çəkildi, tunellər və körpülər tikildi. Bu layihələr arasında xüsusi yer tutan Zəfər yolu təkcə mühəndislik nailiyyəti deyildi, həm də ölkəmizin şanlı hərbi tarixinin simvolu idi. Vaxtilə qəhrəman Azərbaycan əsgərinin keçdiyi döyüş marşrutu bu gün Qarabağın inkişafına xidmət edən müasir nəqliyyat xəttidir. Şuşaya aparan bu yol həm tarixi yaddaşı yaşadır, həm də gələcəyə uzanan inkişaf körpüsü rolunu oynayır.

Regionun nəqliyyat xəritəsini dəyişdirən mühüm layihələrdən biri də beynəlxalq hava limanlarının tikintisi oldu. Bu gün Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları işğaldan azad edilmiş ərazilərin dünyaya açılan qapısıdır. Bu hava limanları yalnız sərnişin və yük daşımalarına xidmət etmir, həm də regiona investisiya axınının sürətlənməsinə, turizmin inkişafına və iqtisadi aktivliyin artmasına şərait yaradır.

Quruculuq prosesinin miqyası yalnız nəqliyyat infrastrukturu ilə məhdudlaşmır. Regionda elektrik enerjisi, qaz, su təchizatı, rabitə və rəqəmsal idarəetmə sistemləri müasir standartlara uyğun qurulur. Yeni yarımstansiyalar, yüksəkgərginlikli elektrik xətləri, fiber-optik rabitə şəbəkələri Qarabağ və Şərqi Zəngəzurun gələcəyin "ağıllı" regionuna çevrilməsinin əsasını təşkil edir.

Azərbaycanın həyata keçirdiyi "Böyük qayıdış" proqramı isə bütün bu layihələrin ən mühüm sosial nəticəsidir. Onilliklər boyu doğma torpaqlarından ayrı düşmüş insanların öz yurdlarına qayıtması müasir tariximizin unudulmaz səhifələrindəndir. Bu proqram yalnız köç prosesini deyil, yeni həyatın qurulmasını nəzərdə tutur. Zəngilanın Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi bunun uğurlu nümunələrindən ilki hesab olunur. Müasir texnologiyalar əsasında qurulmuş yaşayış məntəqəsi göstərdi ki, Azərbaycan keçmişi bərpa etməklə kifayətlənmir, gələcəyin yaşayış modelini formalaşdırır. Bu gün Laçında, Füzulidə, Xocalıda, Ağdamda, Talışda, Zabuxda və digər yaşayış məntəqələrində həyat yenidən canlanır, məktəblər fəaliyyətə başlayır, yeni iş yerləri açılır, insanların doğma torpaqlarla bağları bərpa olunur.

Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq prosesinin mühüm istiqamətlərindən biri də mədəni və tarixi irsin dirçəldilməsidir. İşğal illərində yüzlərlə tarixi abidə, məscid, muzey və mədəniyyət ocağı dağıdılmış, təhqir edilmiş və talan olunmuşdu. Bu gün həmin abidələrin bərpası tarixi ədalətin bərpası kimi qiymətləndirilir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa yenidən ölkənin mənəvi və mədəni həyatının mərkəzlərindən birinə çevrilib. Şəhərdə aparılan bərpa işləri nəticəsində tarixi memarlıq nümunələri əvvəlki görkəminə qaytarılır, burada beynəlxalq tədbirlər keçirilir, musiqi festivalları və poeziya günləri təşkil olunur. Uzun illər susdurulan bu Azərbaycan şəhəri yenidən mədəniyyətimizin səsini dünyaya çatdırır. Ağdam Cümə məscidinin, Yuxarı Gövhər ağa məscidinin, Mehmandarovların malikanəsinin, Vaqif məqbərəsinin və digər tarixi abidələrin bərpası milli yaddaşın qorunmasına xidmət edən mühüm addımlardır. Bu işlər göstərir ki, Azərbaycan üçün quruculuq iqtisadi inkişafla bərabər, həm də milli-mənəvi dəyərlərin yaşadılması deməkdir.

Qarabağın gələcəyi ilə bağlı formalaşdırılan inkişaf konsepsiyasında iqtisadiyyat xüsusi yer tutur. Regionun "Yaşıl enerji zonası" elan edilməsi yeni inkişaf modelinin əsas istiqamətlərindəndir. Kəlbəcər və Laçının zəngin hidroenerji ehtiyatları, günəş və külək enerjisi potensialı burada alternativ enerji layihələrinin geniş tətbiqinə imkan yaradır. İstifadəyə verilən su-elektrik stansiyaları və enerji obyektləri Azərbaycanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edir. Kənd təsərrüfatı da regionun iqtisadi dirçəlişində mühüm rol oynayır. Uzun illər istifadəsiz qalmış torpaqlar əkin dövriyyəsinə qaytarılır, sahələrdə müasir suvarma sistemləri qurulur, aqroparklar yaradılır. Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında həyata keçirilən layihələr kənd təsərrüfatının yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.

Turizm sahəsində də böyük perspektivlər formalaşır. Şuşanın zəngin tarixi-mədəni irsi, Kəlbəcərin bənzərsiz təbiəti, Laçının dağ mənzərələri, İstisu mineral suları və regionun ekoloji potensialı Qarabağı və Şərqi Zəngəzuru gələcəkdə Azərbaycanın ən cəlbedici turizm məkanlarından biri olacağından xəbər verir.

Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır!" ifadəsi bir vaxtlar haqq mübarizəsinin siyasi manifesti idi. Bu gün isə Qarabağda aparılan quruculuq işləri həmin fikrin real həyatda təcəssümünə çevrilib. Dövlət başçısı digər bir çıxışında demişdir: "Biz bu torpaqlara həyat qaytarırıq". Həqiqətən də, bu gün Füzulidə, Ağdamda, Cəbrayılda fəaliyyət göstərən müəssisələrdə, Şuşada keçirilən beynəlxalq tədbirlərdə, Laçına qayıdan ailələrin sevincində, Xocalıda yenidən başlayan həyatda həmin sözlərin canlı ifadəsi görünür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Ölkə üzrə qeyri-neft-qaz məhsullarının ixracı son 10 ildə iki dəfə artıb

**Ölkəmizdə qeyri-neft-qaz sektorunun inkişafı ilə bağlı icra edilən islahatlar sayəsində bu sahəyə aid məhsulların həm istehsalı, həm də ixracı artıb. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev bildirib ki, ölkə üzrə qeyri-neft-qaz məhsullarının ixracı 10 ildə iki dəfə artıb.**



"Hesab edirəm ki, bu, biznes ictimaiyyəti üçün inkişafın göstəricisi olan çox yaxşı meyar və göstəricidir. Lakin biznesin böyüməsi ilə bağlı hələ də çağırışlar qalır. Bu, həll etməli olduğumuz mühüm məsələlərdən biridir. Bunun üçün hökumət çoxsaylı dəstək alətləri təqdim edir, - deyə Y.Abdullayev həmçinin qeyd edib ki, bu gün Azərbaycan Biznesinin İnkişafı Fondu şirkətlərin xarici bazarlara çıxışına dəstək göstərən çox vacib qurumlardan biridir: "Maliyyə və dövlət qurumları Azərbaycan biznesinin xarici bazarlarda təşviqinə ciddi dəstək verirlər. Düşünürəm ki, bununla bağlı kifayət qədər uğurlu nümunələrimiz var. Əlbəttə ki, Azərbaycan Dövlət Neft Şirkəti qlobal miqyasda əsas və mühüm oyunçulardan biridir. Bununla yanaşı, Azərbaycanın digər şirkətləri də xarici bazarlarda uğurla fəaliyyət göstərirlər".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın bu ilin iyun sayını təqdim edib. İcmala əsasən, cari ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,6 faiz artaraq 1,5 milyard dollara çatıb. May ayında isə bu sahə üzrə göstərici 27,2 faiz artımla 396,7 milyon dollar olub. Ümumilikdə bu dövr ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri 23,8 faiz artaraq 144,6 milyon, qeyri-yeyinti məhsulları üzrə 30,7 faiz artımla 288,5 milyon dollara çatıb. 5 ayda ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,2, pambıq iplik 2,4 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 57, alüminium və ondan hazırlanan məmulatlar 44,6, pambıq lifi 25, meyvə-tərəvəz 18,6, çay 16,8, spirtli və spirtsiz içkilər 6 faiz artıb.

2026-cı ilin yanvar-may aylarında aqrar məhsullar üzrə ixracın dəyəri 414,5 milyon (25,2 faiz artım), aqrar-sənaye məhsulları üzrə isə 160,5 milyon dollar (39 faiz artım) təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 28,8 faiz artaraq 575,1 milyon dollara bərabər olub. Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, tomat ikinci, mis filizləri üçüncü yerdə qərarlaşıb. Cari ilin may ayı ərzində isə ixrac edilmiş qeyri-neft sektoruna aid məhsulların siyahısında tomat birinci, qızıl ikinci, çiyələk üçüncü olub.

Yanvar-may aylarında (qeyri-monetar qızıl istisna olmaqla) qeyri-neft sektoruna aid mal ən çox Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, Ukraynaya ixrac edilib. Bu ilin may ayında isə Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, ABŞ-yə daha çox qeyri-neft məhsulları göndərilib.

Cari ilin ilk 5 ayı üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "AGRARCO" MMC şirkətləridir. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə "SOCAR POLYMER" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar : "AzerGold" QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, Azərbaycan Respublikasi Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji" ATSC, "Socar Cape" MMC, "Naxçıvan Enerji" MMC təmsil olunurlar.

Hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") də dünyanın 33 ölkəsindən olan 90-a yaxın şirkətə 6,9 milyon dollar dəyərində telekommunikasiya xidmətləri ixrac edib. Xidmət ixrac olunan ölkələr arasında Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan, İsveç və Misir böyük paya sahibdir. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 63 faizini təşkil edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Hərbi Hava Qüvvələrinin aviasiya bölmələrində təlim-məşq uçuşları icra edilib

**Müdafiə nazirinin təsdiq etdiyi 2026-cı ilin hazırlıq planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya bölmələrində təlim-məşq uçuşları icra edilib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə uçuş heyətinin sağlamlıq vəziyyəti yoxlanılıb, təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra aviasiya vasitələrinə baxış keçirilib.

Sonra təlim-məşq planına əsasən, "JF-17C" (Block-III), "Su-25ML", "Su-25" və "L-39" tipli təyyarələrlə praktiki uçuşlar yerinə yetirilib.

Təlimlərdə pilotlar fərdi və qrup şəklində uçuşlar edərək, hava məkanında qarşılıqlı fəaliyyət, şərti döyüş tapşırıqlarının və taktiki manevrlərin icrası, hədəflərin aşkarlanaraq məhv edilməsi, eləcə də xüsusi hallarda düzgün qərar qəbuletmə üzrə bacarıqlarını inkişaf etdiriblər.

Uçuş heyətinin döyüş hazırlığının və peşəkarlığının artırılması məqsədilə keçirilən təlim-məşqlərdə əsas diqqət müxtəlif meteoroloji və taktiki şəraitlərdə tapşırıqların dəqiq və təhlükəsiz icrasına, həmçinin aviasiya vasitələrinin döyüş tətbiqi imkanlarının təkmilləşdirilməsinə yönəldilib.

# Zakir İBRAHİMOV: “AzerGold” beynəlxalq tərəfdaşların əməkdaşlıq etmək istədiyi və fəaliyyət göstərdiyi regionlarda yerli icmaların güvəndiyi şirkətə çevrilib”

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) fəaliyyətə başlamasının 10 illiyini qeyd edir. Ötən dövr ərzində şirkət geoloji kəşfiyyatdan hasilata, emaldan sənaye xidmətlərinə və pərakəndə satışa qədər uzanan geniş fəaliyyət istiqamətləri üzrə mühüm nəticələr əldə edib. QSC qeyri-neft sektorunun inkişafına, mineral ehtiyatların səmərəli idarə olunmasına və iqtisadiyyatın şaxələndirilməsinə töhfə verən bir sıra strateji layihələri uğurla həyata keçirib. Bununla yanaşı, yeni yataqların istismara hazırlanması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, ekoloji və sosial məsuliyyət təşəbbüslərinin icrası, insan kapitalının inkişafı istiqamətində də mühüm addımlar atılıb. Şirkətin növbəti inkişaf mərhələsində irimiqyaslı mədən layihələrinin reallaşdırılması, geoloji kəşfiyyatın genişləndirilməsi və xarici bazarlarda fəaliyyət imkanlarının artırılması əsas prioritetlər kimi müəyyənləşdirilib. Eyni zamanda "AzerGold"un pərakəndə satış sahəsində əldə etdiyi uğurlar və regionlarda həyata keçirdiyi sosial layihələr də diqqətçəkən istiqamətlərdəndir. Bu və digər məsələlərlə bağlı "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov AZƏRTAC-ın suallarını cavablandırıb.**




***- Zakir müəllim, 2026-cı il iyulun 5-də "AzerGold" QSC-nin fəaliyyətə başlamasının 10 ili tamam oldu. İlk növbədə sizi və rəhbərlik etdiyiniz kollektivi 10 illik yubiley münasibətilə təbrik edirik. Bu əlamətdar tarix münasibətilə ötən dövrə necə qiymət verərdiniz?***

- Bu əlamətdar yubiley münasibətilə şirkətimizin bütün əməkdaşlarını, fəaliyyətimizə töhfə vermiş mütəxəssisləri və tərəfdaşlarımızı ürəkdən təbrik edirəm. İnsan ömründə 10 il böyük bir mərhələdir. Mədənçilik sənayesində isə kəşfiyyatdan hasilata qədər olan proses, infrastrukturun qurulması və investisiyaların geri dönüşü uzun illər tələb etdiyindən bu müddət nisbətən qısa hesab olunur. Buna baxmayaraq, "AzerGold"un ötən 10 ildə müsbət nəticələr əldə edərək ölkənin dağ-mədən sektorunun inkişafına əhəmiyyətli töhfələr verdiyinə inanırıq. Bu baxımdan 10 illik yubiley geridə qalan dövrü dəyərləndirmək, əldə olunan nəticələri təhlil etmək və qarşıdakı hədəfləri müəyyənləşdirmək üçün mühüm məqamdır.


"Çovdar" qızıl mədəni

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli sərəncamına əsasən təsis edilən və 2016-cı il iyulun 5-də fəaliyyətə başlayan "AzerGold" QSC-nin uğurlarının əsasında dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qeyri-neft sektorunun inkişafı, təbii sərvətlərin səmərəli idarə olunması və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş strateji inkişaf siyasəti dayanır. Məhz bu siyasət ölkədə müasir dağ-mədən sənayesinin inkişafı üçün əlverişli şərait yaradıb.


Çəndə Qələviləşdirmə Zavodu

Fəaliyyətə başladığımızda qarşımızda duran əsas məqsəd əlvan metal yataqları üzrə ölkənin mineral-xammal potensialını qısa zamanda iqtisadi dövriyyəyə cəlb etmək və qeyri-neft sektorunun inkişafına real töhfə vermək idi. Sonrakı illərdə isə dövlət tərəfindən şirkətimizin fəaliyyətinə göstərilən yüksək etimadın nəticəsi olaraq "AzerGold"a yeni strateji səlahiyyətlər həvalə edildi. Belə ki, 2020-ci ildə fəaliyyət istiqamətlərimiz qara metal filizi yataqlarının öyrənilməsi və istismarı ilə genişləndirildi. Həmin il "AzerGold" QSC-nin ilk törəmə şirkəti - "Daşkəsən Dəmir Filiz" MMC təsis edildi. 2021-ci ildə isə sənaye əhəmiyyətli partlayıcı maddələrin istehsalı üzrə ixtisaslaşmış törəmə şirkət yaradıldı.

2024-cü ildə "AzerGold" QSC-yə Hasilatın Pay Bölgüsü Sazişində Azərbaycan dövlətini təmsil etmək səlahiyyəti verildi. Cari ildə isə şirkətə qeyri-filiz faydalı qazıntı yataqlarının idarə olunması və inkişafı istiqamətində də yeni funksiyalar həvalə edildi. Bütün bunlar dövlətin şirkətimizə olan etimadının, peşəkar fəaliyyətimizə və əldə etdiyimiz nəticələrə verdiyi yüksək dəyərin aydın ifadəsidir.

Beləliklə, ötən 10 il ərzində "AzerGold" geoloji kəşfiyyatdan hasilata, emaldan sənaye xidmətlərinə və pərakəndə satışa qədər uzanan geniş dəyər zəncirini əhatə edən müasir, inteqrəolunmuş dağ-mədən şirkətinə çevrilib. Qarşıdakı dövrdə də dayanıqlı inkişaf, innovativ yanaşmalar, ekoloji və sosial məsuliyyət prinsiplərinə sadiq qalaraq ölkənin dağ-mədən sənayesinin inkişafına, iqtisadiyyatın şaxələndirilməsinə töhfə verməyi, mövcud layihələrin səmərəliliyini artırmağı, yeni yataqları dövriyyəyə cəlb etməyi, beynəlxalq əməkdaşlığı genişləndirməyi və uzunmüddətli iqtisadi dəyər yaratmağı əsas məqsəd kimi müəyyənləşdirmişik.


Xəlitə tökümü prosesi

***- QSC-nin 10 illik fəaliyyətində ən mühüm nailiyyətlər hansılar hesab oluna bilər?***

- Əldə olunan nailiyyətlər çoxşaxəlidir. Qeyd etmək istərdim ki, 10 il ərzində 2 yeni qızıl yatağının kəşf edilməsi, 4 qızıl mədəni və 1 regional sənaye kompleksinin istifadəyə verilməsi, həmçinin 2 törəmə müəssisənin təsis olunması ilə QSC-nin fəaliyyətinin daha da şaxələndirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu müddətdə qiymətli metalların hasilatının genişləndirilməsi istiqamətində də ardıcıl və məqsədyönlü işlər görülüb, 4 qızıl mədənində hasilat prosesləri uğurla təşkil olunub.

Eyni zamanda bir daha vurğulamaq istərdim ki, mədənçilik sənayesi digər sahələrlə müqayisədə daha uzunmüddətli tədqiqatlar, layihələndirmə və hazırlıq mərhələləri tələb edən mürəkkəb və kapitaltutumlu bir sahədir. Bu baxımdan "AzerGold" bu illər ərzində təkcə mövcud mədənlərin istismarı ilə kifayətlənməyib, idarəetməsində olan irimiqyaslı mədən layihələri üzrə zəruri elmi-texniki və iqtisadi tədqiqatlar aparıb, onların yaxın gələcəkdə istismara verilməsi üçün zəmin yaradıb.

QSC istehsalat proseslərinin optimallaşdırılması istiqamətində də fəaliyyətini uğurla davam etdirib. Daşkəsən rayonunun şimal hissəsində, eyniadlı kəndin yaxınlığında yerləşən "Çovdar" qızıl yatağı "AzerGold"un ilk layihəsidir. Bu yataqda hasilat işlərinə 2017-ci ildə başlamışıq. 2016-cı ildə yatağın çıxarıla bilən qızıl ehtiyatı 179 min unsiya həcmində qiymətləndirilmişdi. Həmin proqnoza əsasən, mədənin istismarının 2020-ci ildə yekunlaşması nəzərdə tutulurdu. Lakin istismar prosesində həyata keçirilən optimallaşdırma tədbirləri və bir neçə ili əhatə edən əlavə kəşfiyyat işləri nəticəsində yatağın çıxarıla bilən ehtiyatları artırıldı. Bununla yanaşı, "Çovdar" yatağının cinahlarında kəşf etdiyimiz "Mərəh" və "Ağyoxuş" qızıl yataqları qrupu, o cümlədən Göygöl rayonunda yerləşən "Tülallar" qızıl yatağı da istismara cəlb edildi və bu yataqların vahid istehsal mərkəzi çərçivəsində idarə olunmasını təmin etmək məqsədilə Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi (ÇİRES) yaradıldı. Nəticədə bir-birinə yaxın lokasiyada yerləşən və ayrı-ayrılıqda istismarı və emalı iqtisadi baxımdan səmərəli hesab edilməyən yataqların həyata keçirilən tədbirlər nəticəsində satıla bilən qızıl ehtiyatları 1,02 milyon unsiyaya yüksəldildi, mədənin istismar müddəti isə 2032-ci ilədək uzadıldı.

Bir məqamı xüsusi vurğulamaq istərdim ki, bu gün "AzerGold" müxtəlif tipli filizlərin emalı üzrə zəngin təcrübə formalaşdırıb. Filizin xüsusiyyətlərindən asılı olaraq, həm topa qələviləşdirmə, həm də çəndə qələviləşdirmə texnologiyalarını tətbiq edir və hər bir yataq üçün ən səmərəli emal üsulunu seçirik. Məsələn, "Çovdar" yatağında hasilata başladığımız ilk illərdə yalnız topa qələviləşdirmə texnologiyasından istifadə olunurdu. Lakin sonrakı mərhələlərdə hasil edilən filizin xüsusiyyətləri nəzərə alınaraq, 2022-ci ildə Çəndə Qələviləşdirmə Zavodu kompleksinin tikintisinə başlanıldı. 2024-cü ildə tam gücü ilə istismara verilən zavodun illik filiz üyütmə gücü 1,1 milyon ton təşkil edir.

Bu yanaşma istehsal proseslərinin daha səmərəli təşkilinə, mövcud ehtiyatlardan maksimum istifadə edilməsinə və yataqların iqtisadi səmərəliliyinin artırılmasına imkan yaradır.

Bu günədək şirkətin istismar etdiyi mədənlərdən 558 min unsiyadan çox qızıl və 1 milyon unsiyadan artıq gümüş hasil edilib. Qiymətli metalların daxili və beynəlxalq bazarlarda satışı nəticəsində QSC 2,2 milyard manatdan çox gəlir əldə edib. Sevindirici haldır ki, bu günə qədər şirkətin qızıl layihələrinin icrası üçün dövlət büdcəsindən ümumilikdə cəmi 47 milyon manat investisiya ayrılıb. Bunun müqabilində şirkət 10 dəfədən çox, yəni 473,5 milyon manat xalis mənfəət formalaşdırıb. Eyni zamanda dövlət büdcəsinə 295,3 milyon manat məbləğində vergi və sosial ödənişlər həyata keçirilib.

"AzerGold"un qızıl layihələrinin icrası istiqamətində dövlət büdcəsindən asılılığı 2021-ci ildən etibarən tamamilə aradan qaldırılıb. Yeri gəlmişkən haqqında bəhs etdiyim Çəndə Qələviləşdirmə Zavodu kompleksinin yaradılması üçün tələb olunan 383 milyon manatlıq investisiya da daxili imkanlar hesabına təmin edilib. Bununla da dövlət büdcəsinə əlavə yük yaradılmadan şirkət tərəfindən ölkəmizin ən iri sənaye layihələrindən biri uğurla icra olunub.

Hazırda dövlət büdcəsindən "AzerGold"a ayrılan vəsaitlər yalnız dövlət tərəfindən qarşıya qoyulmuş strateji layihələrin icrasına yönəldilir. Belə layihələrdən biri də Azərbaycanın metallurgiya sənayesinin inkişafı üçün strateji əhəmiyyət daşıyan və böyük həcmdə investisiya qoyuluşu tələb edən Daşkəsən dəmir filizi layihəsidir. Layihənin həyata keçirilməsi, Daşkəsən dəmir filizi yataqlarının istismara hazırlanması və istehsalat zəncirinin qurulması məqsədilə 2020-ci ildə "AzerGold" QSC-nin törəmə şirkəti "Daşkəsən Dəmir Filiz" MMC təsis edilib.


Xəlitə

Qeyd etmək istərdim ki, müstəqilliyimizin ilk illərindən etibarən ölkəmizin zəngin dəmir filizi ehtiyatları tam və səmərəli şəkildə iqtisadi dövriyyəyə cəlb edilməmişdi. Hazırda isə məqsədimiz təkcə dayanıqlı dəmir filizi hasilatını bərpa etmək deyil, həm də zənginləşdirmədən başlayaraq konsentrat, pellet və yüksək əlavə dəyərə malik isti briketləşdirilmiş dəmirin (İBD) istehsalını əhatə edən tam inteqrasiya olunmuş sənaye zənciri yaratmaqdır.

Layihəyə əsasən, Daşkəsən mədənindən çıxarılan filiz əvvəlcə mədənin ərazisində inşa ediləcək zənginləşdirmə zavodunda emal olunaraq konsentrata çevriləcək. Daha sonra konsentrat pellet istehsalı üçün Şəmkir rayonunda tikilməsi nəzərdə tutulan zavoda nəql ediləcək. Bu məqsədlə ölkədə ilk dəfə uzunluğu 40 kilometrdən çox olacaq şlam boru kəmərinin inşası planlaşdırılır. İstehsal zəncirinin son mərhələsində isə pelletdən polad sənayesi üçün əsas xammallardan biri olan isti briketləşdirilmiş dəmir istehsal ediləcək. İllik istehsal gücü 2 milyon ton olacaq zavod Qərb Sənaye Parkının Şəmkir rayonu ərazisinə düşən hissəsində inşa ediləcək.

Bu layihənin həyata keçirilməsi ölkədə yüksəkkeyfiyyətli polad istehsalı üçün dayanıqlı xammal bazasının formalaşdırılmasına imkan verəcək. Yəni istehsal olunacaq illik 2 milyon ton həcmində məhsul daxili bazarın tələbatını ödəyəcək, üstəlik tələbatdan artıq məhsullar ixracata yönəldiləcək. Bu isə bir tərəfdən idxaldan asılılığın azalmasına, digər tərəfdən isə ixrac potensialının genişlənməsinə, qeyri-neft sektorunun inkişafına və dövlət büdcəsinə əlavə gəlirlərin təmin edilməsinə mühüm töhfə verəcək.

Layihənin ümumi investisiya dəyəri 1,3 milyard dollardan çoxdur. Dövlət büdcəsinə əlavə yük yaratmamaq məqsədilə layihənin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Hər mərhələ üzrə tələb olunan investisiyaların əhəmiyyətli hissəsinin strateji investorlar və beynəlxalq maliyyə institutlarının kredit resursları hesabına maliyyələşdirilməsi planlaşdırılır. Layihənin icrası məqsədilə 2025-ci ildə "Daşkəsən Dəmir Filizi" MMC ilə Qazaxıstanın "Fonte GreenMet Investments Fund OEIC Ltd" şirkətinin birgə iştirakı ilə "Azerbaijan Metal Company" MMC təsis edilib. Tərəflər birgə müəssisədə bərabər - 50 faiz paya malikdir.

Hesablamalara əsasən, 2029-cu ildə inteqrasiya olunmuş dəmir filizi istehsal zənciri layihəsinin bütün komponentlərinin tam icrası nəticəsində ölkə iqtisadiyyatına təxminən 19 milyard dollar həcmində töhfə veriləcəyi və regionlarda 4 minədək yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.



"Heavy ANFO" partlayıcı maddə

Fəaliyyətimizin şaxələndirilməsi istiqamətində atılan addımlar yalnız dağ-mədən sahəsinin deyil, bilavasitə əlaqəli digər yan sahələrin inkişafını da əhatə edir. Bu baxımdan dövlət-özəl tərəfdaşlığı əsasında yaradılmış digər törəmə müəssisəmiz olan "AzerBlast" MMC-nin fəaliyyətini xüsusi vurğulamaq istərdim. "AzerBlast" ölkədə dağ-mədən sənayesində istifadə olunan mülki partlayıcı maddələrə tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə yaradılmış ilk şirkətdir. Gəncə şəhərinin inzibati ərazisində yerləşən şirkətə məxsus Sənaye Partlayıcı Maddələrinin İstehsalı Zavodu 2024-cü ildə istifadəyə verilib. Zavod tam istehsal gücü ilə işləməyə başladıqdan sonra 2025-ci ildən etibarən mənfəətə çıxıb. Gələcəkdə istehsal həcmlərinin daha da artırılması, məhsul çeşidinin genişləndirilməsi və ixrac imkanlarının formalaşdırılması nəzərdə tutulur.

Ötən 10 il ərzində əldə etdiyimiz konkret və ölçülə bilən nəticələr kifayət qədər çoxdur. Qeyd etdiyim hasilat göstəriciləri, yeni yataqların istismara cəlb olunması, iri sənaye layihələrinin həyata keçirilməsi, ixrac potensialının artırılması və maliyyə göstəricilərində davamlı artım bunların yalnız bir hissəsidir. Bu gün "AzerGold" dövlətin etibar etdiyi, beynəlxalq tərəfdaşların əməkdaşlıq etmək istədiyi, fəaliyyət göstərdiyi regionlarda isə yerli icmaların güvəndiyi bir şirkətə çevrilib.

Hasilatın Pay Bölgüsü Sazişində dövlətin təmsilçilik hüququnun şirkətə verilməsi də dövlət şirkətinə etimadın göstəricisi kimi qeyd oluna bilər. Azərbaycan dövləti ilə "R.V. Investment Group Services LLC" arasında bağlanmış Hasilatın Pay Bölgüsü Sazişi üzrə 2024-cü il 21 iyun tarixli qanuna əsasən "Gədəbəy", "Qoşa", "Xarxar", "Qaradağ", Ordubad qrupu ("Piyazbaşı", "Ağyurd", "Şəkərdərə", "Kələki"), "Qızılbulaq", "Dəmirli" və "Vejnəli" yataqları üzrə dövlətin təmsilçilik səlahiyyəti "AzerGold"a həvalə edilib. Bu çərçivədə əsas vəzifə dövlət maraqlarının qorunması və təbii sərvətlərin səmərəli, şəffaf istismarının təmin edilməsidir. Qısa müddətdə aparılan monitorinq və koordinasiya tədbirləri nəticəsində bütün istiqamətlər üzrə müsbət dinamika formalaşıb. Belə ki, "Gədəbəy" sahəsində hasilat və istehsalat fəaliyyəti qanunvericiliyə, beynəlxalq standartlara və ekoloji tələblərə uyğun şəkildə yenidən təşkil edilərək bərpa olunub. Ağdərə rayonunda yerləşən Dəmirli Filiz Emalı Kompleksi yenidən qurulub və mis mədənində 2025-ci ildən hasilata başlanılıb.

Sözügedən saziş üzrə layihələr əməliyyat şirkəti olan "Azerbaijan International Mining Company Limited" (AIMC) tərəfindən həyata keçirilir. Dövlət təmsilçiliyinin "AzerGold"a verilməsindən sonra "AIMC" şirkətinin ümumi gəlirləri ötən il 217 faiz artıb. Ötən illə müqayisədə cari ildə isə gəlirlərin 172 faiz artaraq 586 milyon manata çatacağı proqnozlaşdırılır. Xarici şirkət 2026-cı ilin ilk aylarında qeyri-neft ixracatçıları arasında lider mövqeyə yüksəlib. Eyni zamanda mis konsentratı ölkənin qeyri-neft ixracında ilk dəfə üçüncü yeri tutub.


Rekultivasiya işləri

Bu müsbət dinamika və sənaye sektorunda artan nəticələr fonunda dövlət tərəfindən strateji əhəmiyyətli qeyri-filiz faydalı qazıntı yataqlarının idarə olunması ilə bağlı qərarlar qəbul olunub. Belə ki, dövlət başçısının 2024-cü ildə ölkə ərazisində qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi üzrə sərəncamından irəli gələrək "AzerGold" QSC tərəfindən beynəlxalq təcrübə əsasında sahə üzrə geniş təhlillər aparılıb. Şirkətə həvalə olunmuş səlahiyyətlər çərçivəsində ekoloji və iqtisadi tələblər, eləcə də beynəlxalq standartlar nəzərə alınmaqla müvafiq təkliflər hazırlanaraq qısa müddətdə dövlət tərəfindən bir sıra aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə yaradılmış xüsusi komissiyaya təqdim edilib. Sevindirici haldır ki, təkliflərimiz müsbət qiymətləndirilib, onların icrasını təmin edən müvafiq normativ-hüquqi bazanın formalaşdırılmasına başlanılıb.

Bu prosesin məntiqi davamı olaraq Prezident İlham Əliyevin 2026-cı il 20 aprel tarixli fərmanı ilə Bakı şəhərinin Qaradağ və Abşeron rayonlarının ərazilərini əhatə edən əhəngdaşı, Zaqatala, Balakən, Oğuz, eləcə də İmişli rayonu ərazisində yerləşən qum-çınqıl yataqları "AzerGold" QSC-nin istifadəsinə verilib. Bu qərarın əsas məqsədi tikinti materialları sənayesi üçün etibarlı xammal bazasının formalaşdırılması, mineral ehtiyatlardan səmərəli və ekoloji tələblərə uyğun istifadənin təmin edilməsi, müasir və şəffaf idarəetmə modelinin yaradılmasıdır. Artıq bu səlahiyyətlər çərçivəsində icra prosesinə başlanılıb. Qeyd olunan yataqlar üzrə fəaliyyətin mərhələli şəkildə təşkili qeyri-filiz faydalı qazıntılar sektorunda səmərəli, şəffaf və dayanıqlı nümunəvi idarəetmə modelinin formalaşdırılmasına xidmət edir.

***- Zakir müəllim, son illər ərzində "AzerGold"un geoloji kəşfiyyat istiqamətində həyata keçirdiyi fəaliyyət və əldə olunan nəticələr barədə nə deyə bilərsiniz?***

- Geoloji kəşfiyyat fəaliyyətimiz şirkətin strateji inkişaf xəttinin əsas sütunlarından biridir. Çünki yeni ehtiyatlar aşkar edilmədən, mövcud yataqların resurs bazası genişləndirilmədən hasilatın davamlılığını təmin etmək və yeni mədən layihələrini həyata keçirmək mümkün deyil. QSC bu məqsədlə bu günədək ölkənin dağ-mədən sənayesi üzrə rekord göstərici olan ümumilikdə 344,3 min metr dərinliyində buruq-qazma işləri icra edib. Son illər ərzində müasir geoloji tədqiqat metodları və innovativ texnologiyalar tətbiq olunmaqla perspektivli sahələrdə genişmiqyaslı araşdırmalar aparılıb.

Geoloji tədqiqatlar prosesində hiperspektral peyk çəkilişləri və helikopter vasitəsilə aparılan aeroelektromaqnetik tədqiqatlardan geniş istifadə olunur. Bu yanaşmalar perspektivli sahələrin daha qısa müddətdə müəyyənləşdirilməsinə və böyük xərclər tələb edən qazma işlərinin optimallaşdırılmasına imkan yaradır.

Ardı 7-ci səh.


Daşkəsən dəmir filizi yatağı

# Zakir İBRAHİMOV: "AzerGold" beynəlxalq tərəfdaşların əməkdaşlıq etmək istədiyi və fəaliyyət göstərdiyi regionlarda yerli icmaların güvəndiyi şirkətə çevrilib"



*Əvvəli 6-cı səh.*

Hiperspektral metod geniş ərazilərdə süxurların spektral xüsusiyyətlərini təhlil edərək faydalı qazıntı əlamətlərini aşkar edir. Bu isə kəşfiyyat işlərinin daha səmərəli planlanmasına xidmət edir. Aeroelektromaqnetik tədqiqatlar isə helikopterə qoşulmuş xüsusi avadanlıq vasitəsilə yerin dərin qatlarının elektromaqnit xüsusiyyətlərini ölçərək geoloji məlumatların əldə edilməsinə imkan verir. Nəticədə yer səthinə müdaxilə edilmədən, ekoloji cəhətdən daha faydalı, daha sürətli və dəqiq kəşfiyyat aparılır. Beləliklə, bu tədqiqatların ardıcıllıqla tətbiqi kəşfiyyat işlərinin daha operativ, dəqiq və iqtisadi cəhətdən səmərəli şəkildə həyata keçirilməsini təmin edir.

Hazırda biz 2 istiqamətdə geoloji tədqiqatları davam etdiririk. Birinci istiqamət QSC-nin idarəetməsinə verilən filiz sahələri üzrə həyata keçirilən fəaliyyətdir. İkinci istiqamət Prezident İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq, ölkə ərazisində mövcud olan filiz, qeyri-filiz yataq və təzahürləri üzrə geoloji kəşfiyyat proqramının icrasını əhatə edir. Bu proqramın əsas missiyası respublikanın 15 409 kvadratkilometr ərazisində mineral xammal bazasının müasir metodlarla yenilənməsi, müasir tədqiqat metodlarının tətbiqi ilə yeni perspektivli mineral-xammal potensialının müəyyənləşdirilməsi, ehtiyatların yenidən qiymətləndirilməsi və gələcək hasilat imkanlarının artırılmasıdır.

Yeri gəlmişkən qeyd edim ki, işlərin qismən tamamlandığı Kəlbəcər, Göygöl və Daşkəsən rayonları ərazisində artıq müsbət nəticələr qeydə alınıb. Qeyd edilən bölgələrdə yeni perspektiv sahələr aşkarlanıb və təfərrüatlar barədə ictimaiyyətə geniş məlumat veriləcək. Tədqiqat və qiymətləndirmələr 2027-ci ilin sonuna qədər yekunlaşacaq. Yekunda tədqiqatı aparılmış ərazilərin faydalı qazıntı potensialının əks olunduğu vahid xəritə hazırlanacaq. Bu tədqiqatlar gələcəkdə yeni mədən layihələrinin həyata keçirilməsinə şərait yaradacaq və ölkəyə yeni investisiyaların cəlbinə xidmət edəcək.

***- "AzerGold"un növbəti onillik inkişaf strategiyasında hansı layihə əsas rol oynayacaq?***

- Hazırda QSC-nin portfelində iqtisadi baxımdan xüsusi əhəmiyyət daşıyan bir neçə irimiqyaslı layihə var. Bu layihələr təkcə şirkətin deyil, bütövlükdə ölkənin, hətta mən deyərdim regional miqyasda dağ-mədən sənayesinin uzunmüddətli inkişafına xidmət edəcək strateji aktivlərdir.

İlk növbədə qısa və ortamüddətli dövr üzrə planlaşdırdığımız yeni layihə olan, Kəlbəcər rayonunda yerləşən "Söyüdlü" (Zod) qızıl yatağından bəhs etmək istərdim. Bu yataq Qafqazın ən böyük və geoloji baxımdan ən zəngin qızıl ehtiyatlarından biri kimi dağ-mədən sənayesinin uzunmüddətli inkişaf strategiyasında mühüm rol oynaya bilər. İşğal dövründə qanunsuz hasilata məruz qalmasına baxmayaraq, yatağın qalıq ehtiyatları şirkətin ehtiyat bazasının əhəmiyyətli dərəcədə genişlənməsinə xidmət edəcək strateji layihə kimi qiymətləndirilir.

"Söyüdlü" qızıl yatağında ötən ilin avqust ayından etibarən genişmiqyaslı geoloji tədqiqat işlərinə başlamışıq, mövcud tarixi geoloji məlumatlar tərəfimizdən təhlil olunub. Eyni zamanda yatağın müasir metodlarla planlaşdırılması həyata keçirilib, topoqrafik xəritələr hazırlanıb, yataqda ümumi dərinliyi 9 min metrə çatan buruq-qazma işləri icra edilib. Çıxarıla bilən qalıq ehtiyatları faydalı qazıntı yataqlarının iqtisadi qiymətləndirilməsi üçün beynəlxalq səviyyədə qəbul edilmiş JORC (Joint Ore Reserves Committee) standartlarının tələblərinə uyğun olaraq 1,03 milyon unsiya həcmində hesablanıb.



İsti briketlənmiş dəmir (İBD)

Hazırda yatağın resurs bazasının artırılması potensialı nəzərə alınaraq yaxın və uzaq cinahlarda intensiv kəşfiyyat işləri davam etdirilir. Paralel olaraq "Söyüdlü" qızıl yatağının istismara verilməsi istiqamətində intensiv hazırlıq işləri görülür.

Sualınıza cavab olaraq QSC-nin strateji inkişafını təmin edəcək layihələr sırasında Balakən rayonunda yerləşən "Filizçay" polimetal yatağını xüsusi qeyd etmək istərdim. Resurslarının həcminə görə "Filizçay" Avropanın ən iri yataqlarından biri hesab edilir və dünya miqyasında polimetal yataqları arasında ilk onluqda qərarlaşıb. Mövcud qiymətləndirmələrə əsasən, yataqda 2,4 milyon ton sink, 787 min ton qurğuşun, 311 min ton mis, 688 min unsiya qızıl və 91 milyon unsiya gümüş ehtiyatı mövcuddur.

Bir məsələni vurğulamaq istərdim ki, sözügedən yataq böyük olduğu qədər də mürəkkəbdir. "Filizçay" polimetal yatağında aparılmış metallurji testlər filizin kifayət qədər mürəkkəb mineraloji xüsusiyyətlərə, eləcə də sərt süxur bazasına malik olduğunu göstərib. Bu o deməkdir ki, biz səmərəliliyi təmin etmək üçün bir zavodun qurulması ilə ən azı üç əlvan metalın istehsalını təmin etməliyik. Layihə ilə bağlı uzun müddət beynəlxalq laboratoriyaların və məsləhətçi şirkətlərin iştirakı ilə kompleks tədqiqatlar apardıq. Nəhayət, yataqda ultraincə üyütmə metodu ilə satıla bilən mis və sink konsentratlarının əldə edilməsi metodologiyasının tətbiqi uyğun hesab edildi. 2027-ci ilin əvvəlində Balakəndə üç əlvan metalın - sink, mis və qurğuşunun - əldə edilməsi və çıxım göstəricilərinin artırılması məqsədilə pilot layihə formatında sınaq-təcrübə zavodunun - Emal və Tədqiqat Mərkəzinin tikintisinə qərar verilib. Hesab edirəm ki, "Filizçay" layihəsi gələcəkdə həm ölkəmizin dağ-mədən sənayesinin inkişafı, həm də dünya bazarlarında strateji əhəmiyyəti artan kritik minerallara regional səviyyədə tələbatın ödənilməsi baxımından mühüm rol oynaya bilər. Layihənin tam icrası ilə bölgədə 2000 nəfərlik daimi iş yerinin açılması nəzərdə tutulur.




Növbəti irimiqyaslı strateji layihəmiz Naxçıvan Muxtar Respublikasında icra edilməkdədir. Culfa rayonunun inzibati ərazisində yerləşən "Ortakənd" qızıl yatağı müsbət perspektiv vəd edir. Uzunmüddətli geoloji tədqiqatların nəticəsində JORC standartlarına uyğun olaraq yatağın 424 min unsiya qızıl ehtiyatı təsdiq olunaraq dövlət balansına qəbul edilib.

Bu bölgədə fəaliyyəti iqtisadi baxımdan daha səmərəli edən amillərdən biri də eyni rayonun hüdudlarında yerləşən Başkənd mis və Göydağ mis-porfir sahələrində metal ehtiyatlarının müəyyən olunmasıdır. Hazırda hər iki yataq ilkin kəşfiyyat mərhələsindədir, texniki-iqtisadi qiymətləndirmə və əlavə geoloji tədqiqatlar davam etdirilir. Qeyd olunan yataqlar üzrə hesablanmış mis ehtiyatları ümumilikdə 173 min tona yaxındır.

Yataqların bir-birinə yaxınlığı nəzərə alınaraq layihələrin daha səmərəli icrası və kapital xərclərinə qənaət məqsədilə emal prosesinin ÇİRES təcrübəsinə uyğun mərkəzləşdirilmiş klaster modeli əsasında təşkili imkanlarına baxılır. Bu yanaşmanın tətbiqi ilə Naxçıvanda dağ-mədən sənayesinin davamlı inkişafı təmin ediləcək, regiona yüz milyonlarla manat dəyərində investisiya cəlb olunacaq, 1000-dən çox yeni iş yeri yaradılacaq və dövlət büdcəsinə valyuta daxilolmaları əhəmiyyətli dərəcədə artacaq.

***- Zakir müəllim, "AzerGold"un beynəlxalq fəaliyyətinin genişləndirilməsi ilə bağlı hansı planlar mövcuddur?***

- Beynəlxalq fəaliyyətin genişləndirilməsi QSC-nin qarşıdakı dövr üçün əsas strateji hədəflərindən biridir. Məqsədimiz yalnız ölkə daxilində deyil, xarici ölkələrdə də perspektivli mədən layihələrində iştirak etmək və beynəlxalq tərəfdaşlıqları genişləndirməkdir. Bu istiqamətdə son illərdə müxtəlif ölkələrlə əməkdaşlıq imkanları araşdırılıb, yeni tərəfdaşlıqların qurulması üçün mühüm addımlar atılıb. Xüsusilə mineral resurslarla zəngin Mərkəzi Asiya və Afrika regionları bizim üçün prioritet təşkil edir.



Aeroelektromaqnetik tədqiqatlar

Ötən ay "AzerGold" QSC ilə Özbəkistan Respublikasının Dağ-Mədən Sənayesi və Geologiya Nazirliyi arasında Özbəkistan ərazisində qızıl yatağının birgə işlənilməsinə dair çərçivə sazişinin imzalanması xüsusi əhəmiyyət daşıyır. Hesab edirik ki, bu sənəd şirkətimizin beynəlxalq fəaliyyətinin genişləndirilməsi istiqamətində atılmış ilk mühüm addımdır. Bizim ilk beynəlxalq layihəmizin qardaş Özbəkistanla həyata keçirilməsi isə xüsusilə sevindirici haldır. Hazırda əsas diqqətimiz geoloji məlumatların qiymətləndirilməsinə və layihələrin perspektivinin müəyyənləşdirilməsinə yönəlib. Yaxın zamanda "AzerGold" QSC, Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti və "Uzbekgeologorazvedka" ASC arasında Özbəkistanda perspektivli yer təki sahələrinin geoloji öyrənilməsi və qiymətləndirilməsi üzrə üçtərəfli birgə müəssisənin yaradılmasının əsas şərtlərini müəyyən edən sənədin imzalanması da nəzərdə tutulur. İnanırıq ki, bu əməkdaşlıq gələcəkdə xarici ölkələrdə uğurlu layihələrin həyata keçirilməsi üçün möhkəm zəmin yaradacaq.

***- "AzerGold"un fəaliyyətinin vacib istiqamətlərindən biri də qiymətli metalların daxili bazarda pərakəndə satışıdır. Bu gün şirkətin qızıl və gümüş məhsullarının bazarda mövqeyi barədə hansı qiymətləndirməni vermək olar? Sizcə, bu məhsullar istehlakçıların etimadını qazana və rəqabət mühitində öz layiqli yerini tuta bilibmi?***

- Bəli, artıq əminliklə deyə bilərik ki, "AzerGold"un pərakəndə bazara təqdim etdiyi məhsullar son illər ərzində öz alıcı auditoriyasını formalaşdırıb və bazarda layiqli mövqe qazanıb. Bunu həm satış göstəriciləri, həm də istehlakçıların məhsullarımıza göstərdiyi davamlı maraq təsdiqləyir.

"AzerGold" məhsulları beynəlxalq standartlara uyğun orijinal tərtibatda istehsalı, zəmanətli mənşəyi və etibarlılığı ilə seçilir. İnvestisiya məqsədli qızıl və gümüş məhsullarına marağın artdığı bir dövrdə vətəndaşlara etibarlı və əlçatan alternativ təqdim edirik. Əslində, 7 il əvvəl yerli qızıl və gümüşdən hazırlanan sikkə və külçələri daxili pərakəndə bazara təqdim edərkən əsas məqsədimiz "Made in Azerbaijan" brendi ilə qiymətli metal məhsulları vasitəsilə ölkəmizin tarixini, mədəniyyətini və milli dəyərlərini tanıtmaq idi. Sevindirici haldır ki, bu təşəbbüs alıcılar tərəfindən böyük maraqla qarşılandı və zamanla təbliğatyönümlü bir layihə şirkət üçün əlavə gəlir mənbəyinə çevrildi. Artan tələbatın nəticəsi olaraq 2021-ci ildə ilk Satış və Mübadilə Mərkəzi fəaliyyətə başladı. Pərakəndə satışa başladığımız dövrdən bu günədək 50 min ədədədək qızıl-gümüş sikkə və qızıl külçələrin satışından ümumilikdə 116 milyon manatdan çox gəlir əldə olunub.



3 ölçülü (Smartminting) məhsullar

Hazırda məhsul portfelimizə 1 qramdan 1 kiloqramadək qızıl külçələr, 250, 500 və 1000 qramlıq gümüş külçələr, eləcə də müxtəlif çəkilərdə qızıl və gümüş sikkələr daxildir. Bu günədək müxtəlif mövzularda 14 qızıl və 11 gümüş olmaqla ümumilikdə 25 kolleksiya nümunəsini istehsal etmişik.

Kolleksiyalarımız arasında mədəni irsimizə həsr edilmiş qızıl sikkələr xüsusi yer tutur və ən çox tələbatlı məhsullar hesab edilir. Hətta mən deyərdim bəzi limitli kolleksiyalar proqnozlaşdırılandan da daha erkən satılır. Bəzən müştəri tələbatını qarşılamaqda çətinlik çəkirik. Belə bir atalar sözü var: "Əgər söz gümüşdürsə, sükut qızıldır". Son dövrlər isə gümüş də öz sözünü deməyə başlayıb. Gümüşdən istehsal etdiyimiz məhsullara maraq artıb və bu, məhsulların satış imkanlarının genişlənməsinə və alıcılıq qabiliyyətinin artmasına da müsbət təsir göstərir. Xüsusilə "Smartminting" metodu ilə hazırlanmış "Nadir fauna növləri", "Bakı" və "Əcəmi irsi - Naxçıvan" gümüş sikkə kolleksiyalarını misal göstərmək olar.

"Smartminting" texnologiyası əsasında Asiya regionunda ilk dəfə hazırlanmış sikkə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr etdiyimiz "100 il və onun fövqündə bir irs" qızıl sikkəsidir. Numizmatika sahəsində mühüm yenilik olan bu texnologiya mürəkkəb və yüksəkrelyefli dizaynların üçölçülü formatda sikkələr üzərində əks olunmasına imkan yaradır. Hazırda bu texnologiya əsasında hazırlanmış 6 gümüş məhsulu satışdadır. Cari ilin sonunadək məhsul portfelinin daha bir neçə yeni məhsulla genişləndirilməsi planlaşdırılır.

***- Qeyd etdiniz ki, "AzerGold"un fəaliyyəti yalnız hasilat və satış uğurları ilə məhdudlaşmır. Şirkət eyni zamanda fəaliyyət göstərdiyi regionlarda sosial məsuliyyət prinsiplərinə xüsusi önəm verir. Bu istiqamətdə həyata keçirilən layihələr barədə nə deyə bilərsiniz?***

- Çox doğru qeyd etdiniz ki, "AzerGold" QSC fəaliyyət göstərdiyi bölgələrdə dayanıqlı inkişaf məqsədlərini daim diqqətdə saxlayır və bu istiqamətdə dövlətimizin həyata keçirdiyi sosial siyasətə töhfə verməyə çalışır. Bu sahədə qəbul etdiyimiz sosial təsir və məsuliyyət siyasətinə uyğun olaraq yerli icmaların hərtərəfli dəstəklənməsi, o cümlədən məşğulluq, aqrar inkişaf, təhsil, səhiyyə, idman, mədəni irsin qorunması və kiçik sahibkarlığın inkişafı istiqamətlərində ardıcıl və sistemli layihələr həyata keçiririk. Bu günədək həmin istiqamətlər üzrə 100-dən çox sosial məsuliyyət layihəsi icra olunub. Həyata keçirdiyimiz layihələr sırasında Heydər Əliyev Fondunun təşəbbüsü və "AzerGold" QSC-nin dəstəyi ilə Daşkəsən rayonunun ucqar Quşçu qəsəbəsində modul tipli yeni məktəb binasının inşasını, Gəncə Regional Autizm Mərkəzinin yaradılmasını, 10 minə yaxın ödənişsiz tibbi xidməti əhatə edən səyyar müayinə aksiyalarını, eləcə də 66 fermerə aqrar fəaliyyətlərinin inkişafı istiqamətində göstərilən dəstəyi xüsusi qeyd edə bilərəm.



"AzerGold"un qızıl və gümüş məhsulları

Bununla yanaşı, yerli icmalarla davamlı əlaqələrin qurulması və sosial həmrəyliyin gücləndirilməsi istiqamətində müxtəlif təşəbbüslər həyata keçirilir. Yerli icra hakimiyyəti orqanları, bələdiyyələr və tərəfdaş qurumlarla əməkdaşlıq çərçivəsində maarifləndirici və sosial aksiyaların təşkili, eləcə də uşaq və gənclərin inkişafına yönəlmiş tədbirlərin keçirilməsi artıq ənənə halını alıb.

Bunlar fəaliyyət göstərdiyimiz bölgələrdə yerli icmalarla qarşılıqlı etimadın möhkəmləndirilməsinə, sosial rifahın yüksəldilməsinə və dayanıqlı inkişafın dəstəklənməsinə xidmət edir. Bu istiqamətdə görülən işlərin həm dövlət, həm də qeyri-hökumət təşkilatları tərəfindən yüksək qiymətləndirilməsi və müxtəlif mükafatlara layiq görülməyimiz bizi daha da təşviq edir.

***- Ekoloji məsuliyyət məsələləri "AzerGold"un fəaliyyətində hansı yeri tutur?***

- Mədən sənayesində ətraf mühitin mühafizəsi xüsusi əhəmiyyət daşıyır. Buna görə də fəaliyyətimizin bütün mərhələlərində ekoloji təhlükəsizlik tələblərinə ciddi riayət edilir. Bizim yanaşmamız ondan ibarətdir ki, mədən sənayesinin inkişafı ilə ətraf mühitin qorunması arasında seçim deyil, dayanıqlı balans təmin edilməlidir. İlk növbədə qeyd edilməlidir ki, "ESG" (ekoloji, sosial və korporativ idarəetmə) prinsipləri QSC-nin idarəetmə modelinin əsas sütunlarından birini təşkil edir. Ətraf mühitin mühafizəsi bizim üçün yalnız qanunvericilik tələbi deyil, eyni zamanda korporativ məsuliyyət məsələsidir. Biz mədən fəaliyyətinin ətraf mühitə təsirini minimuma endirmək məqsədilə bütün layihələri yerli və beynəlxalq qabaqcıl təcrübə əsasında həyata keçiririk. Ekoloji monitorinq proqramına uyğun olaraq, hasilat ərazilərində mütəmadi olaraq toz, su və səs ölçmələri aparılır, istehsalat nəticəsində yaranan tullantılar isə mümkün qədər təkrar emala yönəldilir.



"Zod" qızıl yatağı

Fəxrlə qeyd edim ki, "AzerGold" Azərbaycanda rekultivasiya tədbirləri həyata keçirən ilk dağ-mədən şirkətidir. Artıq istismarı başa çatmış "Ağyoxuş-1" layihəsində, eləcə də ÇİRES-də boş süxur anbarının bir hissəsində bioloji rekultivasiya işləri aparılıb, torpaq qatı bərpa olunub və yamacların bərkidilməsi həyata keçirilib. Ərazidə yaşıl zolaqlar salınıb və bu işlər davam etdirilir. Əlavə olaraq yaşıllaşdırma təşəbbüsləri çərçivəsində 19 minə yaxın ağac əkilib. 10 illik yubiley çərçivəsində isə Daşkəsən və Göygöl rayonlarında əlavə 10 min ağacın əkilməsi nəzərdə tutulur.

***- İnsan kapitalının inkişafı sahəsində hansı işlər görülüb?***



Tələbələrin ÇİRES-ə tanıtım səfəri

- İnsan kapitalının inkişafı "AzerGold" QSC-nin fəaliyyətinin əsas prioritetlərindən biridir. Şirkətdə hər zaman əməl etdiyimiz bir prinsip var: ən dəyərli resursumuz insanlardır. İnanırıq ki, hər bir uğurun təməlində peşəkar komanda dayanır. Məhz buna görə də fəaliyyətimizin ilk günündən etibarən əməkdaşlarımızın inkişafına, bilik və bacarıqlarının artırılmasına, müasir texnologiyaların mənimsənilməsinə xüsusi önəm vermişik.

Şirkətin fəaliyyəti nəticəsində ümumilikdə 2640 nəfər daimi işlə təmin olunub, xüsusilə ucqar kəndləri təmsil edən yerli mədənçi kadrların hazırlanması istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilib. Hazırda şirkət və onun törəmə müəssisələrində çalışan əməkdaşların təxminən 80 faizi regionların, xüsusilə Gəncə-Daşkəsən iqtisadi rayonunun ucqar yaşayış məntəqələrinin sakinləridir. Bu gün orta aylıq əməkhaqqı göstəricilərinə görə, Daşkəsən rayonu Bakı və Xankəndi şəhərlərindən sonra ölkədə 3-cü yerdə qərarlaşıb. Eyni zamanda işə qəbul prosesində şəhid ailələrinin üzvlərinə, müharibə iştirakçılarına xüsusi həssaslıq göstərilir və onların məşğulluğa cəlb edilməsi əsas prioritetlərimizdən biridir.

Bir məsələni xüsusilə diqqətinizə çatdırmaq istərdim. Qarşıdakı illərdə həyata keçirilməsi nəzərdə tutulan irimiqyaslı layihələr nəticəsində 2030-cu ilədək böyük əksəriyyəti regionların sakinləri olmaqla ümumilikdə 10 min nəfərədək vətəndaşın məşğulluğunun təmin ediləcəyi proqnozlaşdırılır.

Gənclərin, xüsusilə regionlarda yaşayan tələbələrin dağ-mədən sənayesinə marağının artırılması, ixtisas biliklərinin inkişafı məqsədilə 9 yerli təhsil müəssisəsi ilə əməkdaşlıq edirik. Ali və peşə təhsili müəssisələri ilə birgə həyata keçirdiyimiz təcrübə və inkişaf proqramları tələbələrin nəzəri biliklərini praktiki təcrübə ilə zənginləşdirməyə, onları istehsalat mühiti ilə yaxından tanış etməyə və gələcək karyeralarına dəstək olmağa xidmət edir.

Artıq beşinci ildir ki, həyata keçirilən Təqaüd Proqramı çərçivəsində dağ-mədən, geologiya, metallurgiya və digər əlaqəli ixtisaslar üzrə təhsil alan tələbələrə maliyyə dəstəyi, mentorluq və istehsalat təcrübəsi təqdim olunur. Bu günədək proqram üzrə 47 ali təhsil, 52 peşə təhsili üzrə tələbə qalib seçilib, onlardan 13-ü hazırda "AzerGold"da çalışır. Bununla yanaşı, "Gələcəyin Mədənçisi" proqramı vasitəsilə məktəblilər arasında dağ-mədən sənayesinə marağın artırılması və gələcək peşə seçiminə dəstək göstərilir.

***- Yubiley münasibətilə şirkətin kollektivinə və tərəfdaşlarına nə demək istərdiniz?***

- "AzerGold" QSC-nin 10 illik yubileyi münasibətilə bütün əməkdaşlarımızı, tərəfdaşlarımızı və fəaliyyətimizə dəstək göstərən bütün qurumları səmimi-qəlbdən təbrik edirəm. Ötən 10 ilin uğurları məhz dövlətimizin göstərdiyi yüksək etimadın və kollektiv əməyin, peşəkarlığın nəticəsidir. Əminəm ki, bundan sonra da "AzerGold" Azərbaycanın iqtisadi inkişafına, milli sərvətlərimizin səmərəli idarə olunmasına və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini verməyə davam edəcək. Bir daha həmkarlarımı yubiley münasibətilə təbrik edir, hər kəsə yeni uğurlar arzulayıram.

**Müasir cəmiyyətlərdə siyasi liderə göstərilən ictimai etimad həyata keçirilən siyasətin nəticələrinin vətəndaşlar tərəfindən necə qəbul edilməsinin ən mühüm göstəricilərindəndir. Azərbaycanda keçirilmiş son ictimai rəy sorğularının nəticələrindən aydın olur ki, ölkədə Prezident İlham Əliyevə olan inam və etimad yüksək səviyyədə qalmaqdadır. Sorğulara əsasən, respondentlərin 87,7 faizi dövlətimizin başçısına etimad göstərdiyini bildirib, 93,6 faizi Azərbaycan Prezidentinin fəaliyyətini müsbət qiymətləndirir, 81,9 faizi isə cənab İlham Əliyevi alternativsiz siyasi lider hesab edir. Bu rəqəmlərin hər birinin arxasında uzun illər ərzində həyata keçirilən ardıcıl dövlət siyasətinin, əldə olunan strateji uğurların, milli maraqlara əsaslanan idarəetmə modelinin və xalqla hakimiyyət arasında formalaşmış qarşılıqlı etimad durur.**



# Xalqın etimadından güc alan Prezident

## Milli maraqlara əsaslanan siyasət

Azərbaycan Prezidentinə bu qədər yüksək ictimai dəstəyi şərtləndirən bir sıra mühüm səbəblər var. Başlıca səbəblərdən biri dövlətimizin başçısının fəaliyyətinin əsas meyarının milli maraqlarla bağlı olmasıdır. Cənab İlham Əliyev daxili və xarici siyasətində Azərbaycanın dövlətçilik maraqlarını, ölkəmizin təhlükəsizliyini, xalqın rifahını prioritet hesab edib.

Son illər dünyada geosiyasi gərginliyin artdığı, beynəlxalq münasibətlər sistemində ikili standartların geniş yayıldığı dövrdə ölkə Liderinin Azərbaycanın maraqlarını qətiyyətlə müdafiə etməsi və onları ən yüksək səviyyədə qorumağa nail olması respublikamızın müstəqil siyasət kursunun əsas xüsusiyyətinə çevrilib. Prezident İlham Əliyev dəfələrlə nümayiş etdirib ki, Azərbaycan heç bir xarici təzyiq qarşısında öz milli maraqlarından geri çəkilməyəcək. Bu prinsipial mövqe isə cəmiyyətimiz tərəfindən yüksək qiymətləndirilir. İnsanlar cənab İlham Əliyevin timsalında özlərinin qətiyyətli müdafiəçisini görürlər.

Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsas xüsusiyyətlərindən biri də xalqla daim sıx təmasda olması, cəmiyyətin gözləntilərini düzgün qiymətləndirməsi və qəbul etdiyi qərarlarda insanlarımızın istək və arzularını əsas götürməsidir. Azərbaycan siyasi modelində hakimiyyətin legitimliyinin əsas mənbəyi xalqın iradəsidir. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, onun ən böyük dayağı Azərbaycan xalqıdır. Bu müştərək etimad milli dövlətçiliyimizin sarsılmaz sütunudur. Bir tərəfdən Prezident xalqa güvənir, digər tərəfdən xalq da onun həyata keçirdiyi siyasətə dəstək verir. Məhz bu qarşılıqlı inam ölkəmizdə siyasi sabitliyin və milli birliyin əsasını təşkil edir. Sorğularda qeydə alınan yüksək etimad göstəriciləri də məhz xalqla lider arasında formalaşmış bu möhkəm mənəvi-siyasi bağın ifadəsidir.

## Böyük siyasi şəxsiyyət və qətiyyətli lider amili

Tarix göstərir ki, mürəkkəb dövrlərdə dövlətlərin taleyi çox vaxt lider amilindən asılı olur. Prezident İlham Əliyevin siyasi fəaliyyətində də bu xüsusiyyət diqqəti çəkir. Müasir dünyamızın mürəkkəb geosiyasi şəraitində çevik qərarvermə qabiliyyəti, strateji düşüncə, siyasi uzaqgörənlik və yüksək diplomatik məharət Azərbaycanın qarşısında duran mürəkkəb problemlərin həllində mühüm rol oynayıb.

Prezident İlham Əliyev təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də prinsipial mövqeyi, ardıcıl siyasəti və yüksək siyasi nüfuzu ilə seçilən lider kimi qəbul olunur. Dünyanın aparıcı beynəlxalq platformalarında Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə etməsi, beynəlxalq auditoriya qarşısında faktlara əsaslanan çıxışları və milli maraqları ardıcıl şəkildə müdafiə etməsi onun liderlik keyfiyyətlərinin mühüm göstəricisidir.

Xüsusi vurğulanmalıdır ki, müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu onların iqtisadi və hərbi potensialı ilə yanaşı, eyni zamanda müstəqil siyasi iradə nümayişi, etibarlı tərəfdaş kimi tanınması və qlobal proseslərə təsir imkanları ilə ölçülür. XXI əsrin ilk onilliklərində Azərbaycanın xarici siyasətində baş verən əsas dəyişiklik də məhz bu istiqamətdə olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu nəticəsində ölkəmiz beynəlxalq münasibətlər sistemində passiv müşahidəçi və ya regional siyasətin təsirinə məruz qalan dövlət olmaqdan çıxaraq, qlobal proseslərin fəal iştirakçısına, bir çox halda isə təşəbbüskarına çevrilmişdir.

Prezident İlham Əliyevin xarici siyasət strategiyasının ən mühüm istiqamətlərindən biri məhz balanslaşdırılmış diplomatiyadır. Azərbaycan eyni zamanda Qərb və islam ölkələri, türk dünyası, Mərkəzi Asiya ölkələri, qonşular və digər tərəfdaşlarla qarşılıqlı faydalı münasibətlər quraraq müxtəlif siyasi platformalar arasında etimad yarada bilən nadir ölkələrdən biri kimi çıxış etməyə başlamışdır. Belə çoxtərəfli əməkdaşlıq modeli ölkənin geosiyasi mövqeyini gücləndirməklə yanaşı, beynəlxalq proseslərdə vasitəçi və dialoq platforması statusu qazanmasına da şərait yaratmışdır. Azərbaycanın beynəlxalq nüfuzunun artmasında enerji diplomatiyası xüsusi rol oynamışdır. Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına etibarlı marşrutlarla çatdırılması istiqamətində həyata keçirilən iri layihələr ölkənin iqtisadi imkanlarını genişləndirməklə yanaşı, onun geosiyasi əhəmiyyətini də xeyli dərəcədə artırmışdır. Azərbaycan artıq yalnız enerji ixrac edən ölkə deyil, Avrasiyanın enerji təhlükəsizliyinin mühüm iştirakçısı və etibarlı tərəfdaşı kimi qəbul edilir. Cənab İlham Əliyevin iradəsi əsasında həyata keçirilən enerji əməkdaşlığı iqtisadi münasibətlərin hüdudlarını aşaraq siyasi etimadın formalaşmasına və uzunmüddətli strateji tərəfdaşlıqların yaranmasına mühüm töhfə vermişdir.

Nəqliyyat və logistika sahəsində həyata keçirilən siyasət də Azərbaycanın beynəlxalq rolunu yeni mərhələyə yüksəltmişdir. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən beynəlxalq nəqliyyat marşrutlarının qovşağında yerləşən ölkəmiz Avrasiyanın əsas tranzit mərkəzlərindən biri kimi qəbul olunur. Qlobal təchizat zəncirlərinin yenidən formalaşdığı, alternativ marşrutlara tələbatın artdığı dövrdə Azərbaycanın təşəbbüsü və iştirakı ilə yaradılmış nəqliyyat infrastrukturu ölkənin coğrafi mövqeyini mühüm strateji üstünlüyə çevirmişdir.

Prezident İlham Əliyev xarici siyasət kursunda çoxtərəfli diplomatiyaya hər zaman üstünlük verir. Bu siyasətin bariz nümunələrindən biri Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi olmuşdur. Quruma 2019-cu ildən başlayaraq 4 il davam edən sədrliyi dövründə Azərbaycan inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsi, beynəlxalq həmrəyliyin gücləndirilməsi və qlobal problemlərin həllinə dair təşəbbüslərlə çıxış etmiş, xüsusilə pandemiya dövründə irəli sürülən humanitar təşəbbüslər və beynəlxalq əməkdaşlıq çağırışları ölkəmizin məsuliyyətli beynəlxalq tərəfdaş kimi nüfuzunu daha da möhkəmləndirmişdir.

Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsində humanitar diplomatiya da mühüm rol oynayır. Müxtəlif beynəlxalq forumların, mədəniyyətlərarası dialoq tədbirlərinin, humanitar konfransların və qlobal əhəmiyyətli görüşlərin Bakıda keçirilməsi ölkəmizi həm də intellektual və humanitar əməkdaşlıq platforması kimi tanıdır. Müxtəlif sivilizasiyalar, dinlər və mədəniyyətlər arasında dialoqun təşviqi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi beynəlxalq ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Bu nailiyyətlərin əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır.

Son illərdə Azərbaycanın beynəlxalq mövqeyini gücləndirən mühüm amillərdən biri də ölkənin qlobal problemlərin həllində məsuliyyətli iştirakçı kimi çıxış etməsidir. İqlim dəyişiklikləri, enerji təhlükəsizliyi, "yaşıl transformasiya", ərzaq təhlükəsizliyi və dayanıqlı inkişaf kimi məsələlər üzrə irəli sürülən təşəbbüslər Azərbaycanın beynəlxalq gündəliyinin formalaşmasında daha fəal iştirak etməsinə şərait yaradır. Bu istiqamətdə ölkənin nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi və müxtəlif qlobal platformalarda fəal mövqe nümayiş etdirməsi onun beynəlxalq statusunun yüksəlməsinin göstəricilərindəndir.

Cənab İlham Əliyevin xarici siyasət fəlsəfəsi praqmatizmlə prinsipiallığın vəhdətinə əsaslanır. Azərbaycan bütün dövlətlərlə qarşılıqlı hörmət və bərabərlik prinsipləri əsasında əməkdaşlıq etməyə üstünlük verir, eyni zamanda milli maraqlarına toxunan məsələlərdə daim ardıcıl və qətiyyətli mövqe nümayiş etdirir. Bu yanaşma xarici siyasətin çevikliyini təmin etməklə yanaşı, onun strateji ardıcıllığını da qoruyur. Azərbaycanın xarici siyasəti yalnız mövcud beynəlxalq proseslərə uyğunlaşmaqla məhdudlaşmır, bir sıra hallarda yeni əməkdaşlıq formatlarının və regional təşəbbüslərin formalaşmasına da təkan verir. Enerji layihələri, nəqliyyat dəhlizləri, türk dünyasına inteqrasiya, Mərkəzi Asiya ilə əlaqələrin dərinləşdirilməsi və Cənubi Qafqazda yeni əməkdaşlıq imkanlarının təşviqi bu baxımdan Prezident İlham Əliyevin xarici siyasət kursunun strateji xarakterini nümayiş etdirir.

Bu gün Azərbaycan bütün dünyada etibarlı tərəfdaş, öhdəliklərinə sadiq dövlət, sözünün arxasında duran siyasi aktor və mürəkkəb geosiyasi şəraitdə müstəqil qərarlar qəbul etmək qabiliyyətinə malik ölkə kimi tanınır. Bu etimad uzun illər ərzində həyata keçirilən ardıcıl diplomatiyanın, beynəlxalq hüquqa söykənən mövqeyin və milli maraqlara əsaslanan xarici siyasətin nəticəsidir.

Azərbaycan Prezidentinə ictimai etimadı formalaşdıran əsas amillərdən biri də təbii ki, ölkəmizin son illər əldə etdiyi sosial-iqtisadi inkişafdır. Bu gün ölkəmiz regionun ən güclü iqtisadiyyatlarından birinə malikdir. Müasir infrastruktur yaradılıb, nəqliyyat-logistika imkanları genişlənib, enerji təhlükəsizliyi tam təmin olunub, qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm nəticələr əldə edilib. Azərbaycan artıq yalnız enerji ixrac edən ölkə deyil, həm də beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm iştirakçısı, regional iqtisadi əməkdaşlığın aparıcı mərkəzlərindəndir. Eyni zamanda güclü iqtisadiyyat güclü ordunun formalaşdırılmasına da imkan verib. Son illər Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazasının müasirləşdirilməsi, peşəkarlığın artırılması və müdafiə sənayesinin inkişafı ölkənin təhlükəsizlik imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti statusunu daha da möhkəmləndirib. Hazırda regionda həyata keçirilən iri iqtisadi, enerji və nəqliyyat layihələrinin əksəriyyəti Azərbaycanın iştirakı ilə reallaşdırılır. Ölkə beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi qəbul edilir. Azərbaycan artıq təkcə regional proseslərə deyil, qlobal gündəliyin mühüm məsələlərinə də öz töhfəsini verən dövlət kimi tanınır.

## Tarixi Zəfər - milli həmrəyliyin zirvəsi

Prezident İlham Əliyevə yüksək ictimai etimadın ən mühüm səbəblərindən biri 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbədir.

2020-ci ildə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü təmin etdi və uzun illər davam edən işğala son qoydu. Sonrakı dövrdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın bütün ərazisində dövlət suverenliyi tam bərpa edildi. Bu misilsiz nailiyyət təkcə hərbi qələbə deyildi, həm də xalqın milli qürurunun bərpası, tarixi ədalətin təmin olunması və dövlətçiliyin daha da möhkəmlənməsi faktıdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı işğaldan azad və ölkənin tam suverenliyini təmin edən lider kimi adını tarixə əbədi yazıb. Eyni zamanda Azərbaycan Prezidenti qalib dövlətin rəhbəri kimi addım-addım reallaşmasına nail olduğu sülh gündəliyi ilə Cənubi Qafqaz regionunda dayanıqlı inkişafın müəllifi kimi də adını tarixdə əbədiləşdirməkdədir.

Müasir dünyada müharibələrin, silahlı münaqişələrin, terror təhlükələrinin və siyasi böhranların geniş yayıldığı bir dövrdə Azərbaycanda sabitliyin və təhlükəsizliyin qorunması xüsusilə böyük əhəmiyyət daşıyır. Ölkəmizdə ictimai-siyasi sabitlik təmin olunur, vətəndaşların təhlükəsizliyi yüksək səviyyədə qorunur, iqtisadi inkişaf üçün əlverişli mühit formalaşdırılıb. Bu sabitlik ardıcıl dövlət idarəçiliyinin, güclü institutların, milli həmrəyliyin və xalq-hakimiyyət birliyinin nəticəsidir. Cəmiyyət sabitliyin dəyərini daha dərindən dərk etdikcə onu təmin edən siyasi kursa dəstək də möhkəmlənir.

## Real nəticələrə hesablanan siyasət

Prezident İlham Əliyevə olan yüksək ictimai etimad bir kampaniyanın və ya emosional münasibətin nəticəsi kimi formalaşmayıb. Bu etimad illər ərzində yerini tutan nəticələrə əsaslanan siyasətin məntiqi qanunauyğunluğudur. Milli maraqların qətiyyətlə müdafiə edilməsi, xalqla möhkəm əlaqə, güclü liderlik keyfiyyətləri, iqtisadi inkişaf, beynəlxalq nüfuzun artması, tarixi Zəfər, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması, ölkədə sabitliyin və təhlükəsizliyin qorunması bu etimadın əsas dayaqlarını təşkil edir. Məhz buna görə də son ictimai rəy sorğularında qeydə alınmış 87,7 faizlik etimad, fəaliyyətə 93,6 faizlik müsbət qiymət və 81,9 faizlik alternativsiz Lider göstəricisi Azərbaycan cəmiyyətində formalaşmış siyasi reallığın ifadəsi kimi qiymətləndirilməlidir.

Bu göstəricilər bir daha sübuta yetirir ki, Azərbaycan cəmiyyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf kursunu ölkənin firavan gələcəyi, milli təhlükəsizliyi və dövlətçilik maraqları baxımından etibarlı, alternativsiz yol hesab edir və bu siyasi kursun davamlılığına güclü ictimai dəstək nümayiş etdirir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# *Türkiyəli ekspert:* "Dünyada artan münaqişələr fonunda Azərbaycanın sabitliyi və təhlükəsizliyi güclü dövlətçilik modelinin təzahürüdür"

**"Dünyanın müxtəlif regionlarında müharibələrin, silahlı münaqişələrin, geosiyasi qarşıdurmaların və təhlükəsizlik risklərinin artdığı, beynəlxalq münasibətlər sistemində qeyri-müəyyənliyin dərinləşdiyi bir dövrdə Azərbaycanın sabitlik və təhlükəsizliyi yüksək səviyyədə təmin etməsi ölkənin güclü dövlətçilik ənənələrinin, düşünülmüş idarəetmə modelinin və milli maraqlara əsaslanan siyasətinin uğurlu nəticəsidir".**

Bu fikirləri Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri, türkiyəli siyasi ekspert Bilal Dündar AZƏRTAC-a açıqlamasında deyib.

Bilal Dündar qeyd edib ki, son illər dünyanın müxtəlif bölgələrində baş verən müharibələr, terror aktları, humanitar böhranlar, qanunsuz miqrasiya axınları, enerji təhlükəsizliyi problemləri və iqtisadi qeyri-sabitlik dövlətlərin milli təhlükəsizlik strategiyalarını yenidən nəzərdən keçirməsinə səbəb olub. Onun sözlərinə görə, belə mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın sabit və təhlükəsiz ölkə kimi mövqeyini qoruyub saxlaması xüsusi diqqət çəkən məqamlardandır: "Təhlükəsizlik anlayışı müasir dövrdə yalnız hərbi güclə məhdudlaşmır. Siyasi sabitlik, iqtisadi dayanıqlılıq, sosial rifah, milli birlik, effektiv dövlət idarəçiliyi, kibertəhlükəsizlik, enerji təhlükəsizliyi və ictimai asayiş bütöv təhlükəsizlik sisteminin əsas elementləridir. Azərbaycan bu istiqamətlərin hər biri üzrə ardıcıl siyasət həyata keçirərək mühüm nəticələr əldə edib. Ölkədə hüquq-mühafizə orqanlarının və digər dövlət institutlarının koordinasiyalı fəaliyyəti, ictimai təhlükəsizliyin etibarlı qorunması və qanunun aliliyinin təmin olunması vətəndaşların dövlətə inamını daha da möhkəmləndirib. Bu isə öz növbəsində cəmiyyətin sabit inkişafına və milli həmrəyliyin güclənməsinə xidmət edir".



Türkiyəli ekspert vurğulayıb ki, Azərbaycanın suverenliyinin tam təmin olunmasından sonra ölkənin təhlükəsizlik sistemi daha da möhkəmlənib. Dövlət idarəçiliyinin bütün ölkə ərazisində vahid prinsiplər əsasında həyata keçirilməsi, sərhədlərin etibarlı mühafizəsi və qanunvericiliyin tam tətbiqi uzunmüddətli sabitlik üçün mühüm zəmin formalaşdırıb.

Onun fikrincə, Azərbaycanın əldə etdiyi sabitlik iqtisadi inkişafın da əsas təminatlarından biridir. Ölkədə həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri, sənayenin inkişafı, rəqəmsal transformasiya, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi təhlükəsiz və proqnozlaşdırılan mühit sayəsində uğurla reallaşdırılır.

Bilal Dündar bildirib ki, Azərbaycan bu gün Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Orta dəhlizin inkişafı, beynəlxalq yükdaşımaların artması, enerji marşrutlarının təhlükəsiz fəaliyyəti və regionlararası iqtisadi əməkdaşlığın genişlənməsi ölkənin sabitliyinin beynəlxalq əhəmiyyətini daha da artırır.

Ekspert qeyd edib ki, xarici investorların Azərbaycana olan etimadının əsas səbəblərindən biri ölkədə hökm sürən sabitlik və təhlükəsizlik mühitidir. İnvestisiya layihələrinin etibarlı şəkildə həyata keçirilməsi, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və müasir hüquqi bazanın mövcudluğu Azərbaycanın iqtisadi cəlbediciliyini artıran əsas amillərdəndir.

O vurğulayıb ki, Azərbaycan beynəlxalq münasibətlərdə balanslaşdırılmış və praqmatik siyasət həyata keçirən, sülhü və dialoqu təşviq edən dövlətdir. Rəsmi Bakının regional əməkdaşlığa verdiyi önəm Cənubi Qafqazda etimad mühitinin möhkəmlənməsinə və yeni iqtisadi imkanların yaranmasına xidmət edir.

Bilal Dündar bildirib ki, Türkiyə ilə Azərbaycan arasında mövcud olan strateji müttəfiqlik münasibətləri də regionun təhlükəsizlik arxitekturasının mühüm sütunlarından biridir. Müdafiə sənayesi, hərbi əməkdaşlıq, enerji, nəqliyyat, ticarət və humanitar sahələrdə həyata keçirilən birgə layihələr iki qardaş ölkənin gücünü artırmaqla yanaşı, regional sabitliyə də mühüm töhfə verir.

Ekspert əlavə edib ki, beynəlxalq tədbirlərin Azərbaycanda yüksək səviyyədə təşkili ölkənin təhlükəsizlik sisteminin səmərəliliyini nümayiş etdirir. Dünyanın müxtəlif ölkələrindən gələn dövlət rəsmilərinin, iş adamlarının və beynəlxalq təşkilatların nümayəndələrinin Azərbaycana inamla səfər etməsi ölkənin beynəlxalq nüfuzunun göstəricilərindən biridir.

Bilal Dündar qeyd edib ki, Azərbaycan multikultural dəyərlərin qorunmasına, dini və etnik tolerantlığın inkişafına xüsusi önəm verir. Fərqli mədəniyyətlərin və dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşaması da ölkədə sabitliyin möhkəmlənməsinə xidmət edən mühüm amillərdəndir.

Onun sözlərinə görə, milli həmrəylik və vətəndaşların dövlət ətrafında sıx birləşməsi Azərbaycanın ən böyük üstünlüklərindən biridir. Bu birlik ölkənin istənilən daxili və xarici çağırışlara qarşı dayanıqlılığını artırır və inkişaf strategiyasının uğurla həyata keçirilməsini təmin edir.

Türkiyəli siyasi ekspert vurğulayıb ki, qlobal təhlükəsizlik sistemində ciddi dəyişikliklərin baş verdiyi indiki mərhələdə Azərbaycan öz sabitliyi, təhlükəsizliyi və inkişaf modeli ilə fərqlənən dövlətlər sırasında yer alır. Onun fikrincə, bu model milli maraqlara söykənən siyasətin, güclü dövlət institutlarının, peşəkar idarəetmənin və xalq-dövlət birliyinin məntiqi nəticəsidir.

Bilal Dündar əminliyini ifadə edib ki, Azərbaycanın həyata keçirdiyi ardıcıl dövlət siyasəti bundan sonra da ölkədə sabitliyin və təhlükəsizliyin etibarlı şəkildə qorunmasına, iqtisadi inkişafın sürətlənməsinə, beynəlxalq nüfuzun daha da artmasına və Cənubi Qafqazda sülhün, əməkdaşlığın və rifahın möhkəmlənməsinə mühüm töhfə verəcək.



## AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



# Rəqəmsal inkişafın hüquqi təminatı

### "Güclü rəqəmsal iqtisadiyyatın təməlində güclü hüquqi baza dayanır"

**XXI əsr artıq rəqəmsal iqtisadiyyat, süni intellekt və innovasiyalar əsridir. Son illər dünyada baş verən texnoloji dəyişikliklər göstərir ki, dövlətlərin iqtisadi qüdrəti təkcə təbii sərvətlər və ya ənənəvi sənaye sahələri ilə deyil, ilk növbədə onların rəqəmsal imkanları, innovasiya potensialı və yüksək texnologiyalara əsaslanan iqtisadi modeli ilə müəyyən edilir.**



Bu baxımdan rəqəmsal transformasiya milli inkişafın zəruri şərtinə çevrilib. Bu gün ABŞ, Çin, Böyük Britaniya, Almaniya, Cənubi Koreya, Yaponiya, Sinqapur, Estoniya və digər qabaqcıl ölkələr süni intellekt, rəqəmsal dövlət idarəçiliyi, kibertəhlükəsizlik, bulud texnologiyaları, böyük verilənlər (Big Data), blokçeyn və innovasiya ekosisteminin inkişafı hesabına qlobal iqtisadiyyatın aparıcı iştirakçılarına çevriliblər. Məhz bu ölkələrin təcrübəsi göstərir ki, texnologiyanın inkişafını təmin edən əsas amillərdən biri müasir dövrün tələblərinə cavab verən çevik, liberal və investor yönümlü qanunvericilik bazasının yaradılmasıdır.

**Milli Məclisin deputatı Azər BADAMOV** qəzetimizə açıqlamasında qeyd edib ki, rəqəmsal iqtisadiyyatın inkişafı yalnız texnologiyaların tətbiqi ilə məhdudlaşmır. Bu proses dövlət idarəçiliyinin yenidən qurulmasını, hüquqi münasibətlərin müasirləşdirilməsini, biznes mühitinin liberallaşdırılmasını, insan kapitalının inkişafını və innovasiya fəaliyyətinin kompleks şəkildə dəstəklənməsini tələb edir. Başqa sözlə, güclü rəqəmsal iqtisadiyyatın təməlində ilk növbədə güclü hüquqi baza dayanır. "Azərbaycan da son illərdə qlobal inkişaf meyillərini nəzərə alaraq rəqəmsal transformasiyanı sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi müəyyən edib. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd", rəqəmsal dövlət xidmətləri, elektron hökumət, innovasiya və yüksək texnologiyalar sahəsində həyata keçirilən layihələr ölkənin yeni inkişaf modelinin formalaşdığını göstərir. Bu istiqamətdə mühüm dönüş nöqtələrindən biri 2026-cı il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş müşavirə oldu. Müşavirədə ölkənin rəqəmsal gələcəyini müəyyən edən mühüm institusional qərarlar qəbul edildi. Azərbaycan Respublikasının Rəqəmsal Şurasının yaradılması və şuraya Birinci vitse-prezident Mehriban Əliyevanın sədr təyin edilməsi rəqəmsal transformasiya siyasətinin vahid mərkəzdən koordinasiya olunmasına xidmət edən mühüm addım oldu. Ardınca təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" ölkənin rəqəmsal gələcəyinin yol xəritəsini müəyyən edib. Bu sənəd təkcə informasiya-kommunikasiya texnologiyalarının inkişafını deyil, həm də innovasiya iqtisadiyyatının formalaşdırılması, süni intellekt texnologiyalarının tətbiqi, kibertəhlükəsizlik sisteminin gücləndirilməsi, insan kapitalının inkişafı və rəqəmsal biznes mühitinin yaradılması istiqamətlərini özündə birləşdirir", - deyə A.Badamov əlavə edib.

Deputat bildirib ki, müasir dövrdə dövlətlərin təhlükəsizliyi yalnız quru, hava və dəniz sərhədlərinin qorunması ilə məhdudlaşmır. Rəqəmsal texnologiyaların geniş tətbiqi nəticəsində kibermәkan yeni strateji təhlükəsizlik müstəvisinə çevrilib. Dövlət informasiya sistemlərinin, kritik infrastrukturun, maliyyə sektorunun, enerji sistemlərinin və vətəndaş məlumatlarının etibarlı qorunması milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Buna görə də rəqəmsal transformasiya ilə kibertəhlükəsizlik siyasətinin paralel şəkildə inkişaf etdirilməsi müasir dövlət idarəçiliyinin əsas prinsiplərindən hesab olunur. Bu baxımdan iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilmiş Rəqəmsal Şuranın ilk iclası xüsusi əhəmiyyət daşıyır. İclasda Fəaliyyət Planının icrası, qarşıda duran vəzifələr və institusional islahatların gedişi müzakirə olunub. Bu, dövlətin rəqəmsal transformasiya siyasətinin davamlı və sistemli şəkildə həyata keçirildiyini göstərir.

A.Badamov deyib ki, dünya təcrübəsi rəqəmsal inkişafın yalnız dövlət proqramları ilə təmin oluna bilmədiyini sübut edir: "İnnovasiya mühiti üçün əlverişli hüquqi sistem yaradılmadıqca nə böyük investisiyalar cəlb etmək, nə də yüksək texnologiyalar sənayesini formalaşdırmaq mümkündür. Silikon Vadisi, İsrail, Estoniya və Sinqapur kimi uğurlu innovasiya mərkəzlərinin inkişafında məhz çevik qanunvericilik, investorların hüquqlarının qorunması və innovativ biznes üçün vergi stimulları həlledici rol oynayıb. Məhz buna görə də Azərbaycanda hazırlanmış qanunvericilik islahatları paketi xüsusi əhəmiyyət daşıyır. Paket çərçivəsində 34 qanuna, Prezidentin 9 fərmanına və Nazirlər Kabinetinin 3 qərarına dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bu, son illərin ən genişmiqyaslı iqtisadi-hüquqi islahat paketlərindən biri hesab oluna bilər. Ən mühüm yeniliklərdən biri qanunvericiliyə rəqəmsal texnologiyalar, süni intellekt, innovasiya məhsulu, texnologiya transferi, kibertəhlükəsizlik, frilanser fəaliyyəti, vençur kapitalı, kraudfandinq və digər müasir iqtisadi anlayışların daxil edilməsidir. Bu anlayışların hüquqi status qazanması yeni biznes modellərinin inkişafına və innovasiya bazarının genişlənməsinə imkan verəcək".

Deputat islahat paketində vençur kapitalı fondlarının fəaliyyətinin hüquqi tənzimlənməsinin xüsusi yer tutduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, dünyada "Apple", "Google", "Meta", NVIDIA, "Uber", "Airbnb" kimi nəhəng şirkətlərin ilk inkişaf mərhələsində vençur investisiyaları həlledici rol oynayıb. Azərbaycanda da bu sahənin hüquqi əsaslarının yaradılması yerli startapların beynəlxalq maliyyə bazarlarına çıxış imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək. Beynəlxalq praktikada geniş istifadə olunan SAFE (Simple Agreement for Future Equity) və Convertible Note investisiya alətlərinin qanuniləşdirilməsi ölkəmizin investisiya mühitini daha da cəlbedici edəcək. Bu mexanizmlər investorlarla startaplar arasında münasibətləri sadələşdirir, investisiyaların cəlb edilməsini sürətləndirir və hüquqi riskləri minimuma endirir.

A.Badamov vurğulayıb ki, qanunvericilik islahatlarının mühüm istiqamətlərindən biri də vergi və gömrük güzəştləridir: "Rəqəmsal texnologiyalar, süni intellekt və kibertəhlükəsizlik sahəsində fəaliyyət göstərən şirkətlər üçün uzunmüddətli vergi güzəştlərinin tətbiqi, yüksəkixtisaslı mütəxəssislər üçün gəlir vergisinin sıfır faiz müəyyən edilməsi, texnoloji avadanlıqların idxalının gömrük rüsumu və əlavə dəyər vergisindən azad olunması, "SaaS" və bulud xidmətlərinə tətbiq olunan vergi maneələrinin aradan qaldırılması innovasiya biznesinin inkişafına ciddi stimul verəcək. Müsbət cəhətlərdən biri də tədqiqat və inkişaf (R&D) xərclərinin vergi güzəştləri ilə təşviq edilməsidir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, elmə və innovasiyaya yatırılan investisiyalar uzunmüddətli dövrdə iqtisadi artımın əsas mənbəyinə çevrilir. Buna görə də R&D xərclərinin 2,5 əmsalla vergitulan mənfəətdən çıxılması yerli şirkətlərin elmi tədqiqatlara marağını artıracaq. Eyni zamanda ESOP (Employee Stock Ownership Plan) mexanizminin hüquqi status qazanması innovativ şirkətlərə yüksəkixtisaslı mütəxəssisləri əməkhaqqı ilə yanaşı, şirkət payı hesabına motivasiya etməyə imkan verəcək. Bu model dünyanın aparıcı texnologiya şirkətlərində geniş tətbiq olunur və insan kapitalının qorunmasının ən səmərəli vasitələrindən biri hesab edilir".

Deputat bildirib ki, qanunvericilik islahatlarında "Rəqəmsal səyyah" proqramının tətbiqi də diqqətçəkən yeniliklərdəndir. Bu mexanizm xarici proqramçıların, mühəndislərin, startap təsisçilərinin və digər yüksəkixtisaslı mütəxəssislərin Azərbaycanda yaşayıb fəaliyyət göstərməsinə imkan yaradacaq. Nəticədə ölkəmiz beynəlxalq innovasiya şəbəkələrinin daha fəal iştirakçısına çevrilə bilər. "Dövlət satınalmalarında startaplara və innovativ məhsullara üstünlük verilməsi də mühüm islahatlardan biridir. Dünyanın inkişaf etmiş ölkələrində dövlət ilk sifarişçi rolunu oynamaqla yeni texnologiyaların bazara çıxmasına dəstək verir. Azərbaycanda da bu mexanizmin tətbiqi yerli innovasiya şirkətlərinin sürətli inkişafına təkan verəcək. Əslində, bütün bu islahatların strateji məqsədi yalnız İKT sektorunun inkişafı deyil, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi, yüksəktexnologiyalı məhsul və xidmətlərin ixracının artırılması, yeni yüksək maaşlı iş yerlərinin yaradılması və Azərbaycanın regionun aparıcı innovasiya mərkəzinə çevrilməsidir. Qlobal iqtisadiyyatın gələcəyi məhz rəqəmsal texnologiyalar üzərində qurulur. Bu reallıq fonunda Azərbaycan üçün də əsas prioritetlərdən biri çevik qanunvericilik bazasının formalaşdırılması, innovasiya fəaliyyətinin stimullaşdırılması və beynəlxalq texnologiya şirkətləri üçün cəlbedici biznes mühitinin yaradılmasıdır", - deyə o bildirib.

A.Badamov həmçinin qeyd edib ki, əgər nəzərdə tutulan qanunvericilik islahatları ardıcıl və tam şəkildə həyata keçirilərsə, yaxın illərdə Azərbaycan yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Xəzər hövzəsinin aparıcı rəqəmsal texnologiyalar, süni intellekt, innovasiya və kibertəhlükəsizlik mərkəzlərindən birinə çevrilə bilər. Bu isə ölkənin iqtisadi inkişafına, milli təhlükəsizliyinin möhkəmlənməsinə və beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə mühüm töhfə verəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sadə, çevik, şəffaf

### Dövlət xidmətlərinin vahid məkanı - "mygov"dan aktiv istifadə edənlərin sayı sürətlə artır

**Rəqəmsallaşma dövlət idarəçiliyinin səmərəliliyini xeyli artırır və bu səbəbdən Azərbaycan da bu sahədə qlobal trendləri yaxından izləyir, öz milli rəqəmsal sistemini qurur. Xatırladaq ki, cari il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən xüsusi müşavirə ölkəmizin rəqəmsal gələcəyi üçün yeni bir mərhələnin əsasını qoymuşdur. "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş bu müşavirədə vacib məsələlərə toxunulmuşdur. Qarşıya qoyulan əsas məqsədlərdən biri də bütün rəqəmsal xidmətlərin vahid mərkəzdən idarə olunması idi.**




Həmin müşavirədə Prezident İlham Əliyev ölkəmizdə fəaliyyət göstərən fərqli platformaların vahid platformada birləşməsinin vacibliyini vurğulamış, rəqəmsal keçidlə bağlı strateji hədəfləri müəyyən etmişdir: "Son illər ərzində müxtəlif dövlət qurumları - nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim ediləndə təklif edərsiniz. Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir - yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir. İndi buna nə qədər vaxt lazımdır, əlbəttə ki, bunu siz mənə bildirərsiniz. Eyni zamanda bu gün mövcud olan platformaların üstünlükləri, əldə edilmiş təcrübə və bu platformaların işlənməsində iştirak etmiş şəxslər, kadrlar da ümumi işə cəlb edilməlidir. Yəni mən əldə edilmiş nəticələri qiymətləndirirəm, amma eyni zamanda bu gün vaxt gəlib çatıb ki, bu, vahid mərkəzdə birləşsin".

Bu mövqe ölkəmizdə rəqəmsal sahədə yeni bir dövrün təməlini qoydu. Artıq hər bir nazirliyin fərqli tətbiq yaratması dövrü geridə qalır. Vətəndaşların rahatlığı üçün bütün xidmətlər "mygov" sistemi daxilində cəmləşdiriləcək. Bu isə həm vaxt itkisinin qarşısını alacaq, həm də dövlət vəsaitlərinin daha səmərəli xərclənməsinə şərait yaradacaq. Şübhəsiz ki, dövlət xidmətlərini vətəndaşlara və bizneslərə daha yaxın etmək, vətəndaş-məmur təmasını minimuma endirmək, proseslərin şəffaflığını və vətəndaş məmnuniyyətini tam təmin etmək rəqəmsal ekosistemin təməlidir. Bu məqsədlə bütün rəqəmsal dövlət xidmətləri və elektron sənədlər vətəndaşlar üçün "mygov", sahibkarlar üçün isə "mygov Biznes" platformaları vasitəsilə təqdim olunacaq.

Artıq "mygov" platforması yeni bir yanaşma ilə istifadəçilərin xidmətinə təqdim edilib. Bu yeni yanaşmanın əsas mahiyyəti rəqəmsallaşmanı birbaşa insanlara və onların həyatındakı mühüm hadisələrə uyğun qurmaqdır. Təbii ki, rəqəmsallaşma istiqamətində əsas məqsədlərdən biri tətbiqlərin inteqrasiyası ilə yanaşı, hazırda rəqəmsal olmayan xidmətlərin rəqəmsallaşdırılması və proseslərin optimallaşdırılması ilə bağlıdır. "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın uğurlu icrası nəticəsində proaktiv xidmətlərin payının 50 faizə çatdırılması hədəflənir. Bu proses çərçivəsində bəzi xidmətlər vətəndaşın əlavə müraciətinə ehtiyac olmadan, sistem inteqrasiyası və məlumat mübadiləsi əsasında avtomatik təqdim ediləcək. Eyni zamanda "Yalnız bir dəfə" prinsipinin tətbiqi ilə təkrar sənəd tələbi minimuma endirilərək maneələr tamamilə aradan qaldırılacaq.

Hazırda dövlət orqanları təxminən 12 mühüm proses üzərindən vətəndaşlarla təmasları yenidən qurur. Bu yeni prosesin vətəndaşın həyatını necə asanlaşdırdığını aydın bir misal üzərində görmək olar. Əvvəllər ailədə körpə doğularkən valideynlər uzun bir prosesdən keçməli olurdular. Hətta tibb müəssisəsində proseslər elektronlaşdırılsa belə vətəndaş oradan kağız arayış almalı idi. Sonra isə doğum şəhadətnaməsi, uşaq üçün müavinət və şəxsiyyət vəsiqəsi almaq üçün digər qurumlara müraciət edilirdi. Bu gün isə tamamilə fərqli və proaktiv bir sistem işləyir. İndi vətəndaşın övladı doğulduqda klinika məlumatı dərhal sistemə daxil edir. Sistem bu məlumatları birbaşa Ədliyyə Nazirliyinə ötürür. Ədliyyə Nazirliyi isə həmin sistem vasitəsilə valideynə mesaj göndərir. Valideyn elektron şəkildə uşağın adını və soyadını seçir. Əgər seçilən soyad rəsmi siyahıda varsa, təsdiqlənir. Bundan sonra məlumatlar avtomatik və proaktiv şəkildə Dövlət Sosial Müdafiə Fonduna ötürülür. Vətəndaşın heç bir müraciəti olmadan uşağın müavinəti təyin edilir və birbaşa onun kartına köçürülür. Növbəti mərhələdə isə şəxsiyyət vəsiqəsinin alınması proaktiv qaydada təmin edilir. Eyni proses çərçivəsində artıq yaşa görə əmək pensiyası təyin edilərkən də vətəndaşın ayrıca müraciət etməsinə ehtiyac qalmır, müvafiq şərtlər ödənildikdə dövlət informasiya sistemlərində mövcud məlumatlar əsasında pensiya proaktiv qaydada dərhal təyin olunur.

Rəqəmsal ekosistemin imkanları bununla da məhdudlaşmır. Yaxın gələcəkdə vətəndaşlar şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu və ya sürücülük vəsiqəsinin etibarlılıq müddəti başa çatmazdan əvvəl sistem tərəfindən avtomatik şəkildə məlumatlandırılacaqlar. Bu, sənədlərin vaxtında yenilənməsini asanlaşdıracaq və əlavə inzibati çətinliklərin qarşısını alacaq. Həmçinin səfərbərlik üzrə hərbi xidmətə tibbi müayinəyə çağırışlar da rəqəmsal formada həyata keçiriləcək və müvafiq şəxslər dövlət informasiya sistemləri vasitəsilə vaxtında məlumatlandırılacaqlar.

Demək olar ki, son üç ayda bu istiqamətdə olduqca mühüm və konkret praktiki nəticələr əldə edilib. Məsələn, hazırda sürücülük vəsiqəsinin dəyişdirilməsi üçün müraciət tam şəkildə "mygov" üzərindən həyata keçirilə bilir. Yaxın gələcəkdə şəxsiyyət vəsiqəsi və pasport kimi digər mühüm sənədlərin əldə edilməsi və dəyişdirilməsi də tam şəkildə platformaya köçürüləcək.

Təhsil sahəsində də ciddi yeniliklər var. Ali təhsil müəssisələrinə qəbul olan təxminən 75 min nəfər şəxs qeydiyyatı onlayn tamamlaya bilər. Həmçinin övladlarını məktəbəqədər təhsil müəssisələrinə qəbul etdirmək istəyən valideynlər bu prosesi rahatlıqla "mygov" veb-platforması üzərindən icra edə biləcək. Ədliyyə Nazirliyi üzrə notariat xidmətlərindən azyaşlının ölkəni tərk etməsi üçün razılıq ərizəsinin əldə olunması, eləcə də tərcümə sənədlərinin təsdiqi artıq "mygov" üzərindən aparılması mümkün olan yeni xidmətlər sırasındadır. Bu nümunə rəqəmsallaşmanın real gücünü və insan amilinə verilən dəyərin göstəricisidir.

Yeni prosesin tətbiqi qısa müddətdə öz müsbət nəticələrini göstərib. Statistik məlumatlar vətəndaşların bu platformaya marağının sürətlə artdığını sübut edir. Yalnız ötən il ərzində təxminən 1,3 milyon yeni nadir istifadəçi "mygov" platformasına cəlb olunub. Cari ilin yanvar ayının sonunda aktiv istifadəçi sayı 2,5 milyona yüksəlib. Burada istifadəçi dedikdə ay ərzində ən azı bir dəfə sistemə daxil olub xidmətlərdən yararlanan aktiv vətəndaşlar nəzərdə tutulur. Əsas hədəf ilin sonuna qədər bu rəqəmi 5 milyona çatdırmaqdır.

Vətəndaşların və biznes subyektlərinin dövlət xidmətlərinə çıxışı üçün onlarla fərqli mobil tətbiq yükləməsinə artıq ehtiyac qalmayacaq. Bütün proseslər vahid mərkəzdə - "mygov" və "mygov biznes" platformaları üzərində aparılacaq. Qeyd etmək lazımdır ki, dövlətlə biznes arasında vahid pəncərə rolunu oynayacaq "mygov Biznes" platforması artıq test mühitində uğurla yoxlanılıb və bir sıra dövlət qurumlarının xidmətlərinin platformaya inteqrasiyasına başlanılıb. Bu platforma sahibkarlar üçün bütün dövlət xidmətlərinin vahid məkandan idarə edilməsini təmin edəcək.

Artıq bu böyük inteqrasiya prosesinə start verilib. Qısa müddət ərzində geniş istifadəçi kütləsi olan "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam şəkildə platformaya inteqrasiya olunub. Bununla yanaşı, "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Reseptim", "e-Səhiyyə", "MigAz" və "ASAN Müraciət" tətbiqlərinin bir çox xidməti də artıq platformaya köçürülüb. Cari ilin sonunadək qeyd olunan bu tətbiqlərin bütün xidmətlərinin tam şəkildə "mygov" üzərindən təqdim edilməsi planlaşdırılır. Ayrı-ayrı dövlət qurumlarının fərdi portal və mobil tətbiqlərinin mərhələli şəkildə bu vahid ekosistemə inteqrasiya edilməsi şübhəsiz ki, xidmət keyfiyyətinin yüksəldilməsinə və istifadəçi təcrübəsinin köklü surətdə yaxşılaşdırılmasına xidmət edəcək.

Beləliklə, həyata keçirilən bu rəqəmsal islahatlar Azərbaycanın gələcək simasını müəyyən edir. Bütün dövlət xidmətlərinə vahid mərkəzdən - "mygov" platformasından çıxışın təmin edilməsi vətəndaş məmnuniyyətini ən yüksək səviyyəyə qaldıracaq. Sadəlik, çeviklik və şəffaflıq prinsiplərinə əsaslanan bu yeni rəqəmsal sistem ölkəmizi regionun ən qabaqcıl rəqəmsal mərkəzlərindən birinə çevirməkdədir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Yeni nəsil dövlət idarəçiləri qabaqcıl süni intellekt həllərini öyrənirlər

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası çərçivəsində "Boston Consulting Group" (BCG) və Birmingem Universiteti ilə birgə dövlət idarəçiliyində süni intellektin tətbiqinə həsr olunmuş praktik seminar təşkil edib.**

AZƏRTAC xəbər verir ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində (İRİA) keçirilən tədbirdə rəqəmsal transformasiya istiqamətinə cavabdeh olan dövlət qurumları və tabeli təşkilatların rəhbər müavinləri, o cümlədən nazir müavinləri, agentlik sədrlərinin müavinləri və digər dövlət qurumlarının rəhbər şəxsləri iştirak ediblər.



Seminarın əsas məqsədi dövlət idarəçiliyində süni intellektdən istifadə üzrə strateji yanaşmaların formalaşdırılması, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, eləcə də dövlət idarəçiliyinin səmərəliliyinin artırılması məqsədilə agent əsaslı süni intellekt həllərinin məsuliyyətli tətbiqi olub. İştirakçılara süni intellekt texnologiyalarının əsasları, agent əsaslı süni intellekt sistemlərinin imkanları, onların dövlət sektorunda tətbiqi nümunələri, həmçinin süni intellektin dövlət xidmətlərinin keyfiyyətinin artırılmasındakı rolu barədə təqdimatlar keçirilib.

Praktik sessiyalar zamanı iştirakçılar agent əsaslı süni intellekt həllərindən istifadə bacarıqlarını inkişaf etdirib, dövlət idarəçiliyində süni intellektin tətbiqinin yaratdığı imkanlar və çağırışlar ətrafında fikir mübadiləsi aparıblar. Bununla yanaşı, dövlət sektorunda süni intellektdən istifadəyə dair beynəlxalq təcrübə, dövlət qurumlarının süni intellektə hazırlıq səviyyəsinin qiymətləndirilməsi və rəqəmsal transformasiya strategiyalarının hazırlanmasının əsas istiqamətləri müzakirə olunub.

Qeyd edək ki, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın əsas istiqamətlərindən biri dövlət idarəçiliyində rəqəmsal transformasiya və müasir texnologiyaların tətbiqi sahəsində rəhbər vəzifəli şəxslərin bilik və bacarıqlarının artırılmasıdır. Bu məqsədlə seminar çərçivəsində süni intellektin normayaratma prosesində tətbiqi, eləcə də daha effektiv idarəetmə qərarlarının hazırlanmasında istifadəsinə dair yanaşmalar da təqdim olunub.

# Beynəlxalq maliyyə qurumları ölkəmizlə əməkdaşlıqda maraqlıdırlar

**Bu gün qloballaşma və beynəlxalq iqtisadi inteqrasiya ölkələr arasında ticarət, nəqliyyat və investisiya əlaqələrinin daha da genişlənməsinə səbəb olub. Belə bir şəraitdə bazarların əlaqələndirilməsi və iqtisadiyyatların şaxələndirilməsi davamlı inkişafın əsas istiqamətlərindən biri hesab edilir.**



Strateji coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat-logistika infrastrukturu və beynəlxalq əməkdaşlıq təşəbbüsləri sayəsində Azərbaycan Şərqlə Qərbi, eləcə də Şimalla Cənubu birləşdirən regional qovşağa çevrilməkdədir. Ölkəmizin regional iqtisadi qovşaq kimi mövqeyinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar təkcə infrastruktur layihələri ilə məhdudlaşmır. Beynəlxalq maliyyə institutları, investisiya platformaları və biznes dairələri ilə əməkdaşlığın genişləndirilməsi də bu strategiyanın mühüm tərkib hissəsidir. Məhz həmin əməkdaşlıq formatları ölkənin investisiya cəlbediciliyinin artmasına, yeni tərəfdaşlıqların qurulmasına və regional iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir. Bu baxımdan Bakıda keçirilən beynəlxalq tədbirlər Azərbaycanın iqtisadi gündəminin və regional liderlik ambisiyalarının praktik təzahürü kimi xüsusi əhəmiyyət daşıyır.

Onlardan biri də Azərbaycanın sədrliyi ilə keçirilən Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı çərçivəsində bankın və Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) birgə təşkilatçılığı ilə Bakıda keçirilən biznes-forumdur.

"Bazarların əlaqələndirilməsi və iqtisadiyyatların şaxələndirilməsi: Azərbaycan regional qovşaq rolunda" mövzusunda keçirilən biznes-forumda biznes, dövlət və bank sektorunun 170-dən çox nümayəndəsi iştirak edib. 60-dan çox özəl, 20-dən çox xarici şirkətin, həmçinin bir sıra dövlət qurumları nümayəndələrinin təmsil olunduqları forumda Azərbaycanın iqtisadi inkişaf prioritetləri, regional əməkdaşlığın genişləndirilməsi, QDTİB-in ölkəmizdə həyata keçirdiyi layihələr, eləcə də inkişafın maliyyələşdirilməsi sahəsində mövcud tendensiyalar və çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

QDTİB ilə Azərbaycanın əməkdaşlığı ölkənin regional iqtisadi inteqrasiya strategiyasının vacib istiqamətlərindəndir. 20 ildən artıq davam edən tərəfdaşlıq investisiya imkanlarının genişləndirilməsinə, özəl sektorun inkişafına, ixrac potensialının artırılmasına və dayanıqlı iqtisadi artımın dəstəklənməsinə xidmət edir. Bu əməkdaşlığın daha çox dərinləşdirilməsi məqsədilə həyata keçirilən birgə təşəbbüslər və keçirilən beynəlxalq tədbirlər Azərbaycanın regional biznes və investisiya mərkəzi kimi mövqeyini gücləndirir. Ötən iki onillikdə QDTİB maliyyə institutları, istehsal, ticarət, energetika və digər sahələri əhatə edən çoxsaylı layihələri dəstəkləməklə yeni iş yerlərinin yaradılmasına, bazarda üstünlüyün əldə edilməsinə, eləcə də dayanıqlı iqtisadi artımın inkişafına çox töhfə verib. Təsadüfi deyil ki, uğurlu əməkdaşlıq mütəmadi olaraq yeni platformalar və təşəbbüslərlə davam edir. Belə platformalar mövcud tərəfdaşlığı möhkəmləndirir, yeni biznes əlaqələrinin qurulmasına təkan verir və qarşılıqlı investisiya imkanlarının genişlənməsinə səbəb olur. Bu baxımdan biznes-forumu yeni tərəfdaşlıqların qurulması, investisiya imkanlarının dəyərləndirilməsi və işgüzar əlaqələrin genişləndirilməsi üçün əlverişli platforma hesab etmək mümkündür.

Tədbirdə çıxış edən Azərbaycanın maliyyə naziri, QDTİB-in ölkəmiz üzrə rəhbəri Sahil Babayev vurğulayıb ki, Azərbaycan bu gün infrastruktura ciddi investisiyalar yatırır: "QDTİB bizim aktiv tərəfdaşlarımızdan biridir. Bank bu günədək Azərbaycanda 500 milyon avroyadək layihənin maliyyələşdirilməsində iştirak edib. Burada özəl və dövlət şirkətləri üçün yeni imkanlar açılacaq. Bu gün qlobal iqtisadiyyat mühüm transformasiya dövrünü yaşayır. Azərbaycan həm regionun, həm Avropanın, həm də tərəfdaşlarının enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Mövcud geosiyasi çətinliklər fonunda Orta dəhlizin rolu getdikcə artır. Bu baxımdan Azərbaycan bir tərəfdən enerji təhlükəsizliyinin təmin olunmasında vacib rola malikdir, digər tərəfdən isə nəqliyyat infrastrukturu baxımından körpü rolunu oynayır". Nazir həmçinin prioritet inkişaf istiqamətlərinin maliyyələşdirilməsində yerli maliyyə institutlarının və özəl investorların rolunu vurğulayaraq bildirib ki, yeni imkanların reallaşdırılması üçün hökumətlər, beynəlxalq maliyyə institutları, kommersiya bankları və biznes dairələri arasında sıx tərəfdaşlığın davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Neft iqtisadi inkişafın əsas drayverlərindən biri olaraq qalsa da, neftdənkənar sahə geniş spektr üzrə sürətlə önə çıxır. Ötən ilin yekunlarına görə, Azərbaycan iqtisadiyyatının 71 faizini neftdənkənar sahə təşkil edir. Bu inkişafın davamlı təmin olunmasında maliyyə imkanlarının genişləndirilməsi mühüm rol oynayır. Lakin neftdənkənar sahənin dinamik inkişafı təkcə istehsalın artırılması ilə məhdudlaşmır. Həmin məhsulların yeni bazarlara çıxarılması, yerli şirkətlərin beynəlxalq tərəfdaşlarla əlaqələrinin genişləndirilməsi və onların maliyyə resurslarına çıxış imkanlarının artırılması da eyni dərəcədə vacibdir. Məhz bu məqsədlə həyata keçirilən təşviqat və təbliğat mexanizmləri ölkənin ixrac potensialının gücləndirilməsində mühüm rol oynayır. Bu mənada biznes-forumun təşkilatçısı olan AZPROMO-nun əsas məqsədi yerli ixracatçılara dəstək olmaq, onların xarici bazarlara çıxış imkanlarını genişləndirmək və Azərbaycan məhsullarının beynəlxalq bazarlarda tanıdılmasını təmin etməkdir. Həmin istiqamətdə sahibkarların maliyyə, informasiya və institusional dəstək alması da xüsusi əhəmiyyət daşıyır. Yeni tərəfdaşlıqların qurulması və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsi ixrac potensialının daha da artırılmasına imkan verəcək.

Ancaq bütün bunlar göstərir ki, iqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının artırılması artıq yalnız ölkədaxili siyasətin deyil, həm də beynəlxalq iqtisadi əməkdaşlıqdan asılı olan strateji məsələyə çevrilib. Təbii ki, belə bir platformanın məhz indiki mərhələdə təşkil olunması təsadüfi deyil. Qlobal iqtisadiyyatda baş verən transformasiyalar, alternativ nəqliyyat marşrutlarına marağın artması və ölkələr arasında investisiya uğrunda rəqabətin güclənməsi regional əməkdaşlığın yeni məzmun qazanmasını zəruri edir. Bu şəraitdə dövlətlər üçün güclü maliyyə institutları ilə tərəfdaşlıq, biznes dialoqunun genişləndirilməsi və yeni investisiya imkanlarının yaradılması strateji əhəmiyyət kəsb edir. Məhz buna görə beynəlxalq maliyyə institutlarının, dövlət qurumlarının və biznes dairələrinin bir araya gəldiyi platformalar iqtisadi əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm rol oynayır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Yaşıl enerji" dəhlizi Azərbaycan-Avropa əlaqələrində yeni inkişaf mərhələsinin əsasını yaradacaq

**Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasındakı enerji əməkdaşlığı yalnız xam neft və təbii qaz ixracı ilə məhdudlaşmır. Azərbaycanın coğrafi mövqeyi və onun tranzit imkanları da Aİ rəsmilərini düşündürür və perspektivdə yeni layihələrin reallaşacağı gözlənilir.**




AZƏRTAC xəbər verir ki, Avropanın ötən il ərzində enerji təminatında yaranan problem Brüsseli yeni tərəfdaşlar və artan enerji tələbatını ödəmək üçün imkanlar axtarmağa vadar edib. Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə Avropa İttifaqına üzv 10 ölkəni təbii qazla təmin edərək qitənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycanın tranzit imkanları da Aİ-nin diqqətindən yayınmır və yeni layihələrin həyata keçirilməsi istiqamətində rəsmi Bakının atdığı addımlar dəstəklənir. Söhbət əsasən Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizindən gedir.

Azərbaycan Prezidenti İlham Əliyevin enerji siyasətinin uğurları ölkənin iqtisadi inkişafına müsbət təsiri və qlobal siyasi proseslərdə ölkəmizə dəstəyi də nümayiş etdirir. İyulun 1-də Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin mətbuat üçün verdiyi bəyanatda səsləndirdiyi "Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır. Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır. Beləliklə, biz bərpaolunan enerji mənbələri, elektrik enerjisinin qarşılıqlı nəqli və regional enerji şəbəkələri kimi sahələrdə əməkdaşlığımızı dərinləşdirmək üçün nəhəng potensialı görürük.

Azərbaycanı Avropa İttifaqı ilə birləşdirən "yaşıl enerji" dəhlizini qurmaq üçün planlarınızı alqışlayırıq. Bərpaolunan enerji mənbələrinin daha çox istehsalı ixrac üçün daha artıq qaza qənaət edə və qonşularla bölüşərək regional enerji təhlükəsizliyini gücləndirə bilər" fikri heç də təsadüfi xarakter daşımırdı. Burada söhbət Aİ-nin Azərbaycan Prezidentinin müəllifi olduğu layihənin dəstəklənməsindən, maliyyə vəsaiti ayrılmasından gedir. Mərkəzi Asiya və Azərbaycanda istehsal olunan alternativ enerjinin Avropaya çatdırılması regiona iqtisadi dividendlər və siyasi zəmanət qazandıracaq.

Hələ 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur. Sazişdə Xəzər dənizində qiymətləndirilən 500 QVt-dan çox külək enerjisinin Azərbaycan üzərindən Avropaya nəqli nəzərdə tutulur. Hazırda Xəzər dənizi bərpaolunan enerji mənbələri üzrə ən böyük ehtiyatlara malikdir. Təkcə Xəzər dənizinin Azərbaycana aid hissəsində külək enerji istehsalı üçün təxminən 157 QVt güc var. Eləcə də Qazaxıstan sektorunda da günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Bu ölkənin külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Yaxud Özbəkistanın Asiya çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür, külək enerjisinin potensialı 520 QVt, günəş enerjisinin potensialı isə 2 trilyon 58 milyard kilovat/saat təşkil edir. Bu isə Mərkəzi Asiya və Xəzər regionları arasında böyük bir "yaşıl enerji" gücünün səfərbər olunması üçün imkanları artırır. Bu imkandan istifadə edib istehsal olunan enerjini Avropaya nəql etmək təkcə iqtisadi deyil, həm də siyasi baxımdan region dövlətlərinin milli maraqlarına cavab verir.

Göründüyü kimi, həm Mərkəzi Asiyanın, həm də Azərbaycanın böyük alternativ enerji istehsalı potensialı var. Bu potensial həmişə mövcud olub. Lakin ondan istifadə edərək dünya enerji bazarına çıxmaq haqqında ideyanı yalnız Prezident İlham Əliyev kimi xalqına və dövlətinə bağlı olan lider irəli sürə bilərdi. Məsələ heç də ideya təklifində deyil, onu reallaşdırmaq bacarığındadır. Bu gün Azərbaycanın çoxvektorlu xarici siyasəti Avropa liderlərini ölkəmizə gəlib Prezident İlham Əliyevə təşəkkür etməklə müşahidə olunur. Azərbaycan Prezidenti bu istiqamətdə artıq mütərəqqi addımlar atıb. Məhz dövlətimizin başçısının təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq, ümumi gücü 250 meqavat olan Abşeron Batareya Enerji Saxlanc Mərkəzi bu ilin mart ayında istismara verilib. Bu mərkəz bərpaolunan enerjini tənzimləməklə "Azərenerji"nin şəbəkəsini daha dayanıqlı edir. Eyni zamanda Ağdaş rayonunda da oxşar mərkəzin işə salınması planlaşdırılır.

İmzalanmış kontraktlar əsasında 2030-cu ilə qədər 6, 2032-ci ilə qədər isə ümumilikdə 8 giqavat gücündə külək və günəş-elektrik stansiyaları inşa ediləcək. Son beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-dək kiçik su-elektrik stansiyası inşa olunub. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur.

Azərbaycan bu qədər həm istehsal, həm də tranzit potensialı ilə bu gün Avropanın diqqətini çəkərək əməkdaşlıq əlaqələrini artırır. Perspektivdə "yaşıl enerji" dəhlizinin həyata vəsiqə almaq imkanı var ki, bu da Azərbaycan-Avropa əlaqələrində yeni inkişaf mərhələsinin əsasını yaradacaq.

# Rəqəmsal Şuranın iclası, QDTİB-in toplantısı, coğrafiyası genişlənən "Made in Azerbaijan" brendi və neftin qiymətində dalğalanma

**Ötən həftə açıqlanan iqtisadi göstəricilər, maliyyə bazarlarındakı tendensiyalar və qəbul edilən qərarlar iqtisadi gündəmin əsas istiqamətlərini müəyyənləşdirdi. Bu baxımdan həftənin icmalında ən vacib hadisələri və qısaca onların iqtisadi əhəmiyyətini xatırladırıq.**

Həftənin ən mühüm hadisələrindən biri iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasının keçirilməsi oldu. İclasda ölkədə rəqəmsal transformasiyanın sürətləndirilməsi, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, süni intellekt texnologiyalarının tətbiqi, məlumat mübadiləsinin təkmilləşdirilməsi və rəqəmsal idarəetmə sahəsində koordinasiyanın gücləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Eyni zamanda rəqəmsal iqtisadiyyatın inkişafı, innovasiya ekosisteminin genişləndirilməsi və bu istiqamətdə görüləcək işlərin prioritetləri müəyyənləşdirilib.

İclasda çıxış edən Birici vitse-prezident Mehriban xanım Əliyeva bildirib ki, Prezident İlham Əliyevin cari ilin fevralında keçirdiyi müşavirədə verdiyi tapşırıqlara uyğun olaraq, rəqəmsal inkişaf üzrə fəaliyyət planı təsdiqlənib və qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını əhatə edən yol xəritəsi müəyyənləşdirilib. Mehriban xanım xüsusi vurğulayıb ki, Rəqəmsal İnkişaf Şurasının əsas məqsədi dövlət qurumları arasında koordinasiyanı gücləndirmək, rəqəmsal transformasiyanı sürətləndirmək, innovasiya ekosistemini inkişaf etdirmək, investisiyaların cəlbini təşviq etmək və ölkədə daha səmərəli dövlət idarəetmə sisteminin formalaşdırılmasına töhfə verməkdir. O, həmçinin süni intellekt və kibertəhlükəsizlik sahəsində yeni çağırışlara hazır olmağın vacibliyini qeyd edib.

❖ ❖ ❖

Beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, ötən həftə Azərbaycanın logistika və hava yükdaşımaları sektorunda rəqəmsallaşma istiqamətində də mühüm addım atılıb.

İyunun 29-da Xəzər regionu və Mərkəzi Asiyanın aparıcı yük aviaşirkəti olan "Silk Way West Airlines" Şanxayda keçirilən "Air Cargo China 2026" sərgisi çərçivəsində "CargoAi" ilə rəqəmsal tərəfdaşlıq sazişi imzalayıb. Əməkdaşlıq çərçivəsində aviaşirkətin xidmətləri "CargoAi" platformasına inteqrasiya olunacaq ki, bu da beynəlxalq ekspeditorlara daşıma imkanlarına daha operativ çıxış, şəffaf tariflər və növbəti mərhələdə rəqəmsal bronlaşdırma imkanı yaradacaq. Tərəfdaşlığın şirkətin rəqəmsal transformasiyasını sürətləndirməsi, müştəri xidmətlərini təkmilləşdirməsi və Bakının qlobal yükdaşıma habı kimi mövqeyini daha da gücləndirməsi gözlənilir.

❖ ❖ ❖

Rəqəmsal transformasiya və innovasiya ekosisteminin gücləndirilməsi ilə yanaşı, ötən həftə beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində də mühüm addımlar atılıb. Azərbaycanın regional iqtisadi qovşaq kimi mövqeyinin gücləndirilməsi prosesi yalnız infrastrukturla məhdudlaşmır, daha geniş iqtisadi sahələri əhatə edir.




Beynəlxalq maliyyə institutları, investisiya platformaları və biznes dairələri ilə əməkdaşlığın genişləndirilməsi bu strategiyanın mühüm tərkib hissəsidir. Məhz həmin əməkdaşlıq formatları ölkənin investisiya cəlbediciliyinin artırılmasına, yeni tərəfdaşlıqların qurulmasına və regional iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə xidmət edir.

Bu mənada iyulun 2-də Bakıda Azərbaycanın sədrliyi ilə keçirilən Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı çərçivəsində bankın və Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) birgə təşkilatçılığı ilə biznes-forum keçirilib. "Bazarların əlaqələndirilməsi və iqtisadiyyatların şaxələndirilməsi: Azərbaycan regional qovşaq rolunda" mövzusunda keçirilən forumda biznes, dövlət və bank sektorunu təmsil edən 170-dən çox nümayəndə iştirak edib. Tədbirdə 60-dan çox özəl və 20-dən çox xarici şirkətin, eləcə də bir sıra dövlət qurumlarının nümayəndələri təmsil olunublar. Forum çərçivəsində Azərbaycanın iqtisadi inkişaf prioritetləri, regional əməkdaşlığın genişləndirilməsi, QDTİB-in ölkədə həyata keçirdiyi layihələr, həmçinin inkişafın maliyyələşdirilməsi sahəsində mövcud tendensiyalar və çağırışlar müzakirə edilib.

❖ ❖ ❖

Ötən həftənin diqqətçəkən hadisələrindən biri nəqliyyat və logistika sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində Azərbaycanın Beynəlxalq Dəniz Təşkilatının yüksəksəviyyəli tədbirində iştirakı olub.

Ölkəmiz Londonda Beynəlxalq Dəniz Təşkilatının (BDT) Texniki Əməkdaşlıq Komitəsinin 76-cı sessiyasında təmsil olunub. Sessiyada texniki əməkdaşlıq fəaliyyətinin nəticələri dəyərləndirilib, üzv dövlətlərdə kadr potensialının gücləndirilməsi, rəqəmsal transformasiya, dənizçilərin peşə hazırlığı, axtarış-xilasetmə sistemlərinin təkmilləşdirilməsi və texniki yardım mexanizmlərinin inkişafı ilə bağlı məsələlər müzakirə edilib. Tədbirin yekununda BDT-nin Texniki Əməkdaşlıq Portalının inkişafı, audit nəticələrinə əsaslanan texniki dəstəyin genişləndirilməsi və üzv dövlətlər üçün məqsədyönlü yardımın gücləndirilməsini nəzərdə tutan qərarlar qəbul edilib.

❖ ❖ ❖

Azərbaycanın beynəlxalq iqtisadi mövqeyinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar sərgilər və biznes platformaları vasitəsilə həftəboyu davam etdirilib. Bu mənada Çinin Urumçi şəhərində keçirilən 9-cu Çin-Avrasiya Sərgisinin adını çəkərək, Azərbaycanın orada vahid ölkə stendi ilə təmsil olunduğunu qeyd edə bilərik. Sərgi çərçivəsində ölkənin əlverişli biznes və investisiya mühiti, nəqliyyat-logistika və tranzit potensialı, eləcə də "Made in Azerbaijan" brendi altında istehsal olunan məhsullar beynəlxalq auditoriyaya təqdim edilib. Azərbaycanın sərgidə iştirakı xarici investorlarla əməkdaşlığın genişləndirilməsi, ixrac imkanlarının təşviqi və ölkənin regional iqtisadi tərəfdaş kimi mövqeyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, Azərbaycanda neftdənkənar sahənin inkişafında və ixrac potensialının artırılmasında "Made in Azerbaijan" brendi xüsusi əhəmiyyət daşıyır. Bu təşəbbüs yerli məhsulların beynəlxalq bazarlarda tanıdılması, onların rəqabət qabiliyyətinin artırılması və milli istehsalçıların xarici bazarlara çıxışının genişləndirilməsi məqsədilə həyata keçirilir. Dövlət tərəfindən ixrac missiyalarının təşkili, beynəlxalq sərgilərdə vahid ölkə stendi ilə iştirak, xarici bazarların araşdırılması, marketinq fəaliyyətinin dəstəklənməsi, eləcə də yerli şirkətlərin beynəlxalq sertifikat və patentlər əldə etməsinə göstərilən maliyyə dəstəyi "Made in Azerbaijan" brendinin dünya bazarlarında mövqeyinin möhkəmlənməsinə xidmət edir.

❖ ❖ ❖

Beynəlxalq iqtisadi əməkdaşlıq gündəmində yer alan hadisələrdən biri də Avropa İttifaqı ilə tərəfdaşlığın inkişafı istiqamətində aparılan yüksəksəviyyəli təmaslar olub. İyulun 1-də Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycana işgüzar səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirilən görüşdə enerji təhlükəsizliyi, Orta dəhlizin inkişafı, nəqliyyat-logistika əlaqələri, rəqəmsal transformasiya və "yaşıl enerji" sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Tərəflər Azərbaycan-Avropa İttifaqı iqtisadi əlaqələrinin dərinləşdirilməsi və qarşılıqlı investisiya imkanlarının artırılması istiqamətində fikir mübadiləsi aparıblar.

Səfər ölkənin Avropa İttifaqı ilə iqtisadi tərəfdaşlığının gücləndirilməsi, regional nəqliyyat və enerji layihələrinin inkişafı, eləcə də Azərbaycanın strateji tranzit və enerji qovşağı kimi mövqeyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

❖ ❖ ❖

Ötən həftəsonu beynəlxalq bazarlarda qiymətli metalların və enerji resurslarının qiymətlərində dəyişkən dinamika qeydə alınıb. Məlumata görə, qızılın qiyməti artım nümayiş etdirərək iyulun 3-də təxminən 7105 AZN/unsiya səviyyəsinə yüksəlib. Qiymətli metallar üzrə bu artım qlobal bazarlarda investor marağının davam etməsi ilə izah edilir.

Neft bazarında isə həftəsonu daha sabit, lakin nisbətən zəifləyən dinamika müşahidə olunub. "Brent" və digər əsas neft markaları üzrə qiymətlər 70-80 dollar/barel intervalında dəyişib. Azərbaycanda "Azeri Light" markalı neftin qiyməti isə təxminən 84 dollar/barel ətrafında formalaşıb.

***Z.ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dünya Çempionatı -2026

## Meksikalılar bahalı hədiyyələri rədd etdilər

**Meksika millisinin futbolçuları amerikalı videobloqçu "SteveWillDoit" (əsl adı Stiven Deleonardis) tərəfindən hədiyyə edilən "Rolex" saatlarını geri qaytarıblar. Bu barədə yığmanın mətbuat xidməti "X" sosial şəbəkəsində məlumat yayıb.**



"Bütün futbolçularımız qarşılıqlı razılıq əsasında kontent müəllifi "SteveWillDoit"in öz təşəbbüsü ilə hədiyyə etdiyi saatları ona geri qaytarmaq qərarına gəliblər", - deyə açıqlamada bildirilir.

"YouTube" platformasında 1,5 milyondan çox izləyicisi olan Stiven Deleonardis dünya çempionatının 1/16 final mərhələsində Ekvadora qarşı keçirilən və Meksikanın 2:0 hesablı qələbəsi ilə başa çatan oyundan əvvəl hər futbolçuya bir "Rolex" saatı hədiyyə edib. Bloqçunun sözlərinə görə, hədiyyələrin ümumi dəyəri 1 milyon dollar olub. Hər bir saatın qiyməti isə 30 min dollardan 90 min dollara qədər dəyişib.

Deleonardis bu addımını Meksikada yaşaması və komandanın Ekvador üzərində qələbəsinə 2 milyon dollar mərc etməsi ilə izah edib. Onun sözlərinə görə, bu mərcdən təxminən 1 milyon dollar mənfəət əldə edəcəkdi ki, bu da futbolçulara hədiyyə etdiyi saatların ümumi dəyərinə bərabər idi.

"The Athletic" nəşrinin məlumatına görə, bu hədiyyə etik baxımdan suallar doğurub. Belə ki, FIFA-nın Etika Məcəlləsinin 21-ci maddəsinə əsasən, simvolik və ya cüzi dəyərə malik olmayan, qərarlara təsir göstərə və ya maraqlar toqquşmasına səbəb ola biləcək hədiyyələrin qəbul edilməsi qadağandır. Qaydanın pozulmasına görə 12 500 dollardan başlayan cərimə və iki ilədək futbolla bağlı fəaliyyətdən kənarlaşdırılma cəzası nəzərdə tutulur.

## Messi jurnalistlə olan eşq şayiələrinə münasibət bildirdi

**Argentina millisinin hücumçusu Lionel Messi jurnalist Sofi Martineslə bağlı yayılan eşq şayiələrinə ilk dəfə açıq münasibət bildirib. Bu barədə "Daily Mail" nəşri məlumat yayıb.**



"Əgər kiməsə baxıramsa, insanlar soruşurlar niyə. Əgər kiməsə salam verirəmsə, yenə soruşurlar niyə", - deyə Messi zarafatla bildirib.

Jurnalist Sofi Martines də iddiaları təkzib edib: "Bunların hamısı yalandır". Martines həmçinin bildirib ki, futbolçunun həyat yoldaşı Antonella ona şəxsi mesaj yazaraq mediada və sosial şəbəkələrdə yayılan şayiələrə məhəl qoymamağı xahiş edib.

Qeyd olunub ki, şayiələr 2022-ci il dünya çempionatının yarımfinalında Xorvatiya ilə keçirilən oyundan sonrakı müsahibədən sonra yayılmağa başlayıb. Jurnalist daha əvvəl də bu iddiaları təkzib edib və bunun ailəsi üçün xoşagəlməz vəziyyət yaratdığını bildirib.

Messi 2026-cı il dünya çempionatının 1/16 final mərhələsində Kabo-Verde ilə keçirilən oyunda da fərqlənib. Onun vurduğu qol karyerasında 918-ci olub. Hazırda argentinalı ulduz karyerasında 976 qol vuran Kriştianu Ronaldo ilə məhsuldarlıq yarışını davam etdirir. 39 yaşlı futbolçu peşəkar karyerası ərzində 1 160 oyunda meydana çıxıb.

## Meksika əfsanəsi karyerasını başa vurub

**Meksika millisinin qapıçısı Gilyermo "Memo" Oçoa peşəkar futbolçu karyerasını başa vurub. 40 yaşlı qolkiper qərarını DÇ-2026-nın 1/8 finalında İngiltərəyə 2:3 hesablı məğlubiyyətdən sonra açıqlayıb.**



Oçoa karyerası ərzində 6 dünya çempionatında iştirak edib. O, uzun illər Meksika millisinin əsas simalarından biri olub və böyük turnirlərdəki çıxışları ilə futbolsevərlərin yaddaşında iz qoyub.

Oçoa Meksika millisinin heyətində 152 oyun keçirib. Klub karyerası ərzində "Amerika", "Ajaçço", "Malaqa", "Qranada", "Standard", "Salernitana" və AEL-in formasını geyinib.

## Misir millisinin baş məşqçisi barədə qərar verildi

**Misir millisinin baş məşqçisi Hüssam Həsən DÇ-2026-da Fələstin bayrağını qaldırdığı üçün cəzalandırılmayacaq. FIFA-nın "Associated Press"ə verdiyi açıqlamaya görə, baş məşqçinin bu addımı ilə bağlı heç bir intizam araşdırması və ya sanksiya nəzərdə tutulmur.**

Qurum həmçinin xatırladıb ki, dünya çempionatının qaydalarına əsasən, FIFA-ya üzv olan bütün milli assosiasiyaların bayraqlarının stadionlarda nümayiş etdirilməsinə təhlükəsizlik və davranış qaydalarına əməl olunması şərti ilə icazə verilir.

Qeyd edək ki, Fələstin Futbol Federasiyası da FIFA-nın rəsmi üzvüdür.

Xatırladaq ki, Avstraliya üzərində qazanılan qələbədən sonra Hüssam Həsən azarkeşlərin alqışları altında meydana çıxaraq Fələstin bayrağını nümayiş etdirmiş, matçdan sonra isə qələbəni Misir və Fələstin xalqlarına həsr etdiyini bildirmişdi.



## Seneqal millisində yeni qalmaqal

**Seneqal milli komandasının liderləri - hücumçu Sadio Mane ilə müdafiəçi Xalidu Kulibali arasında fikir ayrılığı yaranıb. Gərginlik müdafiəçi Malanq Sarrın dünya çempionatı heyətinə daxil edilməsi ilə bağlı olub.**



Mane müdafiəçinin heyətə cəlb edilməsini israr edib, Kulibali isə qərara qarşı çıxıb. Bundan sonra onların arasında soyuqluq yarandığı bildirilib.

Seneqal milli komandası 1/16 finalda Belçikaya 2:3 hesabı ilə uduzduqdan sonra mundialla vidalaşıb. Onların mübarizədən kənarlaşdırılmasından sonra yarımmüdafiəçi Pape Qeye millidən getdiyini açıqlayıb. O, baş məşqçi Pepe Travın rəhbərlik etdiyi hazırkı məşqçilər heyəti ilə milli komandada oynamayacağını açıqlayıb.

## Almaniya millisində Klopp dönəmi başlayır?

**Yurgen Klopp Almaniya milli komandasının baş məşqçisi olmağa razılıq verib. Bu barədə insayder-jurnalist Fabritsio Romano özünün "X" sosial şəbəkəsindəki səhifəsində məlumat yayıb.**




Mənbə bildirir ki, uzunmüddətli müqavilənin detalları və Kloppun "Red Bull" sistemindən ayrılması şərtləri hələ də müzakirə edilir. Lakin 59 yaşlı mütəxəssis "Bundestim"in yeni baş məşqçisi olacaq.

Qeyd edək ki, Yurgen Klopp 2025-ci ildən etibarən "Red Bull"un beynəlxalq əlaqələr üzrə direktoru vəzifəsində çalışır və onun bu şirkətlə müqaviləsi 2029-cu ilin sonuna qədərdir.

Xatırladaq ki, iyulun 3-də Almaniya Futbol İttifaqı (DFB) Yulian Nagelsmannla müqaviləyə vaxtından əvvəl xitam verildiyini elan etmiş və Kloppla danışıqlara başlamaq niyyətində olduğunu bildirmişdi.

## Cordan Henderson zədələndi

**İngiltərə millisinin yarımmüdafiəçisi Cordan Henderson 1/8 finalda Meksika üzərində qazanılan 3:2 hesablı qələbədən sonra zədələnib.**

Matçda forma geyinməyən təcrübəli futbolçu final fitindən sonra komanda yoldaşları və azarkeşlərlə birlikdə qələbəni qeyd etmək üçün meydana çıxıb. Lakin sevinc zamanı Henderson reklam lövhəsinin üzərindən tullanarkən uğursuz eniş edib və xəsarət alıb. Bundan sonra meydana dərhal tibbi briqada daxil olub. İngiltərə millisinin futbolçuları həkimlər gələnədək Hendersonun ətrafında dairə yaradaraq onu qoruyublar.

Nəticədə yarımmüdafiəçi xərəkdə meydandan çıxarılıb. Onun zədəsinin dərəcəsi hələlik açıqlanmayıb.





## "Qələbəyə layiq olduğumuzu düşünürəm"

**Braziliya millisinin baş məşqçisi Karlo Ançelotti 1/8 finalda Norveçə məğlubiyyəti şərh edib. İtaliyalı mütəxəssis komandasının turnirdəki çıxışını dəyərləndirib.**

"Hamımız çox məyusuq. Çünki düşünürəm ki, komanda mükəmməl olmasa da, yaxşı dünya çempionatı keçirdi. Bugünkü matçda da qələbəyə layiq olduğumuzu düşünürəm. Biz bu məğlubiyyəti yeni macəranın və yeni dövrün başlanğıcı kimi görməliyik. İşləməyə, inkişaf etməyə və yeni ideyalar tapmağa davam etməliyik. İnanıram ki, bu məğlubiyyət son deyil, yeni dövrün başlanğıcıdır", - deyə Ançelotti bildirib.

Braziliya 1/8 finalda Norveçə 1:2 hesabı ilə uduzaraq DÇ-2026 ilə vidalaşıb.

## Braziliyanın Norveç sindromu

**Braziliya millisinin Norveçə qarşı uğursuz seriyası davam edir. Tarixində 91 fərqli ölkəyə qarşı oynayan "sambaçılar"ın məğlub edə bilmədiyi yeganə komanda Norveçdir.**

Komandalar indiyədək beş dəfə üz-üzə gəlib. İlk qarşılaşma 1988-ci ildə yoldaşlıq oyunu çərçivəsində keçirilib və 1:1 hesabı ilə başa çatıb. 1997-ci ildə Fransada təşkil olunan beynəlxalq hazırlıq turnirində Norveç 4:2 hesablı qələbə qazanıb. 1998-ci il dünya çempionatının qrup mərhələsində skandinaviyalılar Braziliyanı 2:1 hesabı ilə məğlub ediblər. 2006-cı ildə Osloda keçirilən yoldaşlıq görüşündə isə qalib müəyyənləşməyib - 1:1.

Norveç DÇ-2026-nın 1/8 finalında da Braziliyanı 2:1 hesabı ilə məğlub edərək bu uğurlu seriyanı davam etdirib.



## Belçikadan FIFA-ya etiraz

**Belçika Kral Futbol Federasiyası ABŞ millisinin hücumçusu Folarin Baloqunun cəzasının təxirə salınmasına etiraz edib. Qurum bununla bağlı rəsmi açıqlama yayıb.**



Federasiya bildirib ki, Baloqunun ABŞ - Belçika oyununda iştirak edə bilməsi onları təəccübləndirib. Açıqlamada qeyd olunub ki, FIFA qərarını İntizam Məcəlləsinin 27-ci maddəsinə əsaslandırsa da, eyni məcəllənin 66.4-cü maddəsinə görə qırmızı vərəqə alan futbolçu növbəti oyunu avtomatik buraxmalıdır. Belçika tərəfi əlavə edib ki, bu qərar FIFA Dünya Çempionatı-2026-nın yarış təlimatlarının 10.5-ci maddəsinə də ziddir. Həmin maddədə qırmızı vərəqə alan futbolçunun komandasının növbəti matçını avtomatik buraxacağı açıq şəkildə göstərilib. Bəyanatda vurğulanıb ki, eyni qayda 12 may 2026-cı ildə iştirakçı federasiyalara göndərilən FIFA-nın 16 nömrəli dairəvi məktubunda, eləcə də hər matçdan əvvəl keçirilən koordinasiya iclaslarında dəfələrlə təsdiqlənib.

Qeyd edək ki, Belçika Kral Futbol Federasiyası turnirdə ədalətli oyun prinsipinin qorunması üçün bütün hüquqi imkanları araşdırdığını açıqlayıb.

## Meksika-İngiltərə matçında fırtına qorxusu

**DÇ-2026-nın həyəcanı davam edərkən Meksika və İngiltərə yığmaları arasındakı qarşılaşma start götürmədən gözlənilməz problemlə üzləşib.**

"Mexico City Stadium" (Estadio Azteca) ətrafında müşahidə edilən şiddətli yağış, ildırım və göy gurultusu fırtına protokolunun işə düşməsinə səbəb olub. FIFA-dan gələn rəsmi açıqlamaya görə, qarşılaşma əlverişsiz hava şəraiti səbəbindən ən azı 1 saat gecikib və Bakı vaxtı ilə saat 05:00-da başlayıb.

Protokolun qaydalarına əsasən, stadionun 8 mil yarımçapındakı ərazidə hər yeni ildırım təsbit edildikdə oyun avtomatik olaraq daha 30 dəqiqə təxirə salınır.



## "Nə vaxt istəsəm, onda gedəcəyəm"

**Portuqaliya millisinin kapitanı Kriştianu Ronaldo DÇ-2026-da İspaniya ilə oyunöncəsi mətbuat konfransında diqqətçəkən açıqlamalar verib.**



41 yaşlı hücumçu onun əsas heyətdə oyuna başlamasının müzakirə olunmasına sərt reaksiya verib. "41 yaşımda əsas heyətdə oynamağım sual olunur? 23 ildir insanlar məni bitirməyə çalışırlar. Amma artıq bilirlər ki, vaxtlarını boş yerə sərf edirlər. Çalışırlar, çalışırlar, çalışırlar... Amma boşunadır. Mən buna öyrəşmişəm. Karyeramı nə vaxt istəyirəmsə, onda bitirəcəyəm, siz istəyəndə yox. Meydanda oynasam da, ehtiyatda qalsam da, təsirim dəyişməyəcək. Bu dünya çempionatını insanların ehtirası ilə xatırlayacağam. Burada hamımız birlikdəyik. Bu, xüsusi turnirdir və Dioqo Jota üçündür".

## Qana millisi də "başsız" qaldı

**Karluş Keyruş futbol üzrə Qana milli komandasının baş məşqçi postundan gedib. 73 yaşlı portuqaliyalı mütəxəssis bu barədə sosial şəbəkə hesabında paylaşım edib.**



O, rəhbərliyi altında DÇ-2026-da mübarizə aparan komandanın mundialdakı çıxışı ilə qürur duyduğunu, amma daha böyük uğur qazana bilmədikləri üçün müəyyən məyusluq hiss etdiyini bildirib. Eləcə də Keyruş yerli federasiyanın rəhbərliyinə ona "qara ulduzlar"ı çalışdırmaq imkanı yaratdığı üçün təşəkkürlərini çatdırıb.

Xatırladaq ki, Qana millisi dünya çempionatının 1/16 final mərhələsində Kolumbiya seçməsinə 0:1 hesabı ilə uduzaraq turniri tərk edib.

## Keyn İngiltərə yığmasının mundialdakı rekordunu təkrarladı



**Hücumçu Harri Keyn dünya çempionatlarının pley-off mərhələsində vurulan qolların sayına görə İngiltərə millisinin rekordunu təkrarlayıb.**

Hücumçu 1/8 finalda Meksikaya qarşı oyunda fərqlənib. Bu, Keynin sözügedən mərhələlərdəki 6-cı qolu olub. Eyni sayda qolu İngiltərə millisinin tarixində yalnız Harri Lineker vurmağı bacarmışdı. Qeyd edək ki, hücumçu 85 qolla İngiltərə millisinin ən çox fərqlənən oyunçusudur. O, Rusiyada keçirilən dünya çempionatında rəqib qapılarına 6 qol vurmaqla turnirin bombardiri olmuşdu.

*Hazırladı:*
***Dönməz ABBASOV***

# "AzerGold"un 25-ci sikkə kolleksiyası dövlət şirkətinin 10 illik fəaliyyətinə həsr edilib




**"AzerGold" QSC fəaliyyətinin 10 illiyi münasibətilə xüsusi dizaynla hazırlanmış yubiley sikkə kolleksiyasını ictimaiyyətə təqdim edib. Kolleksiyada "AzerGold" QSC-nin ötən 10 il ərzində ölkənin dağ-mədən sənayesinin inkişafına verdiyi töhfələri əks olunur.**

Qızıl və gümüş sikkələrin ön hissəsində "AzerGold"un korporativ üslubunu və fəaliyyət istiqamətini simvolizə edən elementlər, mərkəzi hissədə isə cəmiyyətin loqosu yerləşdirilib. Kompozisiyanı əhatə edən konsentrik dairəvi xətlər davamlı inkişafı, hərəkəti və gələcəyə yönəlmiş strateji baxışı ifadə edir. Sikkənin əsas elementi olan "10" rəqəmini əhatə edən spiral relyef açıq tipli mədən karxanasının yuxarıdan görünüşünü xatırlatmaqla mərkəzə doğru enən pilləli quruluş təsiri yaradır. Karxana təsviri yerin dərinliklərindəki sərvətlərin insan əməyi, elm və texnologiyanın vəhdəti sayəsində iqtisadi dəyərə çevrilməsini vurğulayır. Sikkələrin üzərində "2016–2026" tarixlərinin əks olunması isə "AzerGold"un 10 illik fəaliyyət yolunu simvolizə edir.

Kolleksiya dövlət şirkətinin ölkəmizdə hasil etdiyi qızıl və gümüş xammalından hazırlanıb. Həm estetik görünüşü, həm də xatirə əhəmiyyəti ilə diqqət çəkən məhsullar məhdud sayda istehsal olunub.

Sikkə kolleksiyası "AzerGold" QSC-nin Bakı şəhəri, Bülbül prospekti, 3 ünvanında yerləşən Satış və mübadilə mərkəzində, həmçinin www.azergold.gift onlayn satış platforması vasitəsilə alıcılara təqdim edilir.

***"Azərbaycan"***

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** ***qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Şükürbəyli kəndində daha 46 ailəyə evlərinin açarları təqdim olunub







**İşğaldan azad olunan Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar. Onlara evlərinin açarları təqdim olunub.**



AZƏRTAC xəbər verir ki, Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Xatırladaq ki, kənddə hər biri 80 yerlik olmaqla, iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib. Bununla yanaşı, 35/10 kV-luq elektrik yarımstansiyası inşa olunub, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, internet və "İP TV" şəbəkələri yaradılıb, kənddaxili yollar asfaltlanıb. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçün ayrılıb. Müasir üslubda inşa olunan evlər 2, 3, 4 və 5 otaqlıdır.

Qeyd edək ki, bu mərhələdə Şükürbəyli kəndinə 46 ailə olmaqla, 223 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# Avropada meşə yanğınları tüğyan edir

**Avropanın bir neçə ölkəsini meşə yanğınları bürüyüb. Yüzlərlə yanğınsöndürən və təcili yardım texnikası səfərbər edilib. Fransanın cənubunda iki nəfər yaralanıb, 5 min sakin təxliyə olunub.**





Son günlər meşə yanğınları bir neçə Avropa ölkəsində minlərlə hektar bitki örtüyünü məhv edib. Fransadan savayı, Yunanıstan, İspaniya və Portuqaliyada yüzlərlə yanğınsöndürən odla mübarizə aparır.

Fransanın Pireney-Orientales departamentində baş verən yanğın Perpinyan şəhəri yaxınlığındakı ucqar bir ərazidə aşkar edilib. AFP agentliyinin məlumatına görə, təxminən 700 yanğınsöndürən, 200 texnika və 10 təyyarə və helikopter yanğınla mübarizə aparır. İki nəfər - bir yanğınsöndürən və bir yerli sakin ağır yaralanıb.

Pireney-Orientales hakimiyyəti 5 min sakinin təxliyə edildiyini açıqlayıb. Yerli departamentin prefekti Renyo de la Mot bildirib ki, hazırda tüğyan edən olduqca böyük meşə yanğını xeyli yanğınsöndürmə resurslarının, eləcə də daxili təhlükəsizlik xidmətlərinin və bütün dövlət qurumlarının cəlb edilməsini tələb edir. Fransanın digər 41 departamentində isə yanğın riski yüksək olaraq qalır və onlardan 7-də ən yüksək xəbərdarlıq səviyyəsi elan olunub.

Yunanıstanın Saloniki şəhəri yaxınlığındakı Tullantı emalı zavodunda da yanğın baş verib. Qalın qara tüstü şəhər mərkəzinə yayılıb. Hakimiyyət orqanları zəhərli tüstü riski səbəbindən sakinlərə pəncərələrini bağlamağı və evdə qalmağı tövsiyə ediblər. 3 kəndin və qayğıya ehtiyacı olan 157 nəfərin yaşadığı qocalar mərkəzinin sakinləri də təxliyə olunublar. Oreocastron şəhərinin hakimiyyət orqanlarının məlumatına görə, yanğını təsadüfən törətməkdə şübhəli bilinən 76 yaşlı kişi həbs edilib.

Afinanın qərbində daha bir böyük meşə yanğını qeydə alınıb. 210 yanğınsöndürən və könüllü xüsusi təyyarələrlə birlikdə yanğınla mübarizə aparır. Bundan başqa, İspaniyanın şimal-şərqindəki Jirona əyalətində bir neçə gündür meşə yanğını davam edir. EFE-nin məlumatına görə, yanğın təxminən 2200 hektar əraziyə yayılıb. Portuqaliyanın Vosela bələdiyyəsində isə 400 nəqliyyat vasitəsi və 15 təyyarənin dəstəyi ilə 1200 yanğınsöndürən alovu söndürməyə çalışır. Alov artıq 12000 hektar ərazini əhatə edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Neftçalada Xəzər dənizinə nərə cinsli 400 min balıq körpəsi buraxılıb

**Prezident İlham Əliyevin sərəncamı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Neftçala rayonu ərazisində - Kür çayının Xəzər dənizi ilə qovuşduğu hissədə nərəkimilər fəsiləsinə aid və çəkisi 2-10 qram arasında olan 400 min balıq körpəsi təbii mühitə buraxılıb.**



Balıq ehtiyatlarının artırılması və biomüxtəlifliyin qorunması üçün "Xıllı Balıq" MMC-nin iştirakı ilə həyata keçirilən bu layihə sayəsində cari il ərzində 600 minə yaxın nərə cinsli balıq körpəsi Xəzərin sularına - ana təbiətə qovuşub.

Xəzərə nərə cinsli balıq körpələrinin buraxılması ölkəmizdə yeni hadisə deyil. Bu layihə illərdir davamlı olaraq həyata keçirilir. 22 May - Beynəlxalq Bioloji Müxtəliflik Günü münasibətilə Neftçalada orta çəkisi 0,5-1 kq arası olan nərə cinsli 2 min balıq körpəsinin Xəzər dənizinə buraxılması ilə bu ekoloji aksiyanın cari mərhələsinə start verilib. Belə çəkidə, yəni nisbətən yetkin balıq körpələrinin dənizə buraxılması nəsli kəsilmək təhlükəsi altında olan nadir növün qorunması və artırılması işinə böyük dəstəkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Daşkəsəndə uşaqlar üçün sosial reabilitasiya mərkəzi fəaliyyətə başlayıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyinin sifarişi ilə Daşkəsən rayonunda 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial reabilitasiya mərkəzi fəaliyyətə başlayıb.**



Layihənin məqsədi əlilliyi olan uşaqlara erkən müdaxilə və reabilitasiya xidmətləri göstərmək, onların sosial inteqrasiyasını dəstəkləmək, inklüziv təhsil imkanlarını genişləndirmək, asudə vaxtlarının səmərəli təşkilinə kömək etmək, eyni zamanda valideynləri maarifləndirmək və bacarıqlarının inkişafına dəstək verməkdir.

"Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin təşkilatçılığı ilə yaradılan mərkəzdə uşaqların fərdi ehtiyacları nəzərə alınaraq funksional qiymətləndirmələr aparılır və onların gündəlik həyatda qarşılaşdıqları əqli, fiziki və kommunikasiya problemlərinin aradan qaldırılması üçün müasir reabilitasiya üsulları tətbiq edilir.

Hazırda mərkəzdəki xidmətlərdən autizm, daun sindromu, serebral iflic, əqli inkişaf geriliyi, nitq pozuntuları və digər inkişaf məhdudiyyətləri olan 3-18 yaş aralığında 50 uşaq yararlanır. Onlarla pedaqoq, psixoloq, sosial işçi və loqoped olmaqla 4 ixtisaslaşmış mütəxəssis məşğul olur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bəzi yerlərdə hava yağıntılı olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturu gecə 20-23, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi şimal və qərb rayonlarında yağıntıların güclənəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 32-37, dağlarda gecə 11-16, gündüz 18-23, bəzi yerlərdə 25-29 dərəcə isti olacağı bildirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Səbinə Salmanovaya atası

**QƏDİR SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev deputat Səbinə Salmanovaya atası

**QƏDİR SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Xanlar Fətiyev Milli Məclisin deputatı Səbinə Salmanovaya atası

**QƏDİR SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektoru, texnika elmlər doktoru, professor Nurəli Yusifbəyli və universitetin professor-müəllim heyəti Milli Məclisin deputatı Səbinə Salmanovanın atası

**QƏDİR SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi agentliyin əməkdaşı Əli Hüseynliyə anası

**İLHAMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3053**
Sifariş **862**

**Qiyməti 60 qəpik**